**Z. Ə. CAVADOVA**

# ŞİMAL-QƏRBİ AZƏRBAYCAN

(tarixi-demoqrafik araşdırma)

Tədqiqat M. Ə. Rəsulzadə adına

Bakı Dövlət Universitetinin

Dünya Azərbaycanlıları (tarixi demoqrafiya)

Elmi-tədqiqat lobaratoriyasında yerinə yetirilmişdir

Bakı - 1999

Naşiri, elmi redaktoru və ön sözün müəllifi əməkdar

elm xadimi, tarix elmləri doktoru, professor

**YAQUB MAHMUDLU**

Kitab M. Ə. Rəsulzadə adına

Bakı Dövlət Universitetinin Tarix fakültəsi

Elmi Şurasının qərarı ilə çap olunur

Z. Ə. Cavadova:
Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik tədqiqat)

Kitabda Şimal-Qərbi Azərbaycan tarixinin indiyədək oxuculara məlum olmayan maraqlı səhifələrindən söhbət açılır, Şəki xanlığı, İlisu sultanlığı, Car-Balakən camaatlarının tarixinə dair yeni faktlar gətirilir. Əsərdə XIX yüzilliyin əvvəlində çarizmin Şimal-Qərbi Azərbaycanda yeritdiyi qanlı müstəmləkəçilik siyasətinin mahiyyəti açıqlanır, bu barədə oxuculara yeni və maraqlı faktlar təqdim olunur.

© "Altay" nəşriyyatı, Bakı, 1999

# ŞİMAL-QƏRBİ AZƏRBAYCAN: YURDUN TARİX XƏZİNƏSİ

## ÖN SÖZ

Ata yurdumuz Azərbaycanın indiyədək layiqincə öyrənilməyərək qalan bir guşəsi var. Coğrafiya dərsliklərində "Şimal-Qərbi Azərbaycan" adlandırılır bu diyar! Yurdun tarix xəzinəsindir Şimal-Qərbi Azərbaycan! Həm də zaman-zaman qarı düşmənlərin qarət etdikləri, yağıların indi də göz dikdikləri və öz bəd niyyətlərini içimizdəki dönüklərin əli ilə əlaltdan xısın-xısın həyata keçirdikləri xəzinə!!! Minillər boyunca doğma tariximizin neçə-neçə nadir incilərinin toplandığı və qorunub saxlandığı bu nadir xəzinə hələ də Vətən qeyrətli tədqiqatçıların yolunu intizarla gözləməkdədir!...

Vətən torpaqları sərhədlərdən başlanır. El-obamıza, Ata yurduna təcavüz edən, yurd yerlərimizi əlimizdən qoparıb almağa çalışan yağılara qarşı nər igidlərin qeyrət davası, namus qovqası da məhz sərhədlərdən başlanır. Bu baxımdan ulu tariximiz boyunca Azərbaycanımıza xaricdən aramsız olaraq vurulan ən ağır zərbələri öz üzərinə götürən, müqəddəs Vətən torpağının bir qarışını belə əldən verməmək üçün özündən qat-qat güclü düşmənlərlə döşləşən, qanlı qırqınlar, sitəmlər görən, ata-babalarımızın uyuduğu müqəddəs qəbristanları qoruya-qoruya Vətən tarixini neçə-neçə şəhid qəbristanları ilə daha da şərəfləndirən Şimal-Qərbi Azərbaycan ellərinin tarix araşdırıcılarını (bəlkə də ilk növbədə də bu sətirlərin müəllifini!) qınamağa doğrudan - doğruya haqları vardır.

Haqları vardır ona görə ki, uludan ulu tarixə malik olan əkinçilik və sənətkarlıq mədəniyyətimizin ən qədim izləri ilə nə qədər də zəngindir Yurdun bu guşəsi! Qanıx çayı boyunca qərbə doğru uzanıb gedən əski yaşayış yerlərinin, ucu-bucağı görünməyən məhsuldar düzlərin, iskit-türk kurqanlarının, kimmerlərlə, iskitlərlə, saklarla, hunlarla, xəzərlərlə, oğuzlarla, qıpçaqlarla bağlı neçə-neçə abidənin ünvanıdır bu yerlər!

Qədim iskitlərin yadigarı, neçə-neçə qoşmalarımızın, bayatılarımızın əzəl mübtədası olan Şəki də burdadır, saklardan qalma dünya gözəli Zaqatala da! Dədə Qorqud boylarının cərəyan etdiyi Oğuz qəhrəmanlarının “qara donlu kafirlər”ə qan uddurduğu yerlərdir bu yerlər! Daş Oğuz (Daşüz) da burdadır, Qıpçaq da burda! Qüdrətli Oğuz sərkərdəsi Beləkanın uyuduğu Balakən də burdadır, adını bu yerlərin dağa-dərələrinə, yaşayış yerlərinə, Qanıx çayına yadigar buraxaraq Cənubi Qafqazda və Anadoluda özündən sonra neçə-neçə “Köynük” kəndi yadigar qoymuş Köynük tayfasının qədim nəsilləri də burda!

Bu gün Dədə Qorqud qəhrəmanlarının dilindən qopan şirin oğuz türkcəsini kim öz qulaqları ilə eşitmək istəyirsə, Şimal-Qərbi Azərbaycana gəlsin, Şəkinin, qədim Taraqayın (Qaxın) dağ kəndlərinə - Baş Köynüyə, İlisuya, Sarıbaşa getsin, Zaqatalanın, Balakənin “muğal” kəndlərinə baş vursun, Oğuz, Qəbələ camaatı ilə

görüşsün! Bu yerlərin istiqanlı camaatının minillərlə qoruyub saxladığı qədim türk məişəti ilə canlı təmasa girsin!

Şimal-Qərbi Azərbaycanın tarixi həm də yurdumuzun ən qədim dövlətçilik tarixidir. Bu gün Qafqaz Albaniyasının tarixi məhz Şimal-Qərbi Azərbaycanda yaşayır. O dövrlərdən qalma saysız hesabsız qədim alban abidələri yaşadır bu tarixi! Albaniya tarixinin canlı yadigarları olan qədim alban etnosları, o cümlədən ingiloylar, udilər və bir çoxlarının gündəlik həyatında - məişətində, mərasimlərində yaşayır bu tarix! Bütün bunlar real tarixi keçmiş olmaqla yanaşı, həm də bu günkü gerçəklikdir, inkarolunmaz həqiqətdir! Başqa sözlə, Qafqaz Albaniyasının həm siyasi ağırlıq mərkəzi (paytaxt Qəbələ də daxil olmaqla), həm də qaynar mədəni mühiti idi Şimal-Qərbi Azərbaycan! Elə buna görə də tarixin ən qədim çağlarından başlayaraq həmişə Yurdun, Azərbaycan dövlətçiliyinin keşiyində durub bu yerlər! Qanlı fırtınalara, qasırğalara sinə gərib, lakin bir qarış da olsun yağılara torpaq verməyib bu ellərin nər igidləri! Albaniya dövründə Qədim Roma qoşunları ilə də qılınc döyüşdürüb, ad çıxarıb, sonralar Bizans imperiyasının irəli buraxıb arxadan güc verdiyi qonşu ölkələrin feodal cəlladlarına da öz gücünü göstərib Şimal-Qərbi Azərbaycan igidləri!

Nə etməli?! Oğuz - qıpçaq tarixinin ən qanlı qardaş qırğınlarının baş verdiyi acı tale qisməti də bu yerlərin payına düşüb. "Qara donlu kafirlər"in min bir hiyləsinə uyaraq, eyni kökdən törəyən - Oğuzun belindən gələn oğuz və qıpçaq türklərinin bir-birinin üzərinə yeridiyi, qardaş qanı axıtdığı yerlərdir bu yerlər! Bir sözlə, Dədə Qorqud boylarının Vətənidir bu yerlər! Bütün bununlarla yanaşı, həm açı təəssüflər, həm də nə yazıqlar ki, "Vətən!" bağırtısından qulaq tutulan yalançı "vətənpərvərlərin" (əslində isə böyük hərflərlə NADANLARIN!) "etniklərin yaşadığı yerlər" kimi tanıdıqları, buna görə də gözdən uzaq, könüldən iraq düşmüş yerlərdir bu yerlər!

Tarix haqqı tapdalamaz! Naqqı tək-tək dönüklər tapdalamağa çalışar. Lakin zaman keçər, tarix yenə hər şeyi öz yerinə qoyar! Öyrən tariximizi, əziz oxucu, saxtakarların qələm tapdağına çevrilməmiş doğma tariximizi, əsl tariximizi! O cümlədən də Şimal-Qərbi Azərbaycanın gerçək tarixini!

Yurdun hər guşəsi bir tarix xəzinəsidir! Şimal-Qərbi Azərbaycan da bir guşə, bir xəzinədir! Öyrən, Albaniya dövründən sonra, orta əsrlərdə paytaxt Qəbələdən uzaqlaşdıqca Azərbaycan hökmdarlarının siyasət dünyasından da uzaqlaşan, nəhayət Vətənin ucqar bir guşəsinə çevrilən Şəkinin - Şimal-Qərbi Azərbaycanın tarixini! Onda görərsən sənin bu ellərindəki soydaşların nə qədər mürəkkəb şəraitlərlə, nə qədər çıxılmaz vəziyyətlərlə üzləşməli olmuş, dara düşmüş, köməksiz qalmış, neçə-neçə Qazan xanlarımız Daşüzdə, Qanlı Qobuda, Qıpçaqda, Çarda, Balakəndə kürək-kürəyə verib "qara donlu kafirlər"ə qarşı döyüşlərdə şəhid düşən torpağa qovuşan oğuz igidlərinin dadına çata bilməmiş, qəbristanlar dalınca qəbristanlar salınmış, saysız-hesabsız şəhid məzarlıqlarına çevrilmişdir Şimal-Qərbi Azərbaycan! Tarixin sərt sınaqları, torpağa bağlılıq, elə

sədaqət, türk qılıncının - Yataqanının zəfər ənənələri, "qara donlu kafirlər"ə qarşı nifrət və intiqam hissi igidlər dalınca igidlər yetirmişdir Şimal-Qərbi Azərbaycanda!

Qərbdən sel kimi tökülüşüb gələn Bizans-səlibçi quldurlarına - "qara donlu kafirlər"ə qarşı qəhrəmanlıq mübarizəsindən, qanlı "oğuz-qıpçaq" qardaş qarşıdurmalarından - qırğınlarından sonra Şəki dövrü başlanır Şimal-Qərbi Azərbaycanın tarixində! Şəki hakimliyi Böyük Azərbaycan Məmləkətinin Şimal-Qərbində müqəddəs Yurd sərhədlərimizin alınmaz qalasına çevrilir! Bu yerlərdə Azərbaycan dövlətçiliyinin keşiyində durur Şəki! Yurdun qərb sərhədlərində yağı hücumları ara verəndə Vətənin başqa bölgələrinin də dadına çatır Şəki hakimləri! Vətən yolunda, Yurdun azadlığı naminə şəhidlik məktəbi keçmiş Şəki igidləri XIV yüzilliyin sonunda özlərini Əlinəcəqalanın qəhrəman müdafiəçilərinin köməyinə də yetirir, misilsiz igidliklər göstərir, qədim Naxçıvanımız, Əlincə qalamız uğrunda döyüşlərdə şəhid düşürlər!

Bütün orta əsrlər boyu yurdun Şimal-Qərbində basılmaz sərhəd qalasına çevrilən Şəki hakimliyi, eyni zamanda, İran əsarətinə qarşı bütün Şimali Azərbaycanda ən qüvvətli azadlıq hərəkatı mərkəzinə çevrilir. Qüdrətli sərkərdə - böyük İran hökmdarı Nadir və onun saysız-hesabsız hərbi qüvvələri də Hacı Çələbinin başçılıq etdiyi Şəki igidlərini məğlub edə bilmirlər. Bu dövrdə - XVIII yüzilliyin 40-cı illərində Azərbaycanda İran zülmünə qarşı xalq azadlıq hərəkatının gedişində ilk müstəqil Azərbaycan dövləti - Şəki xanlığı da Yurdun bu guşəsində yaranır.

Öz mənafeləri xatirinə bir-birilə didişən ayrı-ayrı xanların aciz hala saldıqları və qüdrətli dövlətlərin yağlı tikəsinə çevrilməkdə olan Azərbaycanı birləşdirib qüdrətli və vahid dövlətə çevirmək kimi nurlu ideyanın doğulduğu məkanlardan biri də məhz Şəki, həmin ideyanın banisi isə Azərbaycanın qəhrəman oğullarından biri olan Hacı Çələbi xan idi. Lakin el qeyrəti çəkən, cəsurluğuna, hökmdar qətiyyəti və tədbirliliyinə, döyüşlərdə göstərdiyi şəxsi igidliyinə görə başqa Azərbaycan hakimlərindən fərqlənən Hacı Çələbi də yaxınlaşan Rusiya işğalı ərəfəsində Azərbaycanı birləşdirmək planını həyata keçirə bilmədi. Azərbaycanın digər xanları ona qarşı birləşdilər və Qərbi Azərbaycan torpaqlarını, o cümlədən Şimal-Qərbi Azərbaycanı zəbt etmək üçün məqam gözləyən qonşu ölkənin hökmdarını - çar Teymurazı oğlu İrakli ilə birlikdə köməyə çağırdılar (kimə qarşı?!). Lakin özləri düşdülər toxuduqları düşmən toruna - əsir alındılar yağı düşmən tərəfindən! Lakin Vətənin qeyrətini, Yurdun şərəfini uca tutan Hacı Çələbi qeyrət səlnaməmizə daha bir şanlı səhifə yazdı. Ona düşmənçilik, Vətənə isə xəyanət edən Azərbaycan xanlarının yadellilər tərəfindən əsir alınıb aparılmasını qeyrətinə sığışdırmadı. Qoşun çəkib xarici düşmənin hərbi qüvvələrini pərən-pərən saldı, "Azərbaycan xanları" adlanan daxili dönükləri xilas etdi.

Beləcə, Rusiya və İran işğalçılarının qəsbkarlıq müharibələri ərəfəsində Azərbaycanı birləşdirmək üçün edilən daha bir cəhd də baş tutmadı. Öz içindən parçalanmış Azərbaycanın qara günləri başlandı. Qafqazın şimalında dağlıların getdikcə alovlanmaqda olan azadlıq hərəkatını mühasirəyə almaq, Azərbaycanı Dağıstanla əlaqələndirən dağ keçidlərini ələ keçirməyi qarşısına məqsəd qoymuş Rusiya cəlladları Şimal-Qərbi Azərbaycanı qanlı qırğın meydanına çevirdilər.

Oxucuya təqdim olunan bu kitab - istedadlı tədqiqatçı Zərinə Cavadovanın "Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik tədqiqat)" əsəri də məhz tariximizin bu dövrünün işıqlandırılmasına həsr olunmuşdur.

Əsər zəngin tarixə malik olan şimal-qərb bölkəmizin tarixi-demoqrafik baxımdan öyrənilməsi məqsədinə xidmət edir. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında (AKAK) toplanan mühüm sənədlər, həmçinin digər qiymətli arxiv sənədlərinin əsasında yazılan bu kitabda müəllif XIX yüzilliyin I yarısında regionun tarixinə qısa bir nəzər salır, Azərbaycanın Rusiya tərəfindən işğalının məhz bu əlverişli strateji məntəqədən başlanmasının təsadüfi olmadığını açıqlayır.

Müəllif özünün bu qiymətli tədqiqatında oxucunu işğal ərəfəsində Şimal-Qərbi Azərbaycanda mövcud olan dövlət qurumlarımız - Car-Balakən camaatları, İlisu sultanlığı və Şəki xanlığının ictimai-siyasi vəziyyəti ilə tanış edir, işğal zamanı rus hərbçilərinin - Sisianovların, Qulyakovların, Madatovların törətdiyi amansız vəhşilikləri və qəddarlıqları gözlərimiz önündə canlandırır.

Kitabda tarixi az öyrənilmiş bir dövlətimizin -İlisu sultanlığının keçmişinə, Azərbaycanın qəhrəman oğlu Daniyal sultanın başçılığı altında gedən azadlıq mübarizəsinə, Car-Balakən camaatları və İlisu sultanlığının Rusiyaya qatılmasından sonra inzibati idarəçilikdə baş verən dəyişikliklərə toxunan müəllif qeyd edir ki, Rusiya işğalçıları təkcə Azərbaycanı iki hissəyə parçalamaqla kifayətlənməmiş, Şimal-Qərbi Azərbaycanı ayrı-ayrı dövlətlərin tərkibində Rusiyaya birləşdirmək kimi məkrli bir planı da həyata keçirmək istəmişdilər. Yalnız bölgədə genişlənən xalq azadlıq mübarizəsi nəticəsində, habelə qaniçən general Sisianovun öldürülməsi sayəsində Şimal-Qərbi Azərbaycanı bütünlüklə Gürcüstanın tərkibində Rusiyaya birləşdirmək niyyəti boşa çıxmışdı. Bununla belə, 1859-cu ildə, yaranmış fürsətdən istifadə edən Rusiya İlisu sultanlığına məxsus tarixi Azərbaycan torpaqlarının bir hissəsini - dağ mahalını Dağıstanın tərkibinə qatmışdı. Beləsə, keçmiş İlisu sultanlığının bir hissəsi - tarixi Azərbaycan torpaqları Dağıstanın tərkibində Rusiyaya qatılmışdı.

XIX yüzilliyin əvvəlində çarizmin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətinin ən mühüm tərkib hissəsi onun "uzaqgörən" köçürmə siyasəti idi. İmperiya siyasətinin icraçıları olan qanlı Rusiya generalları bu zaman strateji cəhətdən misilsiz əhəmiyyəti olan Car-Balakəndən 1000 Azərbaycan-türk ailəsini zorla öz tarixi ata-baba torpaqlarından qoparıb Gürcüstanın içərilərinə köçürmüşdülər.

Kitabda Car-Balakən camaatları, İlisu sultanlığı və Şəki xanlığında yaşayan əhalinin ümumi sayı, etnik tərkibi, Rusiya işğalı dövründə baş verən siyasi hadisələrin demoqrafik proseslərə təsiri və başqa məsələlərdən söhbət açılır, 1819-cu ildə Şəkidə xanlıq idarə üsulunun ləğv edilməsindən sonra yaradılmış Şəki əyalətində yaşayan əhalinin sayı və sosial tərkibi göstərilir.

Z.Ə.Cavadovanın haqqında bəhs etdiyimiz qiymətli tədqiqatında Car cəlladlarının qoltuğuna sığınmış erməni generallarının Azərbaycan torpaqlarına yiyələnmək üçün həyata keçirdikləri "uzaqgörən" və hiyləgər tədbirlərin yeni səhifələri açıqlanır. Əsərdəki faktlardan aydın olur ki, Rusiya ordusunun tərkibində azərbaycanlıları kütləvi surətdə məhv etməkdə "ad çıxarmış" erməni generalı Madatov Şəkidə yaşayan albanları Azərbaycanın içərisində ermənilərin toplu halda yaşadıqları və çoxluq təşkil etdikləri bir ərazi yaratmaq məqsədilə Qarabağa köçürtmüşdü. Bunun mütabilində isə, Rusiya tərəfindən Şəkiyə xan təyin edilən Cəfərqulu xan, qabaqcadan düşünülmüş plana uyğun olaraq, Xoydan Şəkiyə çoxlu erməni ailələri gətirtmiş, onları xanlığın ərazisində yerləşdirmişdi. Şəki şəhərinin və xanlığın çox əlverişli strateji məntəqələrində yerləşdirilən bu erməni ailələri elə ilk gündən Rusiya imperiyasının xüsusi "qayğısı" ilə əhatə edilərək, yerli əhalidən "qorunub" saxlanılırdı. Xoydan köçürülən ermənilər yerli əhaliyə qarşı Rusiya müstəmləkəçilərinə xidmət müqabilində hətta, dövlət vergilərinin xeyli hissəsinindən azad edilmişdilər.

Birinci Rusiya-İran müharibəsi zamanı, habelə sonralar Şəki xanları Qarabağda hərbi əməliyyatlar meydanında köməksiz qalıb qırılmaqda olan çoxlu Azərbaycanlı ailələrini Şəkiyə köçürmüşdülər. Digər tərəfdən, əlverişli təbii-iqtisadi şəraitə və nisbətən təhlükəsiz yaşayış yerinə çevrilən Şəki xanlığının ərazisinə Qarabağdan çoxlu qaçqın ailələri köçüb gəlmişdilər. Şəhərdə "Gəncəli məhəlləsi", xanlığın ərazisində bir sıra köç yerləri - Salbanlar, Köçəri Axullu, Şirinbəyli və s. kimi yaşayış məskənləri belə yaranmışdı. Həmin dövrdə Şimal-Qərbi Azərbaycanda Qafqaz dağlarından vadilərə enən dağlı tayfalarına məxsus yaşayış məskənləri də salınmağa başladı. Məsələn, bu dövrdə Şəki ərazisində Şin, Qazmalar, Haputlu, Mıçıx, Mazıllı kimi kəndlərin əsası qoyuldu. Beləliklə, Şəkidə və xanlıq ərazisində Azərbaycanı türklərinin yeganə etnos olması ilə barışa bilməyən müstəmləkəçilər özlərinin gələcəkdə bu bölkədə də qarşıdurma yaratmaq məqsədilə ilk addımlarını atmağa başladılar.

Kitabda Rusiya əsarətinə qarşı çevrilən azadlıq hərəkatı, o cümlədən qüvvətli xalq üsyanları barədə də geniş və maraqlı məlumat verilir. Hələ işğalın ilk dövründəcə - 1807-ci ildə baş verən Köynük üsyanı göstərdi ki, Şimal-Qərbi Azərbaycan çarizmin milli müstəmləkə zülmünə qarşı Azərbaycanın ən qüvvətli azadlıq mübarizəsi mərkəzinə çevrilməkdədir.

Z. Ə. Cavadovanın yuxarıda bəhs etdiyimiz mətləbləri açıqlamaq yolunda ilk addım olan "Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik tədqiqat)" əsəri uğurlu araşdırmadır. Oxucuların bu kitabı rəğbətlə qarşılayacağına şübhə etmirəm.

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor **Yaqub Mahmudlu**

## GİRİŞ

XX yüzilliyin sonunda qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı öz dövlət müstəqilliyini yenidən bərpa edərək tarixi haqqına qovuşdu. Əsrin sonunda genişlənən milli-azadlıq mübarizəsinin gedişində xalqın öz tarixinə, soykökünə qayıtması prosesi gücləndi. Bu istək isə saxtalaşdırılmış vətən tarixinin yenidən, obyektiv, doğru-dürüst yazılmasını tələb edirdi. Qısa müddətdə bu sahədə bir sıra mühüm işlər görüldü. Xalq özünün zəngin və qədim dövlətçilik tarixi, qəhrəmanlıq mübarizəsi haqqında çox şey öyrəndi. Lakin bütün görülən işləri, aparılan elmi araşdırmaları tam bitmiş hesab etmək olmaz. Ona görə ki, tariximizin araşdırılmamış, öyrənilməmiş səhifələri hələ çox qalır.

Şimal-qərbi Azərbaycanın ayrı-ayrı tarixi dövrlərdə demoqrafik durumunun, etnik tərkibinin öyrənilməsi bu gün xüsusi aktuallıq kəsb edən məsələlərdən biridir. Azərbaycanın bu regionu ictimai fikrimizin, mədəniyyətimizin inkişafında və formalaşmasında mühüm rol oynamışdır. Qədim Azərbaycan dövlətlərindən biri olan Qafqaz Albaniyasının paytaxtı Qəbələnin məhz bu ərazidə yerləşməsi də təsadüfi deyildi. Şimal-qərbi Azərbaycan ən qədim türkdilli soyların məskunlaşdığı ərazi olmaq etibarilə dövlətçiliyimizin yaranmasında və qorunub saxlanmasında əvəzsiz rol oynamışdır.

Hazırkı dövrdə bir tərəfdən Gürcüstan, digər tərəfdən Dağıstan respublikaları ilə sərhəddə yerləşən bölgənin zəngin və qədim tarixinin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, vətən sərhəddən başlanır. Bu gün sərhədlərimizi təkcə müharibə aparılan ərazilərdə qoruyub saxlamaq haqqında düşünməməliyik. Real tarixi faktların araşdırılması və tədqiq edilməsi dövlətimizə qarşı əsassız torpaq iddiası ilə çıxış edənlərə, xalqımızın soy kökünü birtərəfli və qərəzli surətdə ancaq gah irandilli, gah da qafqazdilli tayfalarla bağlamağa cəhd göstərənlərə tutarlı cavab verməlidir.

Şimal-qərbi Azərbaycan əhalisinin etnik tərkibi xeyli dərəcədə mürəkkəbdir. Azərbaycanın əlverişli təbii-coğrafi şəraitə malik olan bu guşəsi yurdumuzun ən qədim insan məskənlərindən biridir. Qaynaqlardan məlum olduğu kimi bu ərazinin ən qədim sakinləri türk və qeyri-türk kökündən olan qədim alban tayfaları olmuşdur. Bu gün bu ərazidə öz varlığını qoruyub saxlamış olan toponimlər şimal-qərbi Azərbaycanda yaşayan on qədim soyların məhz türkdilli tayfalar olduğunu bir daha təsdiq edir. Öz adını sak tayfalarının adından götürmüş Şəki, Zaqatala, türk tayfalarının adı ilə bağlı olan Qaraqoyunlu, Cəyirli, Göynük, Qaradağlı, Qıpçaq, Bəydərli, Tanqıt kimi yaşayış yerlərinin bu gün də bu ərazidə qalması dediklərimizi bir daha təsdiq edir.

Yurdumuzun tarix salnaməsi olan "Kitabi Dədə-Qorqud"la səsləşən toponimlər bu bölgənin zəngin və qədim tarixindən xəbər verir. Y. M. Mahmudlu

yazır: "Azərbaycanın bu bölgəsində iskit (skif)-sak dövründən başlayaraq ümumtürk tarixinin bütün qatlarından dərin izlər qalıb. “Daş Oğuz”dan yadigar qalan “Daş üz”, qıpçaqlardan yadigar qalan “Qıpçaq” kəndi buradadır. Oğuzun nəsil şəcərəsindəki türk sərkərdəsi Belekanın adından yadigar qalan və yerli camaatın indi də “Bələkon”, “Beləkan”, “Belekan” adlandırdığı “Balakən” də burdadır”. (124, s. 58).

Oxuculara təqdim etdiyimiz bu tarixi araşdırma arxiv materiallarına, statistik müşahidələrə və müxtəlif xarakterli məlumatlar toplularına, təsvirlərə, aktlara, siyahıyaalmalara əsaslanır.

İstifadə etdiyimiz mənbələr içərisində 1866 -1904-cü illərdə Tiflisdə nəşr olunmuş 12 cildlik “Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları” (AKAK) xüsusi yer tutur. Aktlarda toplanan sənədlər Qafqazın XVIII-XIX əsrlər tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, eyni zamanda Rusiya imperiyasının Qafqazda yeritdiyi müstəmləkəçilik siyasətinin əsl mahiyyətini açmağa imkan verir sənədlər içərisində iqtisadi və sosial münasibətlər tarixinə aid materiallar nisbətən azlıq təşkil etsə də, dövrün siyasi tarixinin bir çox məqamlarının açılmasına xidmət edən sənədlər bizə həm də şimal-qərbi Azərbaycan əhalisinin demoqrafik durumunu, etnik tərkibini izləmək üçün bütöv, zəngin faktik material verir.

XIX yüzilliyin əvvəlində Car-Balakən, İlisu və Şəki xanlığında yaşayan əhalinin etnik tərkibi, demoqrafik durumu ilə tanışlıq göstərir ki, məhz əsrin əvvəlində baş verən siyasi hadisələr bu prosesə ciddi şəkildə təsir göstərirdi. Rusiya imperiyasının Azərbaycana qarşı Gürcüstan ərazisindən başlanan işğalçılıq siyasətinə qarşı çıxış edən dağlı tayfalarının azadlıq mübarizəsi, çarizmin repressiyaları və köçürmə siyasəti nəticəsində əvvəllər Baş Qafqazın dağlıq ərazilərində yaşayan avarların düzənliklərə axışması prosessinin XIX əsrin əvvəlində sürətlənməsi məhz siyasi hadisələrin nəticəsi idi. Bu, bir tərəfdən işğala qarşı mübarizədə Qafqaz xalqlarının vahid islam-türk birliyinin yaranması, digər tərəfdən vadilərin əlverişli iqtisadi şəraiti ilə əlaqədar idi.

Aktlardakı sənədlərdən aydın olur ki Rusiya Car-Balakəni işğal edən zaman bu ərazidə yaşayan türk əhalisini onların ata-baba torpaqlarına - Gürcüstanın içərilərinə köçürmək, əvəzində isə burada Rusiyanın mərkəzi quberniyalarından köçürülən rusları yerləşdirmək niyyətində idi. Bu məqsədlə də o zaman 1000 türk ailəsi Car-Balakəndən - öz yaşayış yerindən zorla çıxarılaraq Gürcüstanın içərilərinə köçürülmüşdür. Köçürülən əhali yenidən öz əvvəlki yaşayış yerinə qayıdarkən rus hərbçiləri onların ərazidə məskunlaşmasına hər vasitə ilə maneçilik törədirdi.

1852-ci ildə siyasi və hərbi səbəblərə görə keçmiş Dağ mahalının (Saxurun) bütün əhalisinin Zaqatala dairəsinə köçürülməsi haqqında da aktlarda maraqlı sənədlər var.

Aktlardakı sənədlərin təhlili göstərir ki Xoy hakimi Cəfərqulu xan tərəfindən Şəkiyə gətirilən erməni ailələri məhz Rusiyanın himayesi və qayğısı nəticəsində bu ərazidə saxlanmış, erməni generalı V. Q. Madatov Qarabağdan Şəkiyə qaçan ermənilləri (keçmiş albanları - Z. S.) xüsusi erməni mərkəzi yaratmaq məqsədi ilə zorla öz əvvəlki yaşayış yerinə qaytarmışdı.

Aktlarda Rusiyanın XIX əsrin əvvəlində köçürmə siyasəti, rus təriqətçilərinin Şimali Azərbaycana, o cümlədən qeyd etdiyimiz əraziyə köçürülməsi, ərazinin yerli əhalisi olan qədim türk etnoslarının, ingiloyların, udinlərin (utilərin) xristianlaşdırılması siyasətini izləməyə imkan verən sənədlər də xüsusi maraq doğurur.

Bununla yanaşı aktlardakı sənədlər içərisində şimal-qərbi Azərbaycanda çarizmin müstəmləkə əsarətinə qarşı çevrilən milli-azadlıq mübarizəsinin xarakteri, gedişi və bu mübarizənin qəhrəmanları haqqında qiymətli materiallar vardır.

Azərbaycan Respublikasının Mərkəzi Dövlət Tarix Arxivində saxlanılan bir çox sənədlər tarixi araşdırma zamanı xüsusi rol oynamışdır. Bu sənədlər içərisində siyahıyaalmaların özünəməxsus yeri var.[1]

Tarixi araşdırma zamanı istifadə etdiyimiz mənbələr içərisində siyahıyaalmalardan başqa təsvirlərin və statistik müşahidələrin xüsusi rolu olmuşdur.[2]

Rusiya Mərkəzi Dövlət Hərbi Tarix Arxivindən tapılan sənədlərin toplusundan ibarət olan sənədlər külliyatı[3] Car-Balakən və İlisu sultanlığının əhalisi, yaşayış yerləri haqqında maraqlı məlumat verir.

XIX yüzilliyin əvvəlində Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildi. Qafqazı işğal edən rus hərbçiləri işğalın ilk günündən bu ərazinin tarixini, onun təbii sərvətlərini, əhalisinin etnik tərkibini, dini mənsubiyyətini, xalqın etnoqrafiyasını öyrənməyə xüsusi diqqət yetirirdi. Qafqazın, o cümlədən şimal-qərbi Azərbaycanın hərtərəfli öyrənilməsində yalnız bir məqsəd-işğal olunmuş ərazilərdə çarizmin müstəmləkəçilik siyasətini möhkəmləndirmək məqsədi güdülürdü. Məhz bu maraq nəticəsində XIX əsr rus zadəgan tarixşünaslığının

---

[1]Описание Шекинской провинции составленное в 1819 г. ген. май. Ахвердовым и статским советником Могилевским - Печатное. Тифлис, 1866. ЦГИА Азерб., ф. 24. оп. 1. д. 71; Камеральное описание жителей города Нухи и Шекинской провинции за 1824 год. ф. 24. оп. 1. д. 162; Опись с переводами по Шекинской провинции 1831. ф. 24. оп. 1. д. 364; Опись с переводами Шекинской провинции камеральное описание 1831, часть IV, ф. 24. оп. 1. д. 365; Камеральное описание мусульманских провинций (списки жителей семей) 1830, ф. 24. оп. 1. д. 331; Описи с переводами Шекинской провинции. Камеральное описание. 1831, ф. 24. оп. 1. д. 363; Камеральное описание жителей города Нухи, платящих подати, ф. 29, оп. 1. д.9; Камеральное описание крестьян селений Нухинского участка, часть 1, ф. 29. оп. 1, д. 21; Камеральное описание селений Нухинского участка, часть II, ф. 29. оп. 1, д. 12. və s.

[2]Обозрение Российских владений за Кавказом. СПб., 1836, Статистическое описание Закавказского края. СПб., 1833; Статичтические труда И. Ф. Штукенберга. СПб., 1860 və s.

[3]История, география и этнография Дагестана XVIII—XIX вв. Москва, 1958.

nümayəndələri tərəfindən yazılan, indi də öz aktuallığını və əhəmiyyətini itirməyən bir sıra əsərlər meydana gəldi. S. Bronevski (109.), K. F. Qan (113.), D. E. Zubarev (116.), İ. P. Lineviç (123.), Fon-Plotto (131.), İ. İ. Şopen (132.), E. Veydembaum (112.), O. İ. Konstantinova (118.) və başqalarının əsərlərində şimal-qərbi Azərbaycanın siyasi, sosial-iqtisadi tarixi ilə bağlı bir çox məsələlərlə yanaşı bu ərazidə yaşayan əhalinin sayı, dinamikası, sosial strukturu, etniktərkibi, etnoqrafiyası və s. Haqqında qiymətli məlumatlar var.

Lakin qeyd etmək lazımdır ki, bu əsərlərdə şimal-qərbi Azərbaycan ərazisinin bir hissəsi, xüsusilə Car-Balakən və İlisu sultanlığının ərazisi Kaxetiya ərazisi kimi təqdim edilir, bölgənin ən qədim türk və qeyri-türk alban etnoslarının mənşəyi təhrif olunur, çarizmə qarşı öz azadlığı uğrunda inadlı mübarizə aparan dağlılar isə ümumi "ləzgi" adı altında birləşdirilərək "oğru", "quldur", "qarətçi" və s. adlandırılır. Əlbəttə, bu qərəzli və birtərəfli mövqe Rusiya imperiyasının dövlət maraqlarından irəli gəlirdi. Məqsəd, işğal edilmiş ərazidə möhkəmlənmək, Qafqaz xalqlarının ümumi düşmənə qarşı mübarizəsini zəiflətmək, onları bir-birinə qarşı qoymaq, nəticədə çarizmin müstəmləkəçilik siyasətini gücləndirmək idi.

Məz bu qeyri-elmi, xüsusi məqsəd güdən, yanlış və əsassız fikirlərdən istifadə edən bəzi gürcü tarixçiləri Azərbaycanın bu bölgəsinə qarşı əsassız ərazi iddiaları ilə çıxış etmiş və qədimlərdə bu torpaqların guya gürcülərə məxsus olması kimi yanlış mülahizələr irəli sürmüşdür.

XX yüzilliyin əvvəlində meydana çıxan bir sıra əsərlərdə, o cümlədən İ. P. Petruşevskinin xüsusi məqsədlə yazılmış və buna görə də regionun türk etnoslarının tarixini təhrif edən əsərində (128.) Car-Balakən və İlisu sultanlığının siyasi, sosial-iqtisadi tarixi ilə bağlı bir sıra problemlərlə yanaşı, əhalinin etnik tərkibi haqqında da məlumat verilmişdir.

Azərbaycan tarixşünaslığında XIX əsr Azərbaycan tarixinin bir sıra problemlərinin öyrənilməsi ilə əlaqədar olaraq yazılan əsərlərdə şimal-qərbi Azərbaycanın əhalisi, etnik tərkibi, sayı, dinamikası, sosial tərkibi və s. haqqında bir sıra məlumatlar da öz əksini tapmışdır.[4]

Tarixi araşdırma aparılan zaman həmin tədqiqat əsərlərindən də istifadə edilmiş və XIX əsr mənbələri ilə müqayisəli şəkildə təhlil edilmişdir.

[4] М. Исма]ылов. "Шеки". Бакы 1982, А. С. Сумбат-заде. "Прогрессивное влияние присоединения Азербайджана к России на рост народонаселения страны в XIX веке — Известия АН Азерб. ССР, 1952, № 3; Д. М. Мустафаев. "Северные ханства Азербайджана и России". Баку, 1989; И. М. Гасанов "Частновладельческие крестьяне в Азербайджане в первой половине XIX века". Баку, 1957 və s.

Oxuculara təqdim edilən bu tarixi-demoqrafik araşdırmanın yazılmasında göstərdiyi xidmətə və verdiyi dəyərli məsləhətlərə görə tarix elmləri doktoru, professor Y. M. Mahmudluya dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

# I FƏSİL

## §1. Azərbaycanın işğalına Car-Balakəndən başlanmalı idi

Son dərəcə əlverişli strateji mövqeyə, münbit torpaqlara, zəngin təbii sərvətlərə malik olan Şimal-Qərbi Azərbaycan regionunun tariximizdə özünəməxsus yeri var. Məhz bu ərazi dövlətçiliyimizin, hərbi siyasi qüdrətimizin, ictimai fikrimizin, mədəniyyətimizin formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Şimal-Qərbi Azərbaycan oğuz-türk tayfalarının həmçinin qədim Qafqaz Albaniyasının digər etnoslarının yaşadığı ən qədim insan məskənlərindən biridir. Zaman-zaman yadelli əsarətinə, işğala, milli zülmə qarşı çevrilən azadlıq mübarizəsinin mərkəzlərindən biri olan Şimal-Qərbi Azərbaycan Dərviş Məhəmməd xanın, Hacı Çələbinin, Səlim xanın, Daniyal Sultanın, Gəynüklü Sultan Muradın vətənidir. Bu igid el oğullarının apardığı qəhrəmanlıq mübarizəsi tariximizin şanlı səhifələrini təşkil edir. Şimal qərbi Azərbaycan ərazisində Azərbaycan xalqının çoxəsrlik istehsal ənənələri formalaşmış və güclü şəkildə uzunmüddət mühafizə edilib saxlanmışdır. Ərazinin xeyli hissəsini ohatə edən meşəliklər zəngin bitki örtüyünə malikdir. Geniş əraziyə malik sıx meşələr başdan-başa meşə ağacları-qarağac, çökə, palıd, qoz, şabalıd, fındıq, meyvə ağacları - alma, armud, gavalı, tut, zoğal, yabanı ərik və üzüm tənəkləri ilə doludur. İl boyu yağış suları ilə suvarılan və öz gözəlliyi ilə şöhrət qazanan Zaqatala, Qax, Balakən və Şəki meşələrində vəhşi qaban, ayı, maral, dağ keçisi, dağ pişiyi, çaqqal, dovşan, tülkü, vəhşi öküz çoxluq təşkil edir.

Çoxəsrlik istehsal ənənələri və zəngin təbii sərvətlər təsərrüfatın müxtəlif sahələrinin inkişafına əhəmiyyətli şəkildə təsir göstərmişdir. Əkinçilik, bağçılıq, ipəkçilik yüksək səviyyədə inkişaf etmişdi. Alazan çayı ilə Baş Qafqaz dağları arasındakı məhsuldar torpaqlar başdan-başa taxıl zəmiləri və tut bağlarından ibarət idi. İpəkçilik əhalinin əsas və başlıca gəlir gətirən sahələrindən biri sayılırdı. XIX əsrin əvvəlində Şəki əyaləti barama istehsalına görə Qafqazda birinci yeri tuturdu. Car-Balakəndə istehsal edilən ipək əsasən Tiflis, Gəncə və Dağıstan vasitəsilə Rusiyaya aparılırdı. Şimal-Qərbi Azərbaycan həm də qədim sənətkarlıq və ticarət mərkəzi kimi geniş şöhrət qazanmışdı. XIX əsrin I yarısında şəhərlərdə demək olar ki, sənətkarlığın bütün sahələri xeyli inkişaf etmişdi.

XIX əsrin əvvəlində şimal-qərbi Azərbaycanda mövcud olan dövlət təsisatları Şəki xanlığı, Car-Balakən camaatları və İlisu sultanlığı idi.

XIX əsrin əvvəlində feodallıqlara parçalanma şəraitində baş verən ara müharibələri, Car Rusiyasının işğalçılıq planları ərazini çox ağır vəziyyətə

salmışdı. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirdi. Xalqın apardığı qəhrəmanlıq mübarizəsinə baxmayaraq Car-Balakən, İlisu və Şəki xanlığının ərazisi işğal edildi. Bu isə bölgənin sonrakı siyasi, iqtisadi, etnik və mədəni inkişafına ağır təsir göstərdi.

XIX yüzilliyin əvvəlində şimal-qərbi Azərbaycanda mövcud olan dövlət təsisatlarından biri Car-Balakən camaatlığı idi. "Camaat" ərəb sözü olub ayrıca icmanı bildirir. Şimal-qərb və qərbdən Kaxetiya, cənubdan Şirək düzü, şərqdən Şəki xanlığı ilə həmsərhəd olan bu feodal təsisatı əsasən Alazanın aşağı axarında yerləşirdi. Ərazinin tərkibinə Baş Qafqaz silsiləsinin şimal yamacında yerləşən torpaqlar da dəxil idi. Qədim Azərbaycan torpaqlarında yaranan Car-Balakən camaatları özündə altı camaatı-Car, Balakən, Tala, Katex, Muxax və Cınıxı birləşdirirdi.

Car-Balakən camaatlarının formalaşması prosesi əsasən XVI əsrdən başlamışdı. XVI əsrin sonu, XVII əsrin əvvəllərində şimal-qərbi Azərbaycana Dağıstandan köçüb gələn avar ailələri əsasən yerli xalqların yaşadığı Balakən, Car, Muxax, Tala və Katex kəndlərində məskunlaşırdılar. Dəniz səviyyəsindən 3000 metr yüksəklikdə, qeyri-məhsuldar və yoxsul təbiətə malik olan ərazidə yaşayan dağlı tayfalarının qış otlaqları əsasən Baş Qafqaz silsiləsinin cənub yamaclarıda yerləşirdi. Əkinçi-maldar, yarımköçəri həyat sürən dağlı tayfaları öz qoyun sürülərini müntəzəm olaraq bu əraziyə sürürdülər. Qeyri-məhsuldar şərait, aztorpaqlılıq getdikcə daha çox dağlı tayfalarının vadilərə enməsinə səbəb olurdu. Doğrudur, tarixi faktlar dağlıların vadilərə müəyyən bir zamanda və kütləvi şəkildə enməsi haqqında məlumat vermir. Belə ki, bu proses əsasən XVI əsrdə başlamış və sonrakı yüzilliklərdə də davam etmişdi. Başqa sözlə desək dağlı tayfalarının Azərbaycanın düzən ərazilərində məskunlaşması prosesi tədricən getmişdi.

Rus zadəgan tarixşünaslığında dağlı tayfalarının Qafqazın cənub yamaclarındakı zəngin və münbit ərazilərə axını yalnız birtərəfli, həm də qərəzli mövqedən təsvir edilir. "Hər il on minlərlə davakar ləzgilər dağlardan Qara və Xəzər dənizi arasında olan vadilərə enərək talançılıq və quldurluq edir, xərac toplayır, çoxlu sayda əsir ələ keçirirdilər. Bu yürüşlər zamanı ləzgilərin bir hissəsi vadilərdə məskunlaşır, digər hissəsi isə cənub əyalətlərinin isti hava şəraitinə uyğunlaşmadıqları üçün dağlara qayıdır və gələcək qarətlərin başlanmasını gözləyirdilər. Ləzgi basqınlarının bir müddət ara verməsi Gürcüstan, İran və Azərbaycan xanlıqlarında yaşayan əhalinin bu davakar xalqın tamamilə əsirinə çevrilməsi təhlükəsindən xilas edirdi" (118 s. 377.).

Rus zadəgan tarixşünaslığının nümayəndəsi İ. Lineviç yazırdı ki, Car və Qax ərazilərinin ləzgilər tərəfindən tutulması ləzgi, ingiloy və muğalların rəvayətləri və bu məsələ ilə maraqlanan adamlar tərəfindən toplanan materiallarla ziddiyyət təşkil etmir. Belə ki, polkovnik Koseb tərəfindən 1826-cı ildə tərtib olunmuş statistik məlumatlara görə qarlı dağlar arxasında yaşayan və qluxodar (açıq sinəli adam) adı ilə tanınan bu adamlar iş üçün Kaxetiyaya gəlirdilər.

Gürcülər onlardan ən ağır işlərdə istifadə edirdilər. İş dalınca Kaxetiyaya gələnlərin sayı ildən-ilə çoxaldığı üçün onların hamısının ehtiyacını ödəmək mümkün olmurdu. İşsiz və ac qalan qluxodarlar oğurluq və quldurluğa qurşanırdı. Qluxodarların getdikcə güclənən quldurluğu və talançılığı kaxetiyalıların onların bu əraziyə keçməsini qadağan etməsinə səbəb oldu. Səfil və ac vəziyyətə düşən dağlılar Kaxetiyaya böyük silahlı dəstələrlə hücum etməyə başladılar. Dağıstanın digər qonşu əhalisini çağıran qluxodarlar Kaxetiyada qorxulu dağıntılara başladı. Kaxetiyalıların qluxodarlar üzərində bir neçə qələbəsi heç bir nəticə vermədi. Ona görə ki, qluxodarlar uğursuzluğa düçar olan zaman ağlagəlməz çətin keçilən dağ cığırlarından istifadə edirdilər (123, s. 3, 57, s 485). Bir sıra tarixi mənbələrdə dağlı tayfaları qluxodar adı ilə qeyd edilir. Petruşevski bu sözün mənasının məlum olmalığını göstərir, lakin bununla belə sözün türk mənşəli olub "qul" "quldur" mənaları verdiyini də istisna etmir (128, s. 11).

Göründüyü kimi dağlı tayfalarının vadilərə axını zamanı onlar "quldur", "oğru" və s. adlarla adlandırılır. Əlbəttə bu birtərəfli və qərəzli mövqe ilk növbədə Rusiya imperiyasının dövlət maraqlarından irəli gəlirdi. Belə ki, XIX yüzilliyin əvvəlində şərqi Gürsüstanı işğal etmiş Rusiya öz işğalçılıq siyasətinə haqq qazandırmaq üçün özünü xristian gürcülərin "vəhşi müsəlmanlar"dan xilaskarı kimi qələmə verməyə çalışırdı. Bununla da inandırmaq istəyirdi ki, yalnız Car Rusiyasının qüvvətli əli Gürcüstanı dağlı tayfalarının hücumlarından müdafiə edə bilər. Petruşevski yazırdı ki, dağıstanlıların Gürcüstan və Azərbaycan əyalətlərinə yürüşü tarixi faktdır. Lakin onlara qarşı mübarizə aparan rus hökumətini bu ərazidə yaşayan əhalinin müdafiəsi daha az düşündürürdü. Bu yalnız Dağıstanda rus ekspansiyası üçün bir bəhanə idi (128, s. 10).

Tarixi faktlardan aydın olur ki, avar və saxurların vadilərdə məskunlaşması ilk növbədə iqtisadi amillərlə bağlı idi. Vadilərin zəngin otlaqları, əlverişli təbii şəraiti inkişaf edən maldarlıq təsərrüfatı üçün əsas şərt idi. Digər tərəfdən avar və saxur icmalarının formalaşması siyasi səbəblərlə bağlı idi. Güclü dövlətlərin Gürcüstan, Gəncə, Şəki xanlığının əhatəsində yaşayan, İran və Türkiyə arasında gedən mübarizədə öz mövqeyini qoruyub saxlamağa çalışan dağlı tayfalarının icmalarda birləşməsi labüd idi. XIX yüzilliyin əvvələrində isə rus istilasına qarşı dayanmaq üçün icmalar arasındakı ittifaq daha da gücləndi. Nəhayət, vahid din-islam dini dağlı tayfaları ilə düzən yerlərdə yaşayan əhalini birləşdirən ən mühüm amil idi. Dini birlik bu xalqları yadelli əsarətinə, müstəmləkə zülmünə qarşı birgə mübarizəyə səfərbər edirdi.

Mənbələrdə Dağıstan xalqlarının müəyyən etnik qrupuna aid edilən "ləzgi" etnonimi yalnız bir millətin adı kimi deyil, ümumən dağ xalqlarının təyini kimi çıxış edir. Bu termin görünür, ilk əvvəl etnik yox, ictimai məna daşımışdır.

Formalaşan azad icmalar getdikcə müstəqilliyə can atır-heç bir təsir altına düşməmək üçün müntəzəm mübarizə aparırdılar. Azad yaşamaq uğrunda gedən mübarizədə islam amili mühüm rol oynayırdı. Beynəlxalq karvan və ticarət yolları

uğrunda mübarizə aparan Səfəvi-Osmanlı dövlətləri islam dininə sitayiş edən dağlı tayfalarını müdafiə edir, bu hərbi qüvvədən xristianlara, ilk növbədə tabe olmayan gürcü feodallarına qarşı istifadə etməyi nəzərdən qaçırmırdı. Getdikcə nüfuzlu hərbi siyasi birləşməyə çevrilən Car-Balakən icması Qafqazda cərəyan edən hadisələrə mühüm, bəzən də həlledici təsir göstərirdi.

Tarixşünaslıqda Car etnonimi müxtəlif baxımdan izah olunmuşdur. Şopen Car-Balakən etnonimini bu cür izah edir: "Bu söz Car-Pilləkəndir və mənası yol-pilləkən deməkdir. Car-türk sözü olub yol deməkdir. Məhz bu ərazidən Alan qapılarına gedən yol başlanır". (132, s. 414).

Azərbaycan, Gürcüstan və Dağıstanla sərhəddə tutduqları əlverişli coğrafi mövqeyə və hərbi nüfuzuna görə qonşuları həmişə onlarla ittifaqda olmaqda maraqlı idilər. "Onlarla müttəfiqlik yalnız Azərbaycan, Dağıstan və Gürcüstan xanlıqları arasındakı siyasi iğtişaşlarda həlledici rol oynamırdı. Türkiyə və İran kimi iki rəqib-dövlət də Carla ittifaqda olmaqda maraqlı idi". (128, s. 15).

Car ordusunun müxtəlif hakimlər tərəfindən muzdlu hərbi xidmətə götürülməsi mənbələrdə öz əksini tapmışdı. Bəylərbəyliklər və xanlıqlar dövründə Dağıstan tayfalarından muzdlu qoşunlar yaradılır, bu qoşunlar isə çox həvəslə daha çox pul verən feodal hakimlərinin tərəfində vuruşurdular. Şəki, Şirvan, Gəncə xanları, Qars və Ahısqa paşaları, İmeretiya və Gürcüstan Carları daim muzdlu ləzgi qoşunlarından istifadə edirdilər. Gürcü Carı II İrakli Nadir şahın ölümündən sonra İran taxtına olan iddiaçıların çağırışı ilə ləzgilərdən tutulmuş muzdlu qüvvə ilə bir neçə dəfə İrana yürüş etmiş, eyni zamanda məhz bu qoşunun köməyi ilə Gəncə, İrəvan, Qarabağ xanlarından xərac yığılmışdır. Gürcü feodalları muzdla tutulmuş ləzgi qoşunundan cənubdan hücum edən İran və Türkiyəyə qarşı, eyni zamanda dağlıların öz həmtayfalarına qarşı mübarizədə istifadə edirdilər.

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında toplanan sənədlərdən məlum olur ki, gürcü hakimləri muzda tutulmuş ləzgi korpuslarından lazım gəldikdə itaətsizlik göstərən və özbaşınalıq edən gürcülərə qarşı da istifadə edirdilər. Kartli-Kaxetiyada daxili qayda-qanunu qoruyan bu korpuslar bəzən özbaşınalıqlar da törədirdi. Bu zaman hərbi qənimətin və şəxsi mənfəətin artırılması istisna edilmirdi (1, s. 426).

Camaatlar sosial-iqtisadi inkişaf səviyyələrinə görə qonşu dövlətlərdən kəskin şəkildə fərqlənmirdi. Lakin başqa ictimai quruluşa malik idi. Camaatların daxili quruluşu və burada mövcud olan torpaq münasibətlərinin özünəməxsus xüsusiyyətləri var idi. Camaatların daxili idarə sistemi və keşgəl hüquqları İran, Türkiyə, Rusiya tərəfindən tanınır və ərazi müxtəlif vaxtlarda bu dövlətlərin nominal təbəəliyində xüsusi statusa malik inzibati vahid təşkil edirdi.

Camaatlar avar və saxur kəndlərindən, həbelə onların icarəçiləri olan xüsusi mükəlləfiyyətlər daşıyan ingiloy və muğal kəndlərindən ibarət idi. Camaatlar bir qayda olaraq dağlı tayfalarına xas olan nəsli-tayfa idarəçiliyini qoruyub saxlayırdı.

Öz üzərində avarların hakimiyyətini tanıyan yerli əhali ilk əvvəl onlara öz müttəfiqləri kimi baxırdılar. Bu, o zaman baş verirdi ki, hələ camaatların daxilində feodallaşma prosesi getmirdi. Yerli kəndlilər öz vəziyyətlərini yaxşılaşdırmaq üçün icmalardan asılı vəziyyətə düşməyi ən əlverişli vasitə hesab edirdilər. İlk əvvəl ingiloy və muğalların carlılara ödədikləri vergilər də ağır deyildi. Nəinki tək-tək kəndlilər, bəzən bütöv kəndlər car ləzgilərinin tərəfinə keçirdilər. Məsələn, türk kəndləri olan Baydarlı və Çobangəl kəndləri XVII əsrdə könüllü saxur icmalarının himayəsi altına keçmişdi (128, s. 14).

Lakin avarların yerli əhali ilə ittifaqı müvəqqəti xarakter daşıyırdı. Zaman keçdikcə icmaların daxilində təbəqələşmə prosesi gücləndi. İcma daxilində hakim feodal qruplaşması formalaşdı. İcmalar daxilində patriarxal nəsli quruluşun qalıqları qorunub saxlanmaqla yanaşı ingiloy və muğal kəndləri üzərində kollektiv hakimiyyət də mövcud idi. İcmaların ictimai quruluşu başlıca olaraq nəsli qəbilə quruluşunun qalıqlarına əsaslanırdı. İcmalar toxumlara yaxud ata xətti ilə qohum nəsillərə ayrılırdı. Hər kənd icması 2-3 toxumdan ibarət idi. Bir çox kəndlərdə toxumlar eyni adları daşıyırdı. Bu eyni adı daşıyan toxumların bir yerdən çıxması və yaxud toxumların parçalanması nəticəsində yeni toxumların yaranması ilə əlaqədar idi. Hər bir icmada ali idarəçilik kəndxuda, starşina və qazılara məxsus idi. Onlar bir yerdə ali idarəçiliyi təşkil edir, bütün mülki və dini hakimiyyəti öz əllərində saxlayırdı. Ali idarəçilik məhkəmə və divan işlərinə baxır, ictimai qayda-qanunu qoruyur, nəsli əmlakı idarə edir kəbin kəsir, barışıq və mübahisəli məsələləri həll edir, dağlıq yerlərdə sərhədlərin, otlaq yerlərinin mühafizəsi üçün gözətçilər təyin edirdi (125. s. 86—87).

Kəndxuda kəndi idarə edir və onun baş rəisi hesab olunurdu. O bir qayda olaraq öz icmasının ali idarəçiliyinin göstərişlərini yerinə yetirir, məhkəmə qərarlarını icra edir, kənd əhalisinin kiçik şikayətlərinə baxır, qayda-qanuna, sakitliyə, əhalinin davranışına nəzarət edir, itaət etməyənləri, yoldan çıxanları islah edir, təqsirli bilinənləri məhkəməyə verir, axtarış aparır, sürgün edir, çavuş və yasovulu seçirdi. Feodallaşma prosesinin sürətlənməsi nəticəsində kəndxuda seçilmir, bu vəzifə irsi olaraq nəsildən-nəslə ötürülürdü.

Kənd starşinası icmanın ali idarəçiliyi ilə əlaqə yaradır, hakimlik edirdi. Kənd starşinasının kəndxuda ilə müqayisədə səlahiyyəti kiçik idi. Lakin starşinanın kəndxudanın işinə nəzarət etmək hüququ var idi. Əgər kəndxuda tərəfindən müəyyən qanunsuzluğa yol verilirdisə, starşina bunu öz toxumuna çatdırır, seçkini gözləmədən həmin kəndxudanın daha inanılmış etibarlı adamla əvəz edilməsinə nail olurdu.

Tabunbaşı kəndxudanın köməkçisi olub-bir qayda olaraq onun göstərişlərini yerinə yetirir, əhali arasında mükəlləfiyyətlərin növbəsini müəyyənləşdirir, suyun bağlar və üzümlüklər arasında düzgün paylaşdırılmasına nəzarət edirdi.

Çavuş kəndxuda və tabunbaşıya tabe olan ən aşağı səviyyəli məmur idi. Çavuşlar əhalini bir yerə toplaşmağa çağırır, sahibkara müxtəlif mükəlləfiyyətlərin yerinə yetirilməsini xəbər verirdi.

Yasovul bir qayda olaraq kəndxudanın yanında olur və müəyyən xidmət dalınca göndərilirdi.

İctimai vəzifələrə seçkilər heç bir ənənə ilə müşayiət olunmur, xidmət müddəti qəti müəyyənləşdirilmirdi. Qazıların üç il, imamların iki il kəndxuda və tabunbaşının bir il müddətinə seçilməsinə baxmayaraq bu son xidmət həddi hesab olunmurdu. Sui-istifadə halları, qanunsuzluq, özbaşınalıq baş verdiyi hallarda onlar vaxtından əvvəl öz toxumları tərəfindən azad edilə bilər və yaxud əksinə, heç bir qanunsuzluğun baş vermədiyi təqdirdə öz vəzifələrini daha artıq müddətə icra edə bilərdilər. Bir qayda olaraq kəndxuda və kənd starşinaları tanınmış feodal nəslinin nümayəndələri içərisindən seçilirdi.

İcmalarda məhkəmə işi aşağı və ali məhkəmələrə məxsus idi. Ali idarəçilik həmçinin ali məhkəmə funksiyasını da yerinə yetirirdi. Bu məhkəmə kənd hakimlərinin şikayətlərini qəbul edir, ayrı-ayrı toxumlar və kənd icmaları arasında mübahisəli məsələləri aydınlaşdırırdı. Aşağı məhkəmə isə bir qayda olaraq kənd məhkəmələri idi və ali məhkəməyə yaxud icmaların ali idarəçiliyinə tabe idi. Hər bir məhkəmə ayrıca götürülmüş formaya malik deyildi. Məhkəmə işləri şəriət qaydaları əsasında aparılır, prosesin əsasını iddiaçı ilə cavabdehin şifahi dindirilməsi təşkil edirdi. İddiaçı imam və starşinanın iştirakı ilə öz şikayətini izah edir, cavabdehin gətirilməsini tələb edir, digər sübut və şahidlərdən istifadə edirdi. Cavabdeh isə iddiaçıların iştirakı ilə and içir, sonra isə ərizəçinin iştirakı olmadan dindirilirdi. Kəndxuda, toxum başçısı və imam kənd məhkəməsini təşkil edirdi.

XIX əsrin əvvəlində qanunçuluqda şəriət qaydalarından istifadə edilməsi daha da gücləndi. Şəriət qaydalarının mövcud olan adətləri sıxışdırıb aradan çıxarması nəsli qəbilə quruluşunun dağılması, feodallaşma prosesinin sürətlənməsi və toxumlar içərisində sosial antoqonizmin inkişafı ilə bağlı idi.

Bütün mühüm məsələlər yığıncaqlarda həll edilirdi. Kənd yığıncaqlarından fərqli olaraq camaatların yığıncaqları siyasi xarakter daşıyırdı. Bu yığıncaqlarda bir qayda olaraq icmaların xarici əlaqələri müzakirə olunurdu. Yığıncaqlar camaatların kəndxudalarının razılığı əsasında Ağdam və yaxud Muxax dərəsində çağırılırdı. Yığıncaqlarda icmaların başçısı, toxumların starşinaları iştirak edirdi. Ağsaqqal və hərbi başçı seçilməsində bütün kişilərin eyni hüquqları var idi. Yığıncaqlarda bir qayda olaraq bütün icmalara aid olan məsələlər, xarici əlaqələr, həmçinin toxumlar arasında olan mübahisə və çəkişmələr müzakirə olunurdu. Bəzi mənbələrdə bu yığıncaqlar "ittifaq seymi" adlandırılır. Lakin İ. P. Petruşevski qeyd edir ki, əvvəla bu yığıncaqlar müntəzəm fəaliyyət göstərən orqanlar deyildi. Digər tərəfdən burada bərabərhüquqlu federasiyadan da söhbət gedə bilməzdi. İcmaların hamısı bütünlüklə bərabərhüquqlu deyildi.

XIX əsrin 30-cu illərinə qədər Car icması daha güclü və nüfuzlu icma hesab olunurdu. Car icması iqtisadi və siyasi cəhətdən digər icmalardan üstün idi. Bu isə onun digər icmalar üzərində həlledici üstünlüyünə səbəb olmuşdu. Camaatların bütün yığıncaqlarında carlıların səsi həlledici əhəmiyyətə malik idi. Carın üstünlüyü ilk növbədə onun iqtisadi gücü ilə izah olunurdu. Digər tərəfdən Car Qafqazın ən mühüm qul bazarlarından biri idi. Bu bazara müxtəlif ərazilərdən, o cümlədən Gürcüstandan ələ keçirilən əsirlər gətirilirdi. Əsirlərin bir hissəsi satılır, çoxu isə öz sahibkarları tərəfindən pulla azad edilirdi. Car icmasının siyasi nüfuzunun artması onun əsas işçi qüvvəsi bazası rolunu oynaması ilə də əlaqədar idi (128, s. 19).

XIX əsrin 30-cu illərinə qədər Car icması Katex, Balakən icmalarını, özündən asılı vəziyyətə salmışdı. Carlılar öz iradələrini digər camaatlıqlara da qəbul etdirmək istəyirdilər. Car və digər icmalar arasında ittifaq möhkəm deyildi və yalnız zahiri xarakter daşıyırdı. Hətta carlılar hərbi və diplomatik məğlubiyyətə uğrayan zaman müttəfiqləri ondan ayrılır və bəzən düşmən tərəfə də keçirdilər. 1830-cu ildə ruslar Carı işğal edən zaman digər icmalar carlılardan üz döndərmiş, həmin ildə baş verən üsyan zamanı Tala və Katex icmaları passiv mövqe tutmuş, Muxax və Cınıx icmaları isə bu üsyana qoşulmamışdı (128, s. 38).

İ. P. Petruşevski icmalar arasında müttəfiqlik münasibətlərinin zəif olmasının səbəblərini onların müxtəlif inkişaf səviyyəsində olması ilə izah edirdi. Belə ki, Carda feodal münasibətlərinin inkişafı Balakən, Katex və Tala icmalarında olduğundan yüksək idi. Digər tərəfdən Qafqazı işğal edən ruslar Car icmasını zəifləmək üçün ayrı-ayrı icmalar arasında düşmənçilik yaradır, bu isə carlıların Rusiyanın müstəmləkə əsarətinə qarşı mübarizəsini zəifədirdi.

İcmalarda feodal ünsürlərinin güclənməsi nəticəsində camaatların ümumi yığıncağının rolu getdikcə azalırdı.

XIX yüzilliyin əvvəlində Rusiya Qafqazın istilasına bu əlverişli strateji məntəqədən başladı, Car I Aleksandr (1801 - 1825) 1801-ci il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzaladı. Bu fərmanla Rusiya Zaqafqaziyada həyata keçirəcəyi işğalçılıq siyasətinin mühüm istiqamətini də müəyyənləşdirmişdir. Şərqi Gürcüstanla birlikdə bəzi Azərbaycan torpaqları da Rusiyanın təbəəliyi altına keçdi. Şərqi Gürcüstanda möhkəmlənən Rusiya faktik olaraq Azərbaycanla müharibəyə başladı. İlk hədəf kimi Car-Balakənin seçilməsi təsadüfi deyildi. Şərqi Gürcüstana, Dağıstana və Şəki xanlığına çıxış yolu olan Car-Balakən əlverişli strateji mövqeyə malik idi. Bu ərazi rus qoşunlarının Azərbaycanın içərilərinə doğru irəliləməsi yolunda ciddi maneə idi. Yalnız Car Balakəni işğal etdikdən sonra Rusiya şərqi Gürcüstanda möhkəmlənə bilər, azadlıqsevər dağlı tayfalarını diz çökdürə bilərdi. Bütün Qafqazın işğalı Car-Balakəndən başlayırdı. XIX yüzilliyin əvvəlində Rusiyanın işğalçılıq siyasətində Car-Balakən məsələsi ümumqafqaz əhəmiyyətli məsələyə çevrilmişdi. Lakin carlılar tək deyildi. Onlarla müttəfiq olan. İlisu sultanlığı, Şəkir

xanlığı, dağlı tayfalarının Rusiya əsarətinə qarşı amansız nifrəti, mübarizə əzmi və qətiyyəti rus qoşunlarının car ərazisinə girməsini bir qədər ləngitdi.

Öz öhdəsində kifayət qədər güclü hərbi qüvvə olduğuna baxmayaraq rus komandanlığı birbaşa car üzərinə hücuma keçməyə cəsarət etmir, əksinə Şərqi Gürcüstanda yerləşən rus qoşunları üzərinə carlıların hər an hücum edəcəyini gözləyirdilər. 1801-ci ilin aprelində Sığnaq qalasında yerləşdirilmiş rus qoşunlarının polkovniki Karyagin general Knorrinqə göndərdiyi məlumatında 4.000 nəfərlik ləzgi qoşununun Kaxetiya üzərinə hücuma hazırlaşması haqqında məlumat verirdi (56, s. 646). Rusiya hakimiyyət orqanları carlılara qarşı mübarizə aparmaq üçün hətta Axalsixə, türk paşası Şərif paşaya müraciət edərək onları öz ərazisinə buraxmamağı xahiş edirdi. Dağıstandan Balakənə gələn dağlı tayfalarının sayı gündən-günə artırdı. Qafqazdakı rus qoşunlarının baş komandanı Knorrinqin imperatora göndərdiyi raportlarda bu qorxu açıq-aydın hiss edilirdi (70, s. 368, 2, s. 376).

1802 və 1803-cü ilin əvvəllərini qorxu içərisində keçirən rus qoşunları carlıların və dağlı tayfalarının Şərqi Gürcüstana yürüşünü hər an gözləyirdilər.

1802-ci ildə P. D. Sisianovun (1754-1806) Qafqazdakı rus qoşunlarına baş komandan təyin edilməsilə çarizmin Azərbaycandakı işğalçılıq planının həyata keçirilməsi sürətləndi. Milliyyətcə gürcü olan P. D. Sisianov Azərbaycanın şimal-qərb hissəsinin ələ keçirilməsi zamanı xüsusi qəddarlıq və amansızlıq törətmişdi. Rus qoşunlarının Car üzərinə hücumu 1803-cü il martın 2-də başladı. General Qulyakovun başçılıq etdiyi bu hərbi ekspedisiyanın tərkibinə 1482 piyada, 8 top 200 kazak, eyni zamanda 5 minə qədər gürcü milisi daxil idi (115, s. 93). Qeyri bərabər döyüşdə işğalçılar xüsusi qəddarlıq törətdilər. Balakənin işğalı zamanı 500 nəfər avar, o cümlədən dinc əhali öldürüldü (128, s. 85). Martın 8-də Balakəni ələ keçirən rus qoşunları evləri yandırır, qarət və talınçılıqla məşğul olurdu. İnadlı mübarizənin gedişində Balakən icması daxili idarəçilik qaydalarını saxlamaq şərtilə öz üzərinə bir sıra öhdəlik götürməyə məcbur oldu. Balakən icması gürcü Carı Aleksandra və onun yaxınlarına öz ərazisində sığınacaq verməməyi öhdəsinə götürür, bununla belə ərazidə rus qoşununu yerləşdirməli, ipək vergisi ödəməli və Tiflisə 5 girov göndərməli idi (43, s. 683-684).

Balakənin işğalı Car və digər icmaların mövqeyini zəiflətdi. Xarici siyasi vəziyyət də onların xeyrinə deyildi. Dağıstandan gözlənilən köməyi də almaq mümkün olmadı, çünki dağ yolları qarla örtülü və keçilməz idi. Carlılar öz müttəfiqləri şəkili Məhəmmədhəsən xanın köməyinə arxalanaraq rus qoşunlarına qarşı hücuma keçmək niyyətində idi. Bu təhlükəni hiss edən Qulyakov martın 27-də Car üzərinə yeridi. Şəkili Məmmədhəsən xan öz qoşunu və 2 topla carlıların köməyinə gəldi. Martın 20-da Car Qulyakov tərəfindən tutuldu. 1803-cü il aprelin 12-də Tiflisdə Car-Balakənin Rusiyanın tərkibinə qatılması şərtləri və andlı öhdəlik haqqında sənəd imzalandı. Bu öhdəliyə əsasən carlılar "həmişəlik" rus imperiyasının təbəəliyinə keçirdi. Bundan əlavə hər il Rusiyanın dövlət xəzinəsinə

220 pud ipək vergisi ödəməli, Gürcüstana qarətçi yürüşlər, edən dağlıları öz ərazilərindən buraxmamalı və hər camaatlıqdan Tiflisə daimi yaşamaq üçün girovlar göndərməli idi (3, s. 686). Carın işğal edilməsinə baxmayaraq azadlıqsevər xalq mübarizəni davam etdirirdi. 1804-cü ilin yanvarında Qulyakov yenidən 2500 nəfərlik qüvvə ilə Car-Balakənə yürüş etdi. Car yenidən ruslar tərəfindən tutuldu, heç bir hərbi zərurət olmadan top atəşi ilə dağıdılıb yandırıldı. Lakin bu dəfə rus qoşunları da xeyli itki verdilər. Qaniçən general Qulyakov isə xalq intiqamçıları tərəfindən öldürüldü. Sisianov Car-Balakənin işğalı haqqında vitse-kansler qraf Koçubəyə yazırdı ki, bu zəbt xüsusi diqqətə layiqdir. Car-Balakən kompaniyası yeni düşmənin hərbi qüvvəsinin və yerli əhaliyə qarşı qəddarlığın nümunəsi kimi bu gün Qafqaza, o cümlədən Azərbaycan xanlıqlarına dərs olmalı idi (40, s. 687).

Öz amansızlığı və qəddarlığı ilə fərqlənən Sisianov strateji əhəmiyyətə malik olan Car-Balakənin ələ keçirilməsini rus silahının qələbəsi adlandırırdı. Bu işə ürəkdən sevinən Sisianov rus qoşunlarının sonrakı işğalçılıq yürüşləri üçün artıq imkan yarandığını qeyd edirdi. "Mən öz müvəffəqiyyətlərimə möhkəm inamla artıq vaxt itirmədən Gəncə və İrəvanı fəth etmək üçün gedə bilərəm. (40, s. 687). Öz milli mənsubiyyətinə sadiq qalan Car generalı (o əslən gürcü idi - Z. C.) Azərbaycanın şimal-qərb hissəsini məhz Gürcüstanın tərkibində Rusiyaya birləşdirmək niyyətində olduğunu da gizlətmirdi. Təsadüfi deyil ki, Sisianov Car-Balakənin işğalından dərhal sonra Kartli və Kaxetiyanın komendantlarına məktub göndərərək bu hadisəni çox böyük sevinclə onlara çatdırmağı özünə bors bilirdi. "Allaha şükürlər olsun ki, əlahəzrətin şanlı silahının himayəsi və mərhəməti sayəsində Gürcüstanın rifahı naminə Balakən üzərində mühüm qələbə qazanılmış və general-mayor Qulyakovun başçılıq etdiyi ekspedisiyanın igidliyi ilə Car əyalətinin işğalı başa çatmışdır". Sisianov bu hadisəni Gürcüstanda kilsə zənglərinin bütün gün ərzində səsləndirilməsi yolu ilə təntənəli şəkildə elan etməyə çağırırdı (102, s. 689).

Sisianov Car-Balakəni fəth etməklə öz işini bitmiş hesab etmirdi. O, bütünlüklə ərazinin sərvətlərini çapıb-talayır, Car-Balakən icmasını işğal olunan zaman öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyə məcbur edirdi. Vergilərin gecikdirilməsi zamanı əhalini rus silahının gücü ilə qorxudurdu. "Yadda saxlayın, əgər siz Rusiyanın itaəti altın-daşınız da, onda üzərinizə qoyulan vergiləri vaxtında ödəməlisiniz. Sizin güllələriniz 5 nəfəri öldürmür, lakin mənim topum bir dəfəyə 30 nəfəri yerə sərir". (21, s. 690).

Sisianov Car-Balakən əhalisinə müraciətində həmişə onları "kafir xalq", "həyasız camaat", "etibarsız yaramazlar" adlandırırdı. Bu qaniçən general vergilərin vaxtında ödənilmədiyi təqdirdə onların torpağını od vo qılıncla yandıracağını, əhalini sürgün edəcəyini gizlətmirdi. Rus generalının vəhşiliyi ölçüyəgəlməz idi. "Mənim gəlişimi gözləyin, o zaman mən sizin evlərinizi yox, sizi yandıracağam, uşaqlarınızı arvadlarınızın bətnindən dartıb çıxaracağam. Siz xainlərə bu mənim son sözümdür". (38, s. 691).

Məlumdur ki, Azərbaycanı işğal edən rus generalları Qafqaza gəldikləri zaman yalnız ermənilərə bel bağlamış, onların xəyanətkar əməllərindən öz məqsədləri naminə istifadə etmişdilər. Öz çirkin əməllərinə nail olmaq istəyən ermənilər isə Qafqaza ali baş komandan təyin edilən hər hansı generalla dərhal dil tapırdılar. General Sisianov da ermənilərlə yaxından əməkdaşlıq edən hiyləgər diplomat idi. O özünü "bütün xristianların müdafiəçisi" adlandırır, bir əlilə Car Balakəni işğal edir, digər əlilə İrəvan və onun ətrafında yaşayan erməniləri, bütün xristianları birləşməyə çağırırdı. Sisianov "müsəlman zülmü" altında "əzilən" erməniləri İrəvanın daxilində iğtişaşlar törətməyə təhrik edirdi (44, s. 275).

Sisianovun qəddarlığı və amansızlığına baxmayaraq Car-Balakən icması işğalçılara qarşı qəhrəmanlıq mübarizəsini bir dəqiqə də olsun dayandırmırdı. Məhz bu ərazidə rus qoşunlarına ağır zərbə vurulur, öz qüdrəti və hərbi üstünlüyü ilə öyünən Car generalları məhv edilirdi. Knyaz Sisianov qraf Voronsova göndərdiyi məlumatında on yaxşı Car generallarının Car döyüşlərində öldürüldüyünü bildirirdi (14, s. 465).

1804-cü ildə general Qulyakovun Cara yeni yürüşü zamanı onun öldürülməsi, rus ordusunun ağır məğlubiyyəti, xalqın azadlıq mübarizəsi Car-Balakənin bütünlüklə Rusiyaya birləşdirilməsinə mane oldu. Daxili idarəçilik qaydalarını saxlayan Car-Balakən icması rus qoşunlarının məhz bu ərazidən Azərbaycanın içərilərinə soxulmaq planlarını alt-üst etdi. Lakin Rusiya Carı müxtəlif vasitələrlə zəiflətməyə cəhd göstərir, icmalar arasında ixtilaf yaradır, xüsusilə daha güclü olan Car icmasının hegemonluğuna son qoymağa cəhd edirdi. Buna baxmayaraq Car-Balakən icmaları öz əvvəlki siyasi nüfuzunu qoruyub saxlamışdı. Qafqazdakı rus qoşunlarının yeni baş komandanı A. P. Tormasovun icmalara müraciətində Sisianovun "etibarsız yaramazlar", "xainlər", "satqınlar" ifadəsini "sadiq və xeyirxah carlılar" ifadələri əvəz etmişdi. Hətta 1809-cu ildə carlılar Tormasova müraciət edərək Məhəmməd-Həsən xanı yenidən Şəki xanlığına qaytarmağı xahiş edirdi (55, s. 542). Bu isə Car-Balakən icmalarının Qafqazda cərəyan edən hadisələrə həlledici təsir göstərmək qabiliyyətini əks etdirirdi.

Car-Balakən icmalarına bu cür münasibət həm də İranla aparılan müharibə ilə əlaqədar idi. Birinci və ikinci Rusiya-İran müharibələrinin gedişində Rusiya hərbi qüvvələrinin böyük əksəriyyəti İranla müharibədə iştirak edirdi. Qulyakovun ekspedisiyasının nəticələri göstərdi ki, möhkəm Car icmasını ələ keçirmək üçün əhəmiyyətli və mütəşəkkil hərbi qüvvə lazımdır.

1826-1828-ci illər İkinci Rusiya-İran müharibəsi zamanı həm İran həm də Rusiya Car-Balakənin siyasi mövqeyinə xüsusi əhəmiyyət verirdi. Müharibənin əvvəlində İran qoşunlarının Zaqafqaziyada ilk hərbi uğurları ərazidə Rusiyanın müstəmləkə əsarətinə qarşı mübarizənin güclənməsinə səbəb oldu. Azərbaycanın keçmiş xanları, bəyləri yaranmış əlverişli şəraitdən istifadə edərək itirilmiş siyasi nüfuzlarını bərpa etmək niyyətində idilər.

Lakin İran və Türkiyə ilə aparılan müharibədə əldə edilən uğur Rusiyaya Car-Balakəni tamamilə işğal etməyə şərait yaratdı. Car-Balakən üzərinə yeni hərbi ekspedisiyanın keçirilməsi 1830-cu ilin fevral ayına təyin edildi. 1830-cu ilin fevralın 24-də qraf Paskeviç Alazanı keçərək Muğanlı kəndinə gəldi. Yürüş ərəfəsində Paskeviç icmalara türk dilində yazılmış bəyannamə göndərdi. Bəyannamədə göstərilirdi ki, icmaların siyasi müstəqilliyinə son qoyulmalı, feodalların torpaq üzərində mülkiyyət hüququ-şəriət məhkəməsi və s. saxlanmaqla bütün daxili idarəçilik qaydaları rusların əlinə keçməlidir.

Camaatların yığıncaqlarında qızğın müzakirəyə səbəb olan bu bəyannamə əhali arasında müxtəlif fikirlərə səbəb oldu. Müzakirələr zamanı yığıncaqların iştirakçıların iki hissəyə ayrıldı. Yığıncaq iştirakçılarının əksəriyyəti silahlı müqavimət göstərməyi təklif edir, heç bir vəchlə idarəçilik qaydalarının dəyişdirilməsini istəmirdilər. Təslimin tərəfdarları isə əsasən torpaq üzərində mülkiyyət hüququnu qoruyub saxlamaq istəyən feodallar idi. Lakin son damla qanına qədər vuruşmağa hazır olanlar daha çoxluq təşkil edirdi. Camaatların tərəddüdünə varlı torpaq sahibi Hacı Mahmudun gözlənilmədən təslim olmaq təklifi son qoydu.

1830-cu ilin fevralında dağ keçidlərinin bağlı olmasından istifadə edən rus qoşunları Car-Balakəni qəti şəkildə işğal etdi və xüsusi qanunlarla idarə olunan Car-Balakən əyaləti təşkil edildi. 1830-cu il martın 4-də bütünlüklə Paskeviçin bəyannaməsi əsasında hazırlanan "Car Balakən əyalətinin idarə edilməsi qaydaları "elan edildi. Əyaləti idarə etmək üçün ki, Bekoviç-Çerkassinin (yeni yaradılmış Car-Balakən əyalətinin rəisi idi. – Z.C) sədrliyi ilə müvəqqəti idarə təsis olunurdu (32, s. 445).

Car-Balakəni işğal edən Paskeviç xalq həyacanlarından qorxaraq yeni qalanın tikintisinə başladı və burada iki polk yerləşirdi. Carın bir hissəsi dağıdıldı və Yeni Zaqatala adlanan qalanın əsası qoyuldu. Lakin tez-tez təşkil edilən hücumlar nəticəsində qalanın dəfələrlə dağıdılması onun tikintisini xeyli ləngitdi (129, s. 24).

## § 2. Tarixi az öyrənilmiş bir dövlətimiz - İlisu sultanlığı

XIX yüzilliyin əvvəlində şimal-qərbi Azərbaycanda mövcud olan feodal təsisatlarından biri də XVI əsrin ikinci yarısında yaranan İlisu sultanlığı idi. Bu inzibati vahid şimaldan və şərqdən Qafqaz dağları, qərbdən Qanıq çayı, cənub-şərqdən Şəki xanlığı ilə həmsərhəd idi. İlisu sultanlığı əsasən iki hissədən ibarət idi. Birinci hissə Saxur vilayəti, yaxud "Dağ mahalı" adlanırdı. Bu hissənin tərkibinə əsasən Dağıstan torpaqları, Saxur kəndi və Samur vadisinə qədər uzanan ərazilər daxil idi. İkinci hissə ayrıca İlisu sultanlığından ibarət olub Saxur vilayətindən cənubdakı torpaqları əhatə edirdi.

Sultanlığın şimal hissəsi, əsasən dağlıq ərazi Saxurların məskunlaşdığı ərazi idi. Onların əsas məşğuliyyəti heyvandarlıq idi. Sultanlığın mərkəzi və cənub hissəsi, dağətəyi və düzənliklər isə muğalların və ingiloyların yaşadığı ərazi hesab olunurdu. Burada yaşayan əhali isə bir qayda olaraq əkinçiliklə məşğul olurdu.

Sultanlığın yaranması haqqında müxtəlif fərziyyələr var. Saxur vilayətinin qədim dövrü və sultanlığın orta əsrlər tarixi haqqında yazılı mənbələr sonuncu İlisu sultanı Daniyal bəyin 1844-cü ildə öz tərəfdarları ilə birlikdə Şamilin tərəfinə keçməsindən sonra məhv edilmişdir.

Sultanlığın yaranması haqqında ilkin fərziyyə xalq söyləmələri və rəvayətlərə əsaslanır. Əfsanəyə görə ilk əvvəl əsas yaşayış məntəqəsi olan Saxur kəndində bütün Saxurlular azad icma halında yaşayırdılar. Sonralar başçı seçilməsi zamanı böyük özbaşınalıqlar yarandı və bu zaman xalq bərabər hüquqlara malik toxumlara (icmalara) ayrıldı. Hər bir toxum başçını öz aralarından seçməyə cəhd göstərirdi. Nəticədə toxumlar arasında güclü ədavət və düşmənçilik başladı. Başlanmış ədavətə son qoymaq üçün xalq bütün toxumların mənafeyinə uyğun olaraq başçını yad adamlar içərisindən-Saxurda yaşayan, lakin camaatlara məxsus olmayan və icma torpaqlarından istifadə etməyən bəylərin içərisindən seçirdi. Camaat Saxur hakimlərini yalnız bəylərin içərisindən seçirdi. Əvvəlcə seçkilər Saxurda, sonra isə İlisu kəndində keçirilirdi. Əfsanəyə görə sultanın Saxurlara yad adamlar, yəni muğallar arasından seçilməsinin əsas səbəbi toxumlar arasında mövcud olan narazlıqlara son qoymaq məqsədi daşıyırdı.

Saxur əhalisinin dediyinə görə iqamətgahın İlisuya köçürülməsi də bir rəvayətlə bağlıdır. Belə ki, xalqı idarə etmə hakimiyyətinə yiyələnən bəylər özbaşınalıqlar və qanunsuzluqlar törətməyə başladı. Qəzəblənən əhali bütün bəyləri arvad-uşaqları ilə birlikdə döymək qərarına gəldilər. Xilas olan bir hamilə qadın İlisuya qaçdı və orada bir oğlan doğdu. Onu I Əlibəy adı ilə başçı seçdilər. O vaxtdan Saxur hakimləri İlisuda yaşamağa və sultan adlanmağa başladı.

İqamətgahın İlisuya köçürülməsinin ilkin səbəblərini iqtisadi amillərdə axtarmaq lazımdır. Belə ki, vadilərin əlverişli coğrafi mövqeyi Saxur hakimlərinin Qax ərazisində möhkəmlənməsini tələb edirdi.

İlisu sultanlarının hakimiyyətinin tanınması haqqında ilk sənədlər Səfəvi şahlarına və Osmanlı sultanlarına aid fərmanlardır. Sayı 35-dək olan bu fərmanların demək olar hamısı mühafizə olunaraq Daniyal sultan tərəfindən ruslara təqdim edilmişdi. Verilən fərmanlar nəticəsində Qax əyalətində sultan və şahdan asılı olmayan, müstəqil hakimlik hüququna malik olan Saxur hakimlərinin mövqeyi getdikcə güclənirdi. Bu fərmanlar sultanlığı gürcü feodallarının təsiri altına düşməkdən qoruyurdu.

1562-ci ildə I şah Təhmasibin verdiyi fərmanla Saxur hakimi Qurqulu bəyin ərazi üzərində hakimiyyəti təsdiq olunurdu. Fərmana görə heç bir gürcü Carı onun hakimiyyəti altında olan əraziyə iddia ilə çıxış edə bilməzdi. Bu torpaqlara Qaxdan cənub-qərbdə yerləşən kəndlər: Babalı, Şotavar və Qoraqan da daxil idi. XVI

yüzilliyin sonunda Qurqulu bəy türk sultanından həmin ərazilər üzərində hökmdarlığını təsdiq edən yeni fərman aldı. Varislik prinsipi əsasında iki dağətəyi kənd-Qax və Məşəbaş üzərində onun hakimiyyəti tanınırdı (86, s. 771).

Qurqulu Əli bəyin oğlu Carı Əli bəy 1607-ci il fərmanı ilə Osmanlı dövləti tərəfindən İlisu sultanı təsdiq olunmuşdur. Əlisultan bəy isə 1695, 1701, 1710-cu illərdə Səfəvi şahı, 1722, 1729, 1731-ci illərdə isə Osmanlı sultanı tərəfindən fərmanlar almışdı (89, s. 774, 96, s. 776, 10, s. 1121). Səfəvi şahları tərəfindən verilən başqa bir fərmanla Əhməd xan Saxur hakimi kimi tanınırdı (39, s. 777).

İlisu sultanları camaatların yığıncağında lakin bir qayda olaraq sultan ailəsinin üzvüləri arasından seçilirdi. Əslində sultan bütün xalqın hakimi rolunu oynayırdı.

XVIII yüzillikdə Car-Balakənin siyasi nüfuzunun güclənməsi İlisu sultanlarının da mövqeyinə öz təsirini göstərirdi.

Carlılar yalnız bir dəfə XVIII əsrin sonu, XIX əsrin əvvəlində sultan seçgisinə qarışmışdılar. Belə ki, sultan Xan-Baba bəyin tərəfdarları kömək üçün carlılara müraciət edir. Əhməd xanla Carlı qoşunlarının müdafiə etdiyi Xan-Baba bəyin tərəfdarları arasında olan döyüş Baba bəyin qələbəsi ilə qurtarır. Bu zaman Əhməd xan Gürcüstanda möhkəmlənən ruslara müraciət edir və onların köməyi ilə itirilmiş hakimiyyətini bərpa edir. Bu hadisədən sonra sultanların xalq tərəfindən seçilməsinə son qoyuldu və hakimiyyəti irsi olaraq Əhməd xanın varislərinə keçirdi.

Car icması ilə İlisu sultanları arasında mövcud olan münasibətlər o qədər yaxın və möhkəm idi ki, Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında sultanlıq "Car əyaləti"nin tərkib hissəsi kimi göstərilirdi.

1803-cü ildə Car icmasının öz üzərinə götürdüyü öhdəlikdə qeyd olunurdu ki, bizimlə qonşu olan, daim müttəfiqlik və dostluq münasibəti saxlayan tatar İlisu sultanı Əlisultan bütün əhalisi ilə birlikdə Rusiyanın ali hakimiyyətini qəbul edir (19, s. 686).

İlisu sultanlığının xəzinəyə ödəyəcəyi vergilər Car icması vasitəsilə verilirdi. Vergilərin gecikdirilməsi zamanı icmaları hədələyən general Sisianov bu vergilərin ləngidilməsində günahkar bilinən İlisu sultanını da təhqir edirdi: "Utanmaz və fars ürəkli sultan!.. Sən öz payına düşən vergini iki ildir ki, vermirsən. Səndə it qəlbi və eşşək ağlı var. Məktubunda məni hiyləgər bəhanələrlə aldatmağa çalışırsan. Əgər bu dəfə də müəyyən edilmiş vergini vaxtında ödəməsən çəkmələrimi sənin qanınla yuyacağam" (33, s. 695).

Sultan Əhməd xanın zamanında İlisu sultanlığının nüfuzu yüksəlməyə başladı. O Qafqazdakı Rusiya Hökumətinin nümayəndələri ilə danışığa girir, onlarla birbaşa əlaqə yaradaraq rus komandanlığının dəstəyini və rəğbətini qazanmağa çalışırdı. Əhməd xan 1807-ci ildə 13 yaşlı böyük oğlu ilə Tiflisə gedərək Rusiyaya şəxsi sədaqətini və itaətini bildirdi. Hətta bu sədaqətini sübut etmək üçün öz oğlunu Tiflisdə girov qoyaraq onun Tiflis əsilzadə məktəbinə

oxumağa verilməsini xahiş etdi. Sultanın bu sədaqətini qiymətləndirən Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Qudoviçin göstərişi ilə ona polkovnik hərbi rütbəsi verildi (23, s. 326-327).

1830-cu ildə Əhməd xan vəfat etdi. Onun özündən sonra 6 oğlu qalmışdı. Birinci oğlu öz əmisi qızından olan İmran ağa idi. Musa və Daniyal ağa onun ikinci arvadı Qazıqumux xanı Aslanın qızından olan oğulları idi. Pərican adlı 3-cü arvadından Məhəmməd, Xəlil və Əmirxan adlı üç oğlu var idi. Əhməd xanın ölümündən sonra Musa ağa sultan təyin edildi, lakin o sultanlığı cəmi 8 ay idarə etdi.

Qeyd etdiyimə kimi İlisu sultanları bir qayda olaraq adətlərə əsasən xalq yığıncaqlarında sultan ailəsinin üzvləri içərisindən öz şəxsi keyfiyyətlərinə görə seçilirdi. Rusiyaya birləşdirildikdən sonra sultan seçilməsində mövcud olan qayda dəyişikliyə uğradı. Yəni sultan seçgisi zamanı təkcə onun şəxsi keyfiyyətləri yox, bütövlükdə Rusiyaya sədaqəti ön plana çəkilirdi. Başqa sözlə desək Rusiya sultanların etibarlı şəxslər içərisindən seçilməsində maraqlı idi. Təsadüfi deyil ki, Əhməd xanın ölümündən sonra məhz bu cür keyfiyyətlərə malik olan Musa ağanın sultan seçilməsi bilavasitə Rusiyanın təyinatı idi.

Musa ağanın vəfatından sonra onun qardaşı Daniyal bəy sultan təyin edildi. Mənbələr Daniyal sultanı bacarıqlı, igid, ağıllı cəsarətli, uzaqgörən, sultanlığın əhalisi içərisində güclü nüfuzu olan şəxsiyyət kimi xarakterizə edir. Öz səlahiyyətlərinin məhdudlaşdırılmasına qarşı qətiyyətlə çıxış edən Daniyal bəy çarizmin müstəmləkə əsarətinə qarşı qətiyyətlə mübarizə aparmışdı. Qızı Kərimət-bikəni Şamilin oğlu Qazı Məhəmmədə ərə verən sultan şeyx Şamilin ən yaxın silahdaşı və məsləkdaşı idi. Daxili idarəçilikdə qeyri-məhdud hakimiyyətə malik olan Daniyal sultana Rusiya xüsusi diqqət və hörmətlə yanaşırdı. İxtiyarında olan hərbi qüvvə ilə müəyyən hərbi yürüşlərdə rus qoşunlarına göstərdiyi köməyə görə o qısa müddətdə birbaşa kiçik hərbi rütbələrdən adlayaraq kapitan rütbəsinə layiq görüldü (24, s. 451). 1832-ci ildə Qazı Mollanın müttəfiqi Həmzət bəy Car vilayətinə yürüş edərkən fərqlənən Daniyal sultana mayor rütbəsi verilmiş, 1837-ci ildə isə 3-cü dərəcəli müqəddəs Stanislav ordeni ilə təltif edilmişdi.

Sonrakı il öhdəsində olan 200 nəfərlik milis dəstəsi ilə göstərdiyi hərbi şücaətə görə podpolkovnik rütbəsinə layiq görülmüşdü. 1840-cı ildə isə göstərdiyi şücaətə görə Qrodno qusar alayının leyb qvardiya mundirini geymək hüququ almış və polkovnik rütbəsinə keçirilmişdi. Sonralar general-mayor rütbəsi alan sultan 3-cü dərəcəli müqəddəs Vladimir ordeni ilə təltif edilmiş və aldığı rütbəyə görə ona ildə 860 gümüş manat məbləğində maaş kəsilmişdi. Bununla bərabər ona evdə və yürüşlərdə epoletlərlə (bəzəkli paqon) bəzənmiş milli kostyum geyməyə icazə verilirdi.

Məhz şəxsi keyfiyyətləri nəticəsində sultan təyin olunduğu ilk illərdə əcdadlarına məxsus olan, lakin sonralar carlılar tərəfindən ələ keçirilən Qorağan,

Şotavar və Almalı kəndləri üzərində yenidən sahiblik hüququnu İlisu sultanlığına qaytara bilmişdi (13, s. 499).

1839-cu ildə Dağıstanın cənubunda zəbt edilən 4 icmadan üçü o zaman təşkil edilən Samur dairəsinin tərkibinə daxil edilmiş, 4-cüsü Rutul mahalı isə Daniyal sultanın şəxsi idarəçiliyi altında saxlanmışdır (71, s. 223).

1830-cu ildə Car-Balakənin Rusiya tərəfindən işğal edilməsindən sonra inzibati idarəçilikdə baş verən dəyişikliklər İlisu sultanlığına da aid edilmişdi. Car-Balakən camaatlığı ilə birlikdə İlisu sultanlığının bütün ərazisi hərbi rəisə tabe olan Car-Balakən əyalətinə tabe edildi. Əyalət hərbi rəis tərəfindən idarə olunurdu. Mülki idarəçilik işləri ilə məşğul olmaq üçün viləyət rəisi yanında Müvəqqəti idarə yaradıldı. Müvəqqəti idarə həlledici səs hüququna malik olan 2 rus məmurundan və icmaların seçdiyi, lakin Qafqaz canişini tərəfindən təsdiq olunan, məşvərətçi səs hüququna malik 6 yerli şəxsdən ibarət idi. Dövlət pullarının və digər vergilərin qəbulu üçün Müvəqqəti İdarənin yanında vilayət xəzinəsi təşkil edildi. 1830-cu il Əsasnaməsinə görə əhalidən xəzinəyə daxil olan gəlirlər haqqında müfəssəl məlumat toplamaq tələb olunurdu. Vilayət 3 mahala, yaxud naibliyə: Car, Tala və İlisu sultanlığına bölünürdü. Mahalların rəisi xalq tərəfindən seçilirdi. Sultanların təyini və seçilməsi haqqında isə Əsasnamədə heç bir qayda müəyyənləşdirilməmişdi. Müvəqqəti idarə əhalini öz əvvəlki yaşayış yerinə qaytarmaq üçün tədbirlər görməli, sakitliyi, qayda-qanunu qoruyub saxlamalı, dağlı tayfalarının hücumlarının qarşısını almaq üçün yerli əhalidən milis dəstələri təşkil edərək onları kordonlar (qarovul xətləri) üzrə bölüşdürməli və s. tədbirlər həyata keçirməli idi. Müvəqqəti idarənin üzvləri vilayətin hərbi rəisi ilə razılaşmadıqda onların rəyləri Qafqaz canişininə təqdim edilməli idi. Cinayət işlərinin mühakiməsi əsasən Müvəqqəti İdarəyə verilirdi. Əsasnamə ingiloyları öz hakimlərinə ödədikləri xüsusi mükəlləfiyyətlərdən azad edir və onlara şəxsi azadlıq verirdi. Başqa yerə köçmək istəyən ingiloylar bütün daşınan əmlakı aparmaq hüququna malik idi. Daşınmaz əmlakı isə öz sahiblərinə əmlakdan gələn gəlirin 10 illik miqdarını ödəməklə verə bilərdi (32, s. 445).

Əsasnamənin 23-cü paraqrafına əsasən İlisu sultanlığı da göstərilən əsaslarla əyalətin tərkibində hesab olunurdu. Lakin daxili idarəçilikdə sultanlar bir qayda olaraq müstəqil idi. Sultanın əyalət rəisindən asılılığı əsasən hərbi xarakterli sahələrə aid idi.

1830-cu il Əsasnaməsi öz xarakterinə görə mülki idarəçiliyə keçid səviyyəsində idi. Əsasnamə Car Balakənin və sultanlığın mülki idaəetmə qaydalarına toxunmamışdı, ona görə də əhali tərəfindən ciddi narazılıqla qarşılanmadı.

1840-cı ildə inzibati idarəçilikdə yeni dəyişiklik baş verdi. Gürcüstan-İmeretiya quberniyasının tərkibində Car-Balakən qəzası yaradıldı. Qəzada qəza məhkəməsi, dövlət əmlakının qəyyumluğu, zemstvo mükəlləfiyyətləri komitəsi, prokuror nəzarəti və xəzinədarlıq sistemi təsis edildi. Qəza üç sahəyə: Balakən,

Yenikənd və İlisu sahələrinə bölünürdü. Axırıncı sahə keçmiş İlisu sultanlığının bütün torpaqlarını əhatə edirdi. Sultanın səlahiyyətləri isə sahə iclasçısının səlahiyyətləri ilə məhdudlaşdırıldı. Müstəqil idarəçilik hüquqlarının məhdudlaşdırılması ilə barışmaq istəməyən Daniyal sultan, hərbi nazirə və Qafqazdakı rus qoşunlarının baş komandanına göndərdiyi məktublarda kəskin narazlığını bildirir, hüquqlarının tapdanmasını alçaldıcı iş hesab edirdi. 1842-ci il iyulun 1-də hərbi nazirə göndərdiyi məktubda yazırdı: "Atam öldükdən sonra mən 1831-ci ildə irsi olaraq əlahəzrət tərəfindən sultan təyin edildim. Vəzifəyə keçdikdən sonra daim xalqımın Rusiya imperiyasına sadiq qalmasına çalışmış və özümü var qüvvə ilə bu işə həsr etmişəm. Bütün xidmətlərim əlahəzrət imperator tərəfindən qiymətləndirilmişdi. Lakin 1840-cı ildə yenidən idarəetmə orqanları təşkil olunarkən mənim mülklərim Gürcüstan-İmeretiya quberniyasının Balakən qəzasının tərkibinə daxil edilmişdi. Daşıdığım titulun saxlanmasına baxmayaraq mənə sahə iclasçısı hüququnda ümumi vətəndaş nizamnaməsinə əsaslanaraq rəhbərlik etmək tapşırıldı. Əcdadlarımın əsrlərlə mövcud olan irsi hüquqlarının pozulmasını, sizin iradənizdən asılı olmayaraq həyata keçirildiyini güman edirəm. Lakin bu işi aydınlaşdırmaq üçün baş komandana müraciət etdim. Sizə müraciət edərək aşağıdakıları nəzərdən keçirməyinizi xahiş edirəm! "Bu ərazilərin (sultanlığın) əcdadlarımdan mənə miras qalmasını əsas götürərək hüquqlarımın tapdanmasına yol verməyin. Məni yerli quberniya rəisinə tabeçilikdən və Zaqafqaziya ölkəsində fəaliyyət göstərən vətəndaş idarəetməsi nizamnaməsinə tabelikdən azad etməyinizi xahiş edirəm. 2) İlisu sultanlığının irsi olaraq mənə keçməsi haqqında vəsadət qaldırılmağınızı sizdən xahiş edirəm. Bu məni və övladlarımı gələcəkdə Rusiya hökumətinə daha sədaqətlə qulluq etməyə ruhlandırar" (123, s. 49-50).

Daniyal sultan 1843-cü il yanvarın 12-də baş komandan general adyutant A. İ. Neydqarta göndərdiyi raportda da hüquqlarının məhdudlaşdırılması ilə barışmaq istəmir, sahə iclasçısı vəzifəsini alçaldıcı iş hesab edirdi (123, s. 51).

Yeni idarəçilik qaydalarının tətbiq edilməsi elə ilk vaxtlardan müəyyən çətinlik yaratdı. Hərbi nazir knyaz Çernışevin fikrincə Car-Balakən qəzası mülki idarəçiliyin əsaslarının mənimsənilməsinə hələlik hazır deyildi. Sərhədlərin basqınlardan qorunması, əhalinin tabe olmayan dağlı xalqlarla yaxınlığı, müsəlman ruhanilərinin fəaliyyətinə ehtiyatlı nəzarət mülki idarəçiliyin əsaslarına uyğun gəlmirdi. Hərbi qaydaların saxlanması və mümkün qədər sadələşdirilməsi zəruri idi.

1842-ci ildə Qafqazı yoxladıqdan sonra hərbi nazir knyaz Çernışev baş komandan general-adyutant E. A. Qolovinə Balakən qəzasının dairə adlandırılması və idarəçiliyi hərbi-ştab zabitinə tapşırmaq haqqında əmr verdi. Əmrdə göstərilirdi ki, mülki təsisatlardan ərazidə yalnız xəzinə saxlanmalı, mülki işlər şəriət və münsiflər məhkəməsi vasitəsilə həll edilməlidir. Rusiya qanunları vasitəsilə öz işini yoluna qoymaq istəyənlər yaxınlıqdakı Şəki məhkəməsinə göndərilə bilərdi.

Hərbi nazirin yalnız Balakən qəzasının yenidən qurulması xarakteri daşıyan bu tapşırığı dərhal yerinə yetirildi. Qəza dairə adlandırıldı. Dairə rəisinə əvvəllər qəza rəisinə həvalə edilən təhqiqat, cinayət-iddia işlərinin qəti həll edilməsi hüquqları tapşırıldı. Kənd idarəsi 1840-cı ilədək mövcud olan qaydalara görə xalq tərəfindən seçilən yüzbaşılar, kovxalar, tabunbaşılar və çavuşlardan ibarət idi.

Qafqazdakı rus qoşunlarının baş komandanı general-adyutant A. İ. Neydqart 1843-cü ildə Car-Balakən dairəsini və İlisu sultanlığını Balakən dairəsinin hərbi-dairə rəisi titulu almış general-mayor Şvartsa tabe etdi. Dairə rəisi əvvəlki kimi qapdı, o hərbi məsələlərdə, general Şvarts isə mülki işlərdə quberniya rəhbərliyinə tabe edildi. Təlimatda qərara alınmışdı ki, diyarda sakitliyi, qayda-qanunu və təhlükəsizliyi qoruyub saxlamağa xidmət edən hərbi-dairə rəisinin bütün əmrlərini mülki hakimlər danışıqsız və dərhal yerinə yetirməli idi. Bütün işlər haqqında hərbi dairə rəisi baş komandana, dairə rəisi isə quberniya rəhbərliyinə raport verməli idi. Hərbi dairə rəisinin səlahiyyətləri daha böyük idi. Təlimatın 15-ci paraqrafına görə etibarsız hesab edilən məmuru o dərhal vəzifəsindən kənarlaşdıra bilərdi.

Tezliklə aydın oldu ki, hərbi fəaliyyət teatrına çevrilən Dağıstanla həmsərhəd olan İlisu sultanlığı və Balakən dairəsinin əhalisi üzərində nəzarəti daha da gücləndirmək lazımdır. Buna görə də general Neydqart dairəni və onun tərkibinə daxil olan sultanlığı Gürcüstan-İmeretiya quberniyasının mülki idarəçiliyindən tamamilə ayırmaq qərarına gəldi. Car-Balakən dairəsi bütünlüklə hərbi-dairə rəisinə tabe edildi, ona inzibati, maliyyə, təsərrüfat və mülki məhkəmə münasibətlərində mülki qubernatorun, cinayət işləri üzrə hökm verilməsi sahəsində isə diviziya rəislərinin hüquqları verildi. İlisu sultanı 1840-cı il təsisatına qədər Car-Balakən vilayətinin rəisinə tabe edilirdi. Öz əlində çox böyük səlahiyyətlər toplayan general-mayor Şvarts bütün əmrlərinin sözsüz icra edilməsini tələb edirdi. Özünü sultanlığın irsi hakimi sayan və bu vaxtadək heç kimə tabe olmayan Daniyal sultan isə Şvartsın göstərişlərinə əməl etmirdi. Getdikcə imtiyazları məhdudlaşdırılan Daniyal sultan Qafqaz canişininin Şamilə qarşı hərbi səfərdə iştirak etmək təklifini rədd etdi. Məsciddə Rusiyanın müstəmləkə əsarətinə qarşı mübarizə aparmağa and içən Daniyal sultan Şamilin tərəfinə keçdi. O İlisu ilə qonşu olan ərazilərə Car-Balakənə, Şəki və Şirvan qəzalarına öz adamlarını göndərərək onları bu mübarizəyə qoşulmağa çağırdı. Ailəsini Dağ Mahalına göndərən sultan müdafiə sistemi yaratmaq üçün bir sıra tədbirlər həyata keçirdi (72, s. 732).

1844-cü ildə Daniyal sultanın Şamilin tərəfinə keçməsindən sonra İlisu sultanlığı ləğv edildi. O əvvəlcə Car-Balakən dairəsinin rəisinə tabe olmaqla xüsusi İlisu dairəsinə (mahala) sonra isə Car-Balakən dairəsinə aid sahəyə çevrildi.

1859-cu ildə Qafqazın şərq hissəsi ruslar tərəfindən istila edildikdən sonra Dağıstan vilayətinin yaradılması ilə əlaqədar vaxtilə İlisu sultanlığının ərazisi olan torpaqlar yəni Dağ mahalı cənubi Dağıstana birləşdirildi (129, s. 32).

15 ildən artıq Car qoşunlarına qarşı vuruşan Daniyal sultan Şamilin məğlubiyyətindən sonra hərbi rütbəsi və təqaüdü saxlanmaq şərtilə rus hökumətinə tabe oldu. Bir müddət Şəkidə yaşayan sultan 1869-cu ildə Türkiyəyə getdi.

1860-cı ildə isə Car-Balakən hərbi dairəsi Zaqatala dairəsinə çevrildi.

### § 3. Sonuncu Şəki xanı erməni generalı tərəfindən qətlə yetirildi

XIX əsrin əvvəlində Azərbaycanın şimal-qərbində yerləşən dövlət təsisatlarından biri də Şəki xanlığı idi. Şimal-qərbdə Dağıstan və İlisu sultanlığı, şimal-şərqdə Quba xanlığı, şərqdə Şamaxı xanlığı, qərbdə Gürcüstan, cənubda isə Qarabağ xanlığı ilə həmsərhəd olan xanlıqda Rusiya işğalı ərəfəsində 20 min ev vardı (40, s. 646). Qutqaşın və Ərəş sultanları da Şəki xanlığından asılı vəziyyətdə idi. Strateji cəhətdən əlverişli olan Şəki xanlığının ələ keçirilməsinə Rusiya xüsusi əhəmiyyət verirdi. Belə ki, xanlığın ərazisindən istifadə edərək Rusiya bir tərəfdən dağlı tayfalarının hücumlarının qarşısını ala bilər, digər tərəfdən Car-Balakən üzərində daimi nəzarəti təmin edə bilərdi. Rusiya işğalı ərəfəsində xanlığı Səlim xan idarə edirdi. Təəssüflər olsun ki, Azərbaycanın bir çox feodal hakimləri kimi Səlim xanın da şəxsiyyəti birtərəfli şəkildə təsvir edilmişdir. Əslində Səlim xan öz dövrünün cəsur və ağıllı dövlət başçısı idi. Məhz qətiyyəti və igidliyi sayəsində xanlığı ələ keçirən Səlim xan mövcud vəziyyəti düzgün qiymətləndirərək siyasi və hərbi qüvvələr arasında manevr etməyi bacarırdı. Gəncə yaxınlığında Kürəkçay sahilində düşərgə salmış general Sisianovun düşərgəsinə gələn Səlim xan Qarabağ xanı İbrahimxəlil xandan bir həftə sonra 1805-ci il mayın 21-də Şəki xanlığının Rusiyanın himayəsi altına keçməsi haqqında müqavilə imzaladı. Tarixə Kürəkçay müqaviləsi adı ilə düşmüş bu sazişə əsasən Şəki xanlığı da Qarabağ xanlığı kimi Rusiyadan vassal asılılığına düşürdü. Müqaviləyə görə xan qonşu hakimlərlə heç bir əlaqə saxlamamalı, onlardan aldığı məktubların daha mühüm olanlarını Qafqazdakı rus qoşunlarının baş komandanın həllinə göndərməli, digər məsələlərdə onun xanlıqdakı nümayəndəsi ilə məsləhətləşməli idi. Bundan başqa Səlim xan hər il dövlət xəzinəsinə 7000 çervon xərac verməli, xanlığın ərazisində 500 nəfərlik rus qoşunu yerləşdirməli, qoşunlar üçün bina ayırmalı, odun tədarük etməli idi. Xan sədaqət əlaməti olaraq 4 yaşlı oğlunun əvəzinə (kiçik yaşlı olduğu üçün - Z. C.) beş bəyin uşağını əmanət verməli, iki ildən sonra öz oğlunu daimi yaşamaq üçün Tiflisə göndərməli idi (40, s. 646).

Əvəzində Rusiya xanlığın irsi idarəçiliyini tanıdığını bildirir, məhkəmə işlərini, cəza vermək və vergi toplamaq hüququnu xanın ixtiyarında saxlayırdı. Xana öz evində daimi saxlamaq üçün üzərində Rusiyanın gerbi olan bayraq və qılınc bağışlanırdı (49, s. 652).

Xanlığın ərazisində yerləşdirilən rus qoşunu ərazidə çarizmin müstəmləkəçilik siyasətini həyata keçirirdi. Bu qoşun birləşməsindən istifadə edən Rusiya əsarətə qarşı çevrilən azadlıq mübarizəsini yerindəcə dərhal yatırır, onun

iştirakçılarına isə amansızlıqla divan tuturdu. Hələ 1805-ci ilin martında işğaldan əvvəl Sisianov Şəki bəylərinə məktubunda Rusiyaya qarşı çevrilən ən kiçik narazılıqları ciddi cəzalandıracağını bildirməkdən çəkinmirdi (9, s. 605).

Kürəkçay müqaviləsini imzalayan və könüllü Rusiyanın himayəsini qəbul edən Səlim xanın səmimiyyətinə Sisianov şübhə ilə yanaşırdı. Belə ki, Sisianov Səlim xanı dağlı tayfaları və İranla yaxınlaşmaqda günahlandırırdı.

1806-cı ilin iyununda Qarabağ xanı İbrahimxəlil xan öz ailəsi ilə birlikdə vəhşisəcinə qətlə yetirildi. İbrahimxəlil xanın arvadı Səlim xanın bacısı idi. Qarabağda baş verən bu faciə Şəkidə də böyük həyəcana səbəb oldu. Yelizavetpol komendatına göndərilən məktubda Səlim xan mayor Lisaneviç, gürcü Milaxvar və Qarabağ məliki Cümşüdün öz aralarında məsləhətləşərək törətdiyi vəhşiliyi pisləyir və bunu xanların sədaqətinə qarşı xəyanət adlandırırdı (74, s. 272)

Bu hadisədən qəzəblənmiş Səlim xan Şəkidə yerləşdirilmiş rus qoşunları üzərinə hücum etdi. Başda Parfyanov olmaqla Tiflis alayının iki rotası şəhərdən qovuldu. Şəki xanını cəzalandırmaq üçün göndərilən general-mayor P. F. Nebolsinin başçılığı altında olan qoşunla vuruşmada Səlim xan məğlub edildi, əvvəlcə Kəldək kəndinə, sonra isə Abbas Mirzənin düşərgəsinə qaçdı. Səlim xanın ailəsi xan olmaq hüququndan məhrum edildi. Xanlığın idarəçiliyindən kənarlaşdırılan Səlim xan ömrünün sonuna qədər çarizmə, müstəmləkə osarotinə qarşı qotiyyətlo mübarizə aparmışdı. Onun adı ruslar üçün həmişə təhlükə və qorxu yaradırdı. Rus hərbçiləri bütün yazışmalarında Səlim xanın gah bir, gah da digər ərazilərdə görünməsini çox böyük təlaş və vahimə ilə bir-birinə çatdırırdılar. Sonralar onun oğulları bu mübarizəni davam etdirmiş, itirdikləri mülkiyyət hüquqlarını özlərinə qaytarmağa cəhd göstərmişdilər.*

1806-cı il dekabrın 10-da İrandan üz döndərib Rusiya tərəfinə keçən Xoy hakimi Cəfərqulu xan Şəki xanı təyin edildi. Dekabrın 31-də Tiflisdə general-feldmarşal qraf İ. V. Qudoviçlə Cəfərqulu xan arasında xanlığın Rusiya tabeçiliyində saxlanması haqqında traktat imzalandı. Bu traktat vaxtilə Kürəkçayda

---

* Səlim xanın oğullarından biri Süleyman xan 1827-ci ildə Azərbaycana qayıdaraq Rusiyanın himayəsini qəbul etmişdi. Gənc xandan öz məqsədləri üçün istifadə etməyə çalışan Rusiya imperiyası ona 600 manat təqaüd təyin etmişdi. 1838-ci ildə Varşavada əla xidmətinə görə polk komandirinin müavini təyin olunmuşdu. 1841-ci ildə isə əlahəzrət imperatora öz təşəkkürünü bildirmək üçün Sankt-Peterburqa gedən deputat qrupunun tərkibinə daxil edilmişdi. Burada ona polkovnik rütbəsi verilmiş və qiymətli hədiyyələr təqdim edilmişdi (58, s. 910-911). 1844-cü ildə Süleyman xan ailə məsələləri ilə əlaqədar İrana getmişdi. Bundan şübhələnən Rusiya onu Qarabağda yaşayan qohumlarını İrana köçürmək və qarışıqlıq yaratmaqda günahlandırmışdı. Süleyman xan hərbi xidmətdən qovulmuş və ona rus imperiyasının sərhədlərinə qayıtmaq qadağan edilmişdi. Lakin onun İranda da qalmasından qorxan ruslar Süleyman xanı Təbrizdəki rus konsulluğuna çağıraraq həbs etmiş, əvvəlcə Tiflisə gətirmiş, buradan isə Voronejo sürgün etmişdi (8, s. 913). 1846-cı ildə sürgündən geri qayıdan Süleyman xan yenidən vətənə dönmüş, hərbi xidmətə götürülmüş və dağlılara qarşı keçirilən hərbi əməliyyatlarda fərqləndiyi üçün təqaüdü yenidən bərpa edilmişdi (67, s. 830).

Səlim xanla Sisianov arasında imzalanan müqavilə ilə demək olar eyni idi. Lakin müqavilə yə əsasən Cəfərqulu xan öz üzərinə bir sıra əlavə öhdəliklər də götürürdü. Cəfərqulu xan öz qoşunları ilə birlikdə dağlı tayfalarına qarşı keçirilən hərbi əməliyyatlarda yaxından iştirak etməli idi (25, s. 273).

Rus ordusunun general-leytenantı rütbəsinə layiq görülən Cəfərqulu xan ömrünün sonuna qədər imperiyanın sadiq nökəri olmuşdur. Yerli xalqa, onun adət ənənələrinə tamamilə yad olan Cəfərqulu xan Rusiyanın bütün göstərişlərini can-başla yerinə yetirir, xanlığın ərazisində çarizmin müstəmləkəçilik siyasətinə qarşı çevrilmiş üsyanları xüsusi amansızlıqla yatırır, üsyançıları cəzalandırır, onları Sibirə sürgün etdirirdi.

Cəfərqulu xan həmçinin dağlı tayfalarının azadlıq mübarizəsini yatırmaqda rus qoşunlarına yaxından köməklik göstərirdi. Məhz onun bu düşmənçilik niyyətindən xəbər tutan Qazıqumuxlu Surxay xan dağlıların yığma qoşunu ilə Sara gəldi. O öz adamlarını Cəfərqulu xanın yanına göndərərək onu Rusiyanın tabeliyindən çıxmağa çağırdı. Cəfərqulu xan bu təklifi rədd etdi. Carlılarla birləşən Surxay xan Şəki xanlığının 4 fərsəxliyində yerləşən Cəlayir kəndinə yaxınlaşdı. Çoxminli qoşunun başında Surxay xan, şəkili Məhəmmədhəsən xan, Şirvanlı Qasım xan, Surxay xanın 4 oğlu - Nux bəy, Xəlib bəy, Zəkəriyyə bəy və Murtuzəli bəy dayanırdı. Rus qoşunları ilə birləşən Cəfərqulu xanın tərəfdarları ilə dağlı qoşunları arasında Göynük kəndi yaxınlığında sıx meşəliklərlə örtülmüş ərazidə qanlı döyüş baş verdi. İki saata qədər davam edən döyüşdə toplardan istifadə edən rus qoşunları birləşmiş qüvvələri məğlub etdi. Surxay xan yaralandı. Cəfərqulu xan isə əsir düşənləri cəzalandırmaq üçün Carın I fərsəxliyində yerləşən Əmbərçay adlı əraziyə qayıtdı (75, s. 284).

Cəfərqulu xanın xislətinə yaxşı bələd olan general Tormasov dağlı tayfalarını Rusiyadan asılı vəziyyətə salmaq üçün onun xəyanətkar əməllərindən məharətlə istifadə edirdi. Bu məqsədlə o Cəfərqulu xandan tələb edirdi ki, Rusiyaya tabe olmayana qədər dağlılara Şəki xanlığına məxsus otaqlardan istifadə etməyi və xanlığda ticarəti qadağan etsin (45, s. 604). 1809-cu ildə Qafqazdakı rus qoşunlarına baş komandan təyin edilən general A. P. Tormasova məktub yazan Səlim xan bağışlanmasını xahiş edən zaman Cəfərqulu xan bunu qeyri-mümkün hesab edir, xəyanət edən Şəki xanının bağışlanmaz olduğunu göstərirdi (76, s. 503).

Cəfərqulu xan təkcə xanlığı soyub talamaqla, qarət etməklə, azadlıq mübarizəsini amansızlıqla yatırtmaqla kifayətlənmir, Azərbaycanın digər xanları haqqında gizli məlumatları general Tormasova ötürürdü. General A. P. Tormasova göndərdiyi məktubunda o Şirvan xanı Mustafa xan və Qarabağ xanı Mehdiqulu xanın Səlim xanla birləşərək Rusiyaya xəyanət etməkdə və İranla yaxınlaşmaqda günahlandırırdı.(77, s. 512). Cəfərqulu xan Şəkiyə özü ilə 1000 nəfərlik ailə gətirmişdi. Bu ailələrin içərisində xan ailəsinin nökərləri olan və mənbələrdə "Xoy erməniləri" adı ilə qeyd edilən erməni ailələri də var idi. Gələn ailələrin bir hissəsi

Şəki xanlığının kənarlarında məskunlaşdırıldı, bir hissəsi isə şəhərdə yerləşdirildi. Xoylular yerli əhalini incidir, qarət edirdi. Cəfərqulu xan bütün məsələləri onların vasitəsilə həll edir, yerli əhaliyə etibar etmirdi. Şəki əhalisi general Yermolova şikayətində yazırdı ki, əgər dənizlər mürəkkəbə meşələr qələmə, insanlar kargüzara çevrilsələr belə xoylularınıza etdiyi zülmü təsvir edib qurtarmaq olmaz. Cəfərqulu xan öz adamları ilə Şəkiyə gələndə, aman allah, xoylular elə görməkdə idi ki, sanki şeytan onlardan əmələ gəlmişdi. Əyin başları cır-cındır içində, ayaq-yalın olan bu adamlar təsvir etdiyimizdən də min dəfə pis vəziyyətdə idi. Tezliklə çörəkdən qarınları doyan xoylular yırtıcı canavar kimi həyatımıza və əmlakımıza hücum etdilər. Xoylular əyalətdən pul yığır adamları şərləyir, böhtan atır və cərimələyirdilər". (78, s. 729). 1814-cü il avqustun 22-də Cəfərqulu xan qızdırma xəstəliyindən vəfat etdi. Hələ atasının sağlığında Rusiyaya sədaqəti ilə diqqəti cəlb edən İsmayıl paşa varis təyin edilmiş, imperator sarayı tərəfindən almazlarla bəzədilmiş qızıl medal, əlahəzrətin fəxri formanı və üzərində "Şəki xanlığının varisi" yazılmış mavi lentlə təltif edilmişdir (26, s. 506).

Cəfərqulu xanın ölümündən sonra xanlığın idarəçiliyini İsmayıl paşaya vermək üçün general-mayor Axverdov Şəkiyə gəlir. Axverdov mahalları idarə edən bəylərin və məliklərin yığıncağında İsmayıl xanı Şəki xanı elan edir və yeni xana Rtişşevin bir sıra göstərişlərini çatdırır. Rtişşev İsmayıl xana Şəkidə yaşayan ermənilərə xüsusi qayğı ilə yanaşmağı tapşırır, onlarla ədalətli rəftar edilməsini, müsəlmanlardan fərqli olaraq vergilərlə çox yüklənməməsini, öz dinlərinə sərbəst şəkildə ibadət edilməsinə şərait yaradılmasını tələb edirdi (41, s. 554).

İsmayıl xanın Şəki xanı elan edilməsi xalqın kəskin narazılığı ilə qarşılandı. 1814-cü ildə Şəkidə yeni xana qarşı üsyan başladı. Lakin üsyan yatırıldı, onun iştirakçılarına divan tutuldu. Şəkidə sakitlik yaradıldı. Bu isə yalnız zahiri xarakter daşıyırdı. "xalq İsmayıl xanın və onun adamlarının özbaşınalığına artıq dözmək istəmir. Yerli əhali başsızdır, bəylər arasında isə ixtilaf hökm sürür. Xoylular heç bir kəslə açıq əlaqə saxlamır, xanın özü haqqında bədxah fikirlər dolaşmaqdadır. Belə ki, o bir ay bundan əvvəl şeyx Əli xanın yanından gələn adamlarla gizli görüşmüş, dağlıların yanından gələn 70 nəfəri Mustafa xanın yanına göndərmişdi. Sonrakı hadisələr haqqında xəbər tutmaq mümkün deyil, ona görə ki, o, vaxtının yalnız az bir hissəsini divanxanada keçirir, qalan vaxtlarda isə öz otağında olur. O bütün məsələləri gizli şəkildə öz adamları vasitəsilə həll edir, yerli əhalidən heç kimə etibar etmir. Xalq zalım və ədalətsiz hakimiyyəti devirmək üçün bir işarə gözləyir". (59, s. 731).

Sənəddən göründüyü kimi Rusiya İsmayıl xana artıq etibar etmir, onun bütün hərəkətlərinə şübhə ilə yanaşırdı. Digər tərəfdən xanlıqda böyük çaxnaşmanın başlanmasını hər an gözləmək olardı. Xan ailəsi, xoylular isə yaranmış vəziyyətin ağırlığını başa düşərək qaçmağa çalışırdılar. Rusiya xanlıqda baş verə biləcək qarışıqlığın qarşısını almaq üçün çıxış yolunu xalqı talan edən avara, müftəxər xoyluları qovmaqda görürdü. Gizli surətdə qaçmağa cəhd göstərən

xoyluların isə keçə biləcəkləri bütün yerlərin hərbi rəislərinə onları saxlamaq və həbs etmək əmri verilmişdi (34, s. 733).

Belə bir zamanda qaniçən erməni generalı V. Q. Madatov Şəki xanlığında peyda olur. Qafqazda rus silahının köməyi ilə amansız vəhşiliklər, xüsusi qəddarlıq törədən V. Q. Madatovun Şəkiyə gəlməsi təsadüfi deyildi. Məhz onun xanlığın ərazisində görünməsindən bir həftə sonra İsmayıl xanın ölümü bir çox şübhələr yaradır. "Knyaz Madatov bu ayın 17-də mənə göndərdiyi raportda bildirdi ki, o Şəki xanlığına getmiş, İsmayıl xanı, Bum mahalında Nic kəndi yaxınlığında Qubaya göndərmək üçün qoşun toplanması işi ilə məşğul olan zaman tapmışdı. Artıq hissə yığılmışdı. Lakin iki gündən sonra İsmayıl xan elə möhkəm xəstələndi ki, onun sağalmasına heç bir ümid qalmadı". (60, s. 738).

General V. Q. Madatov İsmayıl xanın öldüyü təqdirdə Şəki komendantı mayor Fon Disterloya təcili olaraq xanın möhrünü götürməyi, vergilər üzərində nəzarəti gücləndirməyi, sakitliyi qoruyub saxlamağı, Şəki əhalisinin ixtişaşlara yol verməməsi üçün bütün tədbirləri görməyi tapşırırdı (20, s. 737).

Bu göstərişdən dörd gün sonra 1819-cu iylun 24-də İsmayıl xan vəfat etdi. Xanlıqda dərhal belə fikir yayıldı ki, İsmayıl xan zəhərlənib öldürülmüşdür (46. s, 749).

İsmayıl xanın ölümü xanlıqla mövcud olan narazılığın qısa müddətdə geniş xalq üsyanına çevrilməsinə və əhalinin itaət altından çıxmasına səbəb ola bilərdi. Səlim xanın tərəfdarlarının da hakimiyyəti ələ keçirmək cəhdləri istisna edilmirdi. Qorxuya düşən general Velyaminov Şəkiyə yeni hərbi qüvvələr göndərdi. 2 topla birlikdə 9-cu yeger polkunun batalyonu və Zolataryovun 7-ci kazak polku dərhal Şəkiyə ezam edildi. Zolataryovun kazak polkuna ali baş komandanın göstərişlərini alana kimi şəhərdə sakitliyi və qayda qanunu qoruyub saxlamaq əmri verilmişdi. Səlim xan göründüyü zaman isə onun ələ keçirilib dərhal öldürülməsi tapşırılırdı (35, s. 738).

İsmayıl xanın ölümündən sonra yeni varis təyin edilmədiyini bəhanə edən Rusiya 1819-cu il iyulun 31-də Şəkidə xanlıq üsul-idarəsini ləğv etdi. Ərazi Şəki əyaləti adlandırıldı. Mayor Fon Disterlo Şəki komendantı təyin edildi. Şəkidə komendant üsul-idarəsi yaradıldı. Komendant üsul idarəsi xalqın vəziyyətini daha da ağırlaşdırdı. 1840-cı ildə isə komendant üsul idarəsi ləğv edildi. Yeni yaradılmış Kaspi vilayətinin tərkibində Şəki qəzası təsis edildi. 1846-cı ildən isə ərazi Şamaxı quberniyasının tərkibinə daxil oldu və Nuxa qəzası adlandırıldı.

# II FƏSİL

## § 1. Car Balakən və İlisu sultanlığının əhalisi

XIX yüzilliyin I yarısında şimal-qərbi Azərbaycanda yaşayan əhalinin demoqrafik durumunun öyrənilməsi maraq doğuran problemlərdən biridir. Rusiya

Qafqazda işğalçılıq siyasətinə başladığı ilk gündən etibarən burada yaşayan əhalinin sayının düzgün müəyyənləşdirilməsinə xüsusi diqqət yetirirdi. Bu da təsadüfi deyildi. Əhalinin siyahıya alınması Rusiyanın dövlət xəzinəsinə gələn gəlirin həcminin dəqiqləşdirilməsinə xidmət edirdi. Zaqafqaziyada 1803-1805, 1816-1817 və 1830-1832-ci illərdə üç ümumi və bir neçə fərdi siyahıyaalma keçirilmişdi. İlk kameral siyahıyaalma 1803-cü il aprelin 2-də Qafqazdakı rus qoşunlarının baş komandanı general P. D. Sisianovun göstərişi əsasında keçirilmişdir. 1805-ci ildə başa çatmış bu siyahıyaalma 1816-cı ilə qədər heç bir dəyişiklik edilmədən ez mövcudluğunu saxlamışdır. Lakin bu müddət ərzində 1808-ci ildə Tiflis əhalisinin siyahıya alınması yoxlanmış. Yelizavetpol dairəsinin siyahıya alınması ona əlavə edilmişdir. İkinci ümumi siyahıya alma 1816-1817-ci ildə general N. F. Rtişşevin tapşırığı əsasında keçirilmişdir. 1821 - 1823-cü illərdə keçirilən siyahıyaalmalar da fərdi xarakter daşıyırdı. Belə ki, bu dövrdə Şimali Azərbaycanda bir sıra xanlıqların ləğv edilməsi və komendant-üsul idarəsinin tətbiq edilməsi əhalinin yenidən siyahıyaalınmasını tələb edirdi. 1819-cu ildə general A. P. Yermolovun göstərişi əsasında Şəki xanlığının siyahıya alınması keçirilmiş, 1824-cü ildə bu siyahıya alınma yoxlanmışdır. 1820-ci ildə Şirvan, 1823-cü ildə Qarabağ, 1829, 1830, 1831, 1832-ci illərdə İrəvan, Naxçıvan və Ordubad ərazilərinin siyahıya alınması keçirilmişdir. Üçüncü ümumi siyahıya alma 1830, 1831 və 1832-ci illərdə keçirilmişdir.

1830-cu ilə qədər Car-Balakən və İlisu sultanlığının qəti şəkildə Rusiyaya birləşdirilməsinə qədər bu ərazidə yaşayan əhalinin siyahıya alınması keçirilməmişdi. 1830-cu ilə qədər burada yaşayan əhalini demoqrafik durumu haqqındakı məlumatlar ayrı-ayrı adamların apardığı statistik müşahidələr əsasında toplanmış materiallara əsaslanır. Bu materiallar qeyri ardıcıllığına və müəyyən ziddiyyət təşkil etməsinə baxmayaraq əhalinin sayını, dinamikasını və hərəkətini öyrənməyə kömək edir.

Car Balakən camaatlığında və İlisu sultanlığında yaşayan əhalinin ümumi sayı haqqında ilk məlumat 1803-cü ilə aiddir. XVIII əsrin sonu XIX əsrin əvvəllərində Azərbaycan tarixinin öyrənilməsində mühüm mənbə olan Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında göstərilir ki, 1803 ildə Car-Balakəndə 16 min ev, 90 min əhali, İlisu sultanlığında isə 4 min ev, 20 min əhali var idi (42, s. 953). Lakin sonrakı illərdə əhalinin sayı haqqında mövcud olan rəqəmlər bu məlumatın həqiqətə uyğun olmadığını göstərir. Belə ki, yalnız. 1871-ci il siyahıya alınması zamanı Zaqatala dairəsinin əhalisi 56802 nəfərə çatmışdı. İ. P. Petruşevski belə hesab edir ki, Rusiya işğal olunmuş ərazidə yaşayan əhalinin sayını artırmaqla əslində Car Balakən üzərinə qoyulan 220 pud ipək vergisinin bu qədər əhali üçün ağırlıq etmədiyini inandırmağa çalışırdı (128, s. 22). İ. P. Petruşevski öz əsərində 1830-cu ildə Car-Balakən camaatlığının ümumi təsvirini verərək ərazini avar və onların icarəçiləri olan muğal (türk) və ingiloy kəndlərinə ayırır (128, s. 21-22).

Muğal kəndləri-Çobankol, Boyəhmədli, Keymur, Kürdəmir, Qarabaldır, Kətəlparaq, Padar, Kindirqala, Almalı, Babalı, Lələli, Köylər, Böyük Lahıc, Kiçik Lahıc, Yengiyan, Muğanlı, Bazar, Qalalı, Çardaxlı, Keysur.

Avar kəndləri - Car, Göyəm, Matsex, Sumaylo, Qəbizdərə, Qarahacılı, Dardoqqaz, Balakən, Sabluani, Regetala, Cindrisxivi, Katex, Qudaxar, Koybulaba, Tonquruçi, Tala, Kargər, Aşağı Muxax, Yuxarı Muxax, Sabunçu, Cınıx, Qutparax, Çardaxlı, Əliəsgər, Qulax Mamrıx, Cincimax, Baycınıx.

İngiloy kəndləri - Əliabad, Mosul, Zəyəm, Qorağan, Verxiyan, Tasmalı, Şotavar, Faldarlı, Kəpənəkçi, Çudulu, Marsan, Lələpaşa.

27 avar kəndində 5330,32 muğal və ingiloy kəndlərində isə 3000 ev vardı.

Avar kəndləri bir qayda olaraq dağ və dağətəyi, muğal və ingiloy kəndləri isə düzən ərazilərdə yerləşirdi. XVIII əsrin sonundan başlayaraq avar icmasında nəsli qəbilə quruluşunun dağılması prosesi sürətləndi, bu isə torpaqdan ümumi istifadə qaydalarının pozulmasına səbəb oldu. Artıq XIX əsrin əvvəlində otlaq və meşəliklərdən başqa bütün əkilən torpaqlar, bağlar və üzümlüklər hər yerdə ayrı-ayrı ailələrin ixtiyarında idi. Əkilən torpaqlar icmalara məxsus olsa da bu yalnız formal xarakter daşıyırdı. Hər il əkinə yararlı torpaqlar toxumlar arasında bölüşdürülür, sonra isə evlər arasında bərabər paylanırdı. Torpağın həcmi əkilən torpağın ümumi sahəsindən, əhalinin sıxlığından və evlərin sayından asılı idi. Ayrı-ayrı ailələrin ixtiyarına keçən torpaq sahələri getdikcə həmin ailələrin irsi mülkiyyətinə çevrilirdi. İrsi keçən torpaq sahələlərinin tərkibinə əkilən sahələrin yaxınlığında olan malikanələr, üzümlüklər, tut bağları da daxil idi. Bir avar ailəsinin itxiyarında olan və onun irsi mülkiyyəti sayılan torpaq sahəsinin orta ölçüsü 10/12 desyatin təşkil edirdi. Fərdi mülkiyyətə keçən torpaq sahələri içərisində əvvəllər toxumların ümumi istifadəsində olan kənd torpaqlarından kənarda yerləşən xutor torpaqları da daxil idi (xutor-içərisində sahibinin evi və təsərrüfatı olan ayrıca mülk) Xutor təsərrüfatı düzən ərazilərdə daha geniş yayılmışdı. Sonralar meşəliklərdən təmizlənmiş və əkinə yararlı torpaq sahələri-axular da xüsusi mülkiyyətə keçirdi. Axu yerləri üçün bir qayda olaraq Car əyalətinin şimal-şərq hissəsində yerləşən dağətəyi torpaqlar, meşəlik ərazi və yaxud dərələr seçilirdi. Avar icmasında torpağın alınması və satılması azad idi. Adətə görə bir çox icmalarda torpağı almaq təklifi əvvəlcə yaxın qohumlara edilirdi. Yalnız onların etirazından sonra bu təklif digər şəxslərə edilirdi.

Avar kəndlərində əhalinin başlıca məşğuliyyəti heyvandarlıq, əsasən qoyunçuluq idi. Əkinçilik bu göndlərdə yardımçı təsərrüfat sahəsi hesab olunurdu. Avar icmalarının yay otlaqları Baş Qafqaz silsiləsinin şimal hissəsində yerləşirdi. Hər icmanın ixtiyarında müəyyən edilmiş əkin sahələri var idi. Yaylağa köçmə zamanı yataqlar püşk atma yolu ilə bölüşdürülürdü. Yataqlara ümumi nəzarət tanınmış adamlara bir qayda olaraq varlı heyvandırlara tapşırılırdı. Yaylaqlardan istifadə etmək istəyən muğallar və ingiloylar üzərinə xüsusi vergi qoyulurdu. Bu vergi hər 100 baş qoyundan ikisini vermək idi. Yaylaqlar güclü mühafizə olunur və

bu məqsədlə gözətçilər ayrılırdı. Payızda sürü yenidən Baş Qafqaz silsiləsinin cənubuna keçir və düzən kəndlərdə qışlayırdı. Qışlaqlar Alazanın sağ sahilindəki çöllərdə yerləşirdi. Qışlaqlarda sürü yataqlara ayrılır və bu iş yataqçıya tapşırılırdı. Yataqçı otlaq yerini müəyyənləşdirir, çoban tutur, onun üçün qab-qacaq, gözətçi iti və digər əşyaları hazırlayırdı. Qış dövründə yatağın südü bütünlüklə yataqçıya verilirdi. Yataqçının xeyrinə verilən vergi getdikcə ağır mükəlləfiyyətə çevrilirdi. Bu proses nəsli quruluşun dağılmasını və feodallaşma prosesinin sürətlənməsinə şərait yaradırdı. Yüksək dağlıq ərazilər istisna edilməklə Car-Balakən camaatlığının demək olar bütün ərazisində əkinçilik geniş yayılmışdı. Düzən kəndlərdə yaşayan əhalinin başlıca məşğuliyyəti əkinçilik idi. Əsasən dənli bitkilər-buğda, arpa, darı və çəltik əkilirdi. Düzən kəndlərdə yaşayan əhali həm də bağçılıqla məşğul olurdu. Əkin yerləri içərisində fındıq və tut bağları geniş yayılmışdı. Tut plantasiyaları ipəkçiliyin inkişaf etməsinə səbəb olmuşdu. Fındıq və üzüm yerindəcə emal olunur, az bir hissəsi satılır və ya taxıla dəyişdirilirdi. Şərabçılıq ingiloy ailələri içərisində daha geniş yayılmışdı.

XIX əsrin əvvəlində Car-Balakən camaatlığında yaşayan əhalinin demək olar hamısı islam dininə sitayiş edirdi. İslama sitayiş edən yerli əhali bütün Car əhalisinin 2/3 hissəsini təşkil edir və türk dilində danışırdı. Çobankol, Keymur, Bazar, Almalı, Lələli, Göylər, Kətəlparaq, Kindirqapa, Bəyəhmədli, Böyük Lahıc, Kiçik Lahıc, Kürdəmir, Padar, Baydarlı, Muğanlı, Babalı, Qarabaldır, kəndlərində yaşayan əhali türk dilində danışırdı (121, s. 257-258).

Car-Balakən camaatlığında yaşayan əhali etnik tərkibinə görə 3 qrupa ayrılırdı a) avarlar, b) muğallar, v) ingiloylar. Avarların bu əraziyə gəlməsi XVII yüzilliyə aiddir. Əlverişli iqlim şəraiti, münbit torpaqlar, onların bu ərazidə kütləvi şəkildə məskunlaşmasına şərait yaradırdı. Dağıstandan düzən ərazilərə gələn avarlar toxumlarda birləşirdilər. İlk toxumlar Nuxlu və Çimçili toxumları hesab olunur. Bu toxumlar ilk dəfə Car Dərəsinə aparan Qundz dağda məskunlaşmışdı. Sonralar Təbəli, Ərəbli, Cormut, Boyaqlı, Səbəli toxumları meydana gəldi. Toxumlar qüvvətləndikdən sonra düzənlikdə məskunlaşmaq imkanı əldə etdilər. Əlverişli təbii şərait, zəngin otlaqlar bu toxumlara dağlardan digər əhalini də düzənliklərdə məskunlaşmağa çağırmaq imkanı verirdi. İlk əvvəl avarların həyat tərzi bütünlüklə hərbi xarakter daşıyırdı. Lakin bir qədər sonra bu hərbi iş öz yerini heyvandarlığa və əkinçiliyə verdi.

Muğallar bu ərazinin ən qədim sakinləri idi. Əsasən Alazanın aşağı axarında düzənliklərdə yaşayır, başlıca olaraq əkinçilikdə məşğul olurdular.

Əhalinin digər hissəsini ingiloylar təşkil edirdi. İngiloylar qeyri türk alban tayfaları olub ərazinin ən qədim sakinləri hesab olunur. Onlar uzun müddət öz dini inamlarını-xristianlığı qoruyub saxlamışdırlar. Sonralar avarlar muğalları və ingiloyları özlərindən asılı vəziyyətə salan zaman onlara islam dinini qəbul etdirmiş və müsəlmanlaşdırmışdı. Rusiya işğalından sonra inkiloyların yenidən xristianlaşdırılması prosesi başlamışdı. 1830-cu ilə qədər rus hökuməti ingiloylar

arasında xristianlığın azad yayılmasını elan etmişdi. Lakin bu zahiri xarakter daşıyırdı. Əraziyə xristian missionerləri din təbliğatçıları göndərilir, kilsələr tikdirirdi. 1822-ci ilə qədər cəmi 16 nəfər ingiloy xristianlaşdırılmışdı. İngiloyların xristianlaşdırılmasının 1822-ci ilə qədər ləng getməsinin, əsas səbəblərindən biri Car-Balakən camaatlığının hələ Rusiya tərəfindən tam və qəti şəkildə işğal edilməməsi ilə əlaqədar idi 79, s. 249-250). 1834-cü ilə qədər cəmi 32 ingiloy xristianlığı qəbul etmişdi. Sonralar xristianlığın provoslav məzhəbini qəbul etmiş ingiloyların sayı sürətlə artmağa başladı. Bu bir tərəfdən xristianlığın sürətlə yayılmasının, təbliğ edilməsinin nəticəsi idisə, digər tərəfdən onlar üçün bir sıra imtiyazların verilməsi ilə əlaqədar idi. Belə ki, ingiloylar birbaşa xəzinəyə verilən vergilərdən və müəyyən mükəlləfiyyətlərdən azad edilirdi (29, s. 898).

1851-ci ildə Car-Balakəndə yaşayan ingiloyların 1200 nəfəri xristianlaşdırılmış, bu məqsədlə 3 kilsə inşa edilmiş və bu kilsələr gürcü, türk dilini bilən ekzarxlarla təmin edilmişdi (29, s. 898).

60-cı illərdə Zaqatala dairəsində 3 kənddə - Qax, Qorağan və Əlibəylidə yeni kilsələr inşa edilmişdi (28, s. 1390). 1860-cı ildə Yenikənd və İlisuda yaşayan 5442 nəfər ingiloyun 3697 nəfəri xristianlaşdırılmışdı (28, s. 1349).

Car-Balakən camaatlığı kimi İlisu sultanlığında da bu ərazi qəti işğal edilənə qədər əhalinin siyahıya alınması keçirilməmişdi. 1831-ci il siyahıya alınmanın nəticələrinə görə sultanlıqda 38 kənd və 2128 ev vardı (133, s. 304-304). Bu kəndlər aşağıdakılar idi (cədvəl 1).

Sultanlıqda birləşən kəndlər asılıq dərəcəsinə görə 3 qrupa bölünürdü:

1) Sultana hakim kimi tabe olan, lakin heç bir məcburi mükəlləfiyyət daşımayan kəndlər.

2) Sultana vergi verən və müəyyən edilmiş mükəlləfiyyətləri yerinə yetirməli olan kəndlər.

3) Bəylərdən asılı olan kəndlər.

| № | Kəndlərin adı | Evlərin sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 1 | Sarıbaş | 20 | 35 |
| 2 | İlisu | 300 | 450 |
| 3 | Ağçay | 20 | 27 |
| 4 | Qax | 400 | 650 |
| 5 | Zəyəm | 10 | 16 |
| 6 | Kiçik Malax | 7 | 9 |
| 7 | Böyük Malax | 8 | 14 |
| 8 | Suvagil | 100 | 180 |
| 9 | Qum | 50 | 39 |

| | | | |
|---|---|---|---|
| 10 | Sabunçu | 4 | 7 |
| 11 | Sasxan | 20 | 34 |
| 12 | Əmircan | 50 | 64 |
| 13 | Qas | 15 | 18 |
| 14 | Qalalı | 20 | 24 |
| 15 | Zərnə | 40 | 56 |
| 16 | Ləgit | 15 | 18 |
| 17 | Malax | 8 | 12 |
| 18 | Meşəbəyi | 15 | 21 |
| 19 | Aqatay | 5 | - |
| 20 | Əmbərçay | 30 | 45 |
| 21 | Əlibəyli | 50 | 61 |
| 22 | İbahlı | 20 | 24 |
| 23 | Bağlar | 12 | 18 |
| 24 | Bazartala | 3 | 7 |
| 25 | Bğyük Kötüklü | 20 | 28 |
| 26 | Qaratala | 4 | 9 |
| 27 | Kiçik Kötüklü | 5 | 8 |
| 28 | Danqlı | 10 | 17 |
| 29 | Qıpçaq | 50 | 64 |
| 30 | Qaysarlı | 13 | 17 |
| 31 | Amanlı | 12 | 14 |
| 32 | Bəydərli | 15 | 18 |
| 33 | Karmalar | 20 | 28 |
| 34 | Tanqıt | 10 | 16 |
| 35 | Daykənd | 6 | 8 |
| 36 | Cəlair | 5 | 7 |
| 37 | Dəhnədağlı | 15 | 29 |
| 38 | Baş Suvagil | 25 | 36 |

Birinci qrupa daxil olan kəndlərdə əsasən Saxurlar yaşayırdı. Baş Qafqaz silsiləsinin həm şimal, həm də cənub tərəfində yerləşən ərazilərdə yaşayan Saxurların başlıca məşğuliyyəti heyvandarlıq idi. sultanlığın şimal hissəsində yerləşən bu kəndlər 4 qrupda birləşirdi. Saxur, İlisu, Qaradolaq və Suvagil qrupları.

Saxur qrupuna daxil olan kəndlər Samur çayı və Baş Qafqaz silsiləsinin cənub tərəfində olan Zərnə və Ləkit dərələri torpaqları daxil idi. Saxur qrupuna daxil olan kəndlər: Saxur, Xiyax, Syuqyut, Muslax, Mıxıx, Gilmis, Kurdul, Zərnə, Ləkit və Ləkit-Malax kəndləri idi. 1852-ci ildə siyasi və hərbi səbəblərə görə bu kəndlərin əhalisi Zaqatala dairəsinə köçürülmüşdü. Köçürülənlərin bir hissəsi yeni iqlimə uyğunlaşmadıqları üçün tələf olmuş, bir hissəsi isə 1860-cı ildə öz əvvəlki yaşayış yerinə qayıtmışdı. Bu kəndlərin ən qədimi Saxur hesab edilir. Məhz bu kənddə yaşayan ailələrin sayının artması ilə əlaqədar olaraq yer çatışmadığına görə Baş Qafqaz silsiləsinin cənub yamaclarına köçən Saxurlular digər kəndlərin - Xiyax, Syuqyut, Malax, Ləkit Malax kəndlərinin əsasını qoymuşdular. Saxur qrupunda birləşən kəndlərin əhalisi əsasən azad və bərabərhüquqlu Saxurlardan ibarət idi. Yerli şəraitə uyğun olaraq Saxurluların əsas məşğuliyyəti heyvandarlıq, əsasən qoyunçuluq idi. Sonralar bu kəndlərdə məskunlaşanlar əkinçiliklə də məşğul olmağı öyrəndilər.

İkinci qrupa daxil olan (İlisu və Qaradolaq qrupu) kəndlər - Carıbaş, İlisu, Ağçay, Qaşqaçay, Yuxarı Malax, Aşağı Malax, Əmbərçay idi. Yuxarı və Aşağı Malax kəndlərinin əsası XVIII əsrin əvvəlində Quba və Şirvandan gələnlər tərəfindən qoyulmuşdu. Bu qrupa daxil olan kəndlərdən yalnız biri-İlisu sultandan asılı vəziyyətdə idi. Bu kəndlərdə də yaşayan əhalinin başlıca məşğuliyyəti qoyunçuluq idi. Onların yay və qış otlaqları bütün Saxurlulara məxsus olan digər torpaqların tərkibinə daxil idi. Yayda örüş üçün dağ yeri, qışda bəylərin mülkiyyətində olan Əyriçaydan cənubdakı vadilər tutulurdu.

3-cü qrupa - Suvagil qrupuna daxil olan kəndlər - Baş Suvagil, Qas, Qarqay, Qalalı, Əzgilli, Cincimax, Kötüklü, Qum, Sabunçu qəsəbəsi idi. Cincimax, Əzgilli kəndlərinin əhalisi və Qalalının bir hissəsi özlərini Samur dairəsinin Kolal kəndindən çıxma hesab edir. Onların əcdadı əvvəlcə Saxura köçmüş, sonra isə qeyd olunan digər kəndlərin əsasını qoymuşdular.

İlisu sultanlığına daxil olan sultan və bəylərdən asılı olmayan, lakin göstərilən qruplara da aid edilməyən Əmircanlı, Tanqıt və Daykənd də var idi. Sultandan asılı kəndlər Qax, Əlibəyli, Meşəbaş, Əncalı, Babalı, Qorağan, Şotavar, Almalı, Suskənd idi. Qaxın Saxur vilayətinə birləşdirilməsi ilə Saxurların düzənliyə köçməsi prosesi sürətləndi. Qax kəndi sultanın əsas gəlir mənbəyi idi. Onun əhalisi sultana vergi ödəməməli və müəyyən mükəlləfiyyətlər daşımalı idi. Verginin miqdarı sultanın istəyindən asılı olaraq artırılıb-azaldıla bilərdi. Babalı və Almalı qədim kəndlər hesab olunur.

Bəylərdən asılı olan kəndlər-Fıstıqlı, İbahlı, Kiçik Kötüklü, Böyük Kötüklü, Uzuntala, Qaratala, Qazmalar, Bəydərli, Amanlı, Qeysərli, Qıpçaq, Cəlair, Dəymədağlı, Şeyxlər idi. Bu kəndlər qədim kəndlər hesab edilirdi.

1828-ci ildə Cənubi Qafqazın işğalını başa çatdıran Rusiya bu ərazinin istehsal və maliyyə imkanlarını öyrənmək məqsədilə Qafqaza xüsusi məmurlar qrupu göndərmişdi. Bu məmurların topladıqları məlumatlar "Rusiyanın Qafqaz

arxasındakı əyalətlərinin statistika, etnoqrafiya, topoqrafiya və maliyyə baxımından təsviri" adlı 4 cildlik kitabda çap edilmişdi. Bu təsvirdə göstərilirdi ki, 1836-cı ildə Car-Balakən camaatlığı ilə birlikdə İlisu sultanlığında yaşayan əhalinin ümumi sayı 46680 nəfər idi (28, s. 23).

XIX əsrin 50-ci illərində Car-Balakən dairəsinin əhalisi haqqında olan məlumatlar nisbətən ardıcıl və dəqiqdir. 1854-cü il yanvarın 1-nə olan məlumata görə Car-Balakən dairəsində 128 kənd, 10489 ev vardı (17, s. 842).

XIX əsrin 50-ci illərinin sonunda isə Car-Balakən dairəsinin əhalisinin sayı aşağıdakı kimi idi.

***Cədvəl 2.***

| **İllər** | **1858** | | **1859** | | **1861** | | **1862** | |
|---|---|---|---|---|---|---|---|---|
| | Zaqatalada | Dairədə | Zaqatalada | Dairədə | Zaqatalada | Dairədə | Zaqatalada | Dairədə |
| Əhalinin sayı | 360 h. | 5660 h. | 387 h. | 5240 h. | 324 h. | 5253 h. | 329 h. | 5250 h. |

1858-ci ildə əhalinin ümumi sayı 56600 nəfər idisə, 1859-cu ildə bu rəqəm 52400 nəfərə enmişdi. Əhalinin sayının azalması şərqi Qafqaz fəth edilən zaman Dağ mahalının yeni yaradılan Dağıstan əyalətinin tərkibinə qatılması ilə əlaqədar idi. 1858-ci ildə əhalinin 52600 nəfəri müsəlman, 3697 nəfəri provoslav (xristianlaşdırılmış ingiloy), 166 nəfəri erməni idi.

1871-ci ildə isə Zaqatala dairəsinin əhalisinin sayı və etnik tərkibi aşağıdakı kimi idi.

***Cədvəl 3 (128, c. 23).***

| **İl** | **Muğallar** | | **Avar və saxurlar** | | **İngiloylar** | |
|---|---|---|---|---|---|---|
| 1871 | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| | 6530 | 5642 | 18892 | 15518 | 5295 | 4925 |
| **Cəmi** | **12172** | | **34410** | | **10220** | |

Beləliklə, 1830-cu ildən 1871-ci ilə qədər Car-Balakən camaatlığı və İlisu sultanlığının əhalisinin sayı aşağıdakı kimi olmuşdur.

| **İllər** | **Əhalinin sayı** |
|---|---|
| 1836 | 46680 nəfər |

| | |
|---|---|
| 1846 | 68716 nəfər |
| 1858 | 56600 nəfər |
| 1859 | 52400 nəfər |
| 1861 | 52530 nəfər |
| 1862 | 52500 nəfər |
| 1871 | 56802 nəfər |

## § 2. Şəki əyalətinin əhalisi

XIX əsrin əvvəlində Şəki xanlığının əhalisi haqqında ilk məlumat 1804-cü ilə aiddir. Aktlarda göstərilir ki, 1804-cü ildə Şəki xanlığında 15000 ev, 75 min əhali yaşayırdı (42, s. 953) 1805-ci ildə xanlığın Rusiyanın tabeçiliyinə keçdiyi zaman isə 20 min evin olması qeyd edilir. Bu rəqəmlər bir qədər ziddiyyətli olsa da Şəki xanlığında əsrin əvvəlində 20 minə qədər evin olması şübhə doğurmur. Car-Balakən camaatlığından və İlisu sultanlığından fərqli olaraq Şəki əyaləti əhalisinin siyahıya alınması nisbətən dəqiqdir. Faktlarla tanışlıq göstərir ki, bu rəqəmlər bir-biri ilə kəskin ziddiyyət təşkil etmir.

1824-cü il siyahıya alınmasına görə Şəki əyalətində 272 kənd, 84517 nəfər əhali yaşayırdı. Əyalətdə 8 mahal-Şəki, Ərəş, Ağdaş Padar, Alpout, Qutqaşın, Xaçmaz və Bum mahalı var idi. Ən böyük mahal Şəki mahalı idi. Bu mahalda 89 kənd, 7463 ev və hər iki cinsdən olan 33797 nəfər əhali yaşayırdı.

*Cədvəl 5.*

**Şəki mahalı**

| № Kəndlər | Evləri n sayı | Əhalisini n sayı | № Kəndlər | Evlərin sayı | Əhalisi nin sayı |
|---|---|---|---|---|---|
| 1.Canaqbulaq | 46 | 210 | 43. Əlyar | 62 | 268 |
| 2. Carxana | 19 | 75 | 44.Çaykəndi | 27 | 102 |
| 3. Qaradeyin | 14 | 54 | 45. Hacallı | 26 | 111 |
| 4. Savalan | 14 | 45 | 46.Ahpelikənd | 119 | 500 |
| 5. Kürd | 56 | 289 | 47. Cumakənd | 124 | 607 |
| 6.Calut | 232 | 1048 | 48.Bollukənd | 30 | 139 |
| 7.Qarabaldır | 55 | 226 | 49.Aydınbulaq | 31 | 111 |
| 8.Yaqutlu | 13 | 71 | 50.Fazıl | 30 | 123 |
| 9.Salıbəy | 23 | 104 | 51. Fəxralı | 62 | 286 |
| 10.Köçəri oba | 59 | 264 | 52.Qaraqoyunlu | 102 | 548 |
| 11.Zərrab | 61 | 254 | 53. Mürsəluşağı | 10 | 54 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 12.Celyan | 25 | 92 | 54.Köçəri Mahmud ağa | 7 | 26 |
| 13.Vartaşın | 656 | 3103 | 55.Köçəri Aslan bəy | 6 | 7 |
| 14.Köçəri Haputlu | 24 | 117 | 56.Köçəri Uruk Sərkər | 3 | 12 |
| 15.Muxas | 132 | 561 | 57. Küngüt | 404 | 1814 |
| 16.Kinkənd | 35 | 151 | 58.Qaraməryəmli | 14 | 45 |
| 17.Otman | 28 | 100 | 59.Yasamal | 10 | 48 |
| 18.Daşağıl | 227 | 1002 | 60.Çayqırağı | 28 | 112 |
| 19.Şahabbas | 37 | 156 | 61.Zəyzid | 304 | 1382 |
| 20.Köçəri Böyük Haputlu | 80 | 360 | 62.Hüseyn | 32 | 139 |
| 21.Malax | 37 | 127 | 63.Oyrat | 10 | 48 |
| 22.Məlikyar | 15 | 66 | 64.Ərəbşəkili | 100 | 443 |
| 23.İbrahimkənd | 31 | 136 | 65.Qudula | 80 | 391 |
| 24.Kəldək | 114 | 461 | 66.Qaradağlı | 90 | 12+ |
| 25.Bayan | 32 | 210 | 67.Babaratma | 36 | 247 |
| 26.Oraban | 10 | 58 | 68.Qaratelli | 57 | 51 |
| 27.Xanqaraqob u | 22 | 73 | 69.Göynük | 538 | 3433 |
| 28. İpıkli | 4 | 15 | 70.Layısqı | 195 | 987 |
| 29.Qaraqobu | 18 | 55 | 71.Baş Şabalıq | 39 | 194 |
| 30.Göybulaq | 134 | 642 | 72.Aşağı Şabalıd | 118 | 808 |
| 31.Güllüdax | 18 | 73 | 73.Aşağı İnçə | 123 | 574 |
| 32.Cəfərabad | 117 | 375 | 74.Yuxarı İnçə | 133 | 561 |
| 33.Çıraqlı | 35 | 157 | 75.Qaraçı | 28 | 106 |
| 34.Göybəyli | 34 | 134 | 76.Biləcik | 350 | 1576 |
| 35.Köçəri Axullu | 7 | 33 | 77.Oxut | 230 | 1034 |
| 36.Şirinbəyli | 14 | 62 | 78.Küdürlü | 15 | 58 |
| 37.Baş Dəhnə | 201 | 927 | 79.Topbağı | 12 | 42 |
| 38.Suçma | 51 | 246 | 80.Əhmədbəyli | 14 | 65 |
| 39.Kiçik Dəhnə | 186 | 794 | 81.Cəyirli | 11 | 54 |
| 40. Bulaq | 156 | 630 | 82.Dodu | 63 | 368 |
| 41.Tərəkəmə | 12 | 50 | 83.Kiş | 274 | 1269 |
| 42.Məclis | 52 | 249 | 84.Şin (ləzgi kəndi) | 61 | 303 |
| 85.Sarıqaya | 5 | 22 | 88.Mirzəcəmilli | 8 | 38 |
| 86.Binələr | 78 | 372 | 89.Məmmədzamanlı | 21 | 100 |
| 87.Salbanlar | 28 | 123 | | | |

Mahalın ən böyük kəndləri Göynük, Kiş, Oxut, Biləcik, Vartaşın, İnçə, Dəhnə, Layısqı, Daşağıl, Zəyzid, Küngüt və b. idi.

Bu mahalda cəmi iki kənddə - Daşağılda 45 və Şin kəndində 61 ləzgi ailələri var idi. Bu ailələr Şəkiyə Məhəmmədhəsən xanın zamanında Dağıstandan gəlmişdilər. Onlar atlı dəstələri təşkil edərək Məhəmmədhəsən xanla birlikdə hərbi yürüşlərdə iştirak edirdilər. 1824-cü il siyahıya almasına qədər dövlət xəzinəsinə vergi vermirdilər (103, v. 155). Şin kəndinin əsasını isə Dağıstandan gələn ləzgilər Cəfərqulu xanın zamanında qoymuşdular. Bu torpaqlar Gəray bəy adlı şəxsə məxsus idi. Bəyin torpağında məskunlaşan ləzgilər torpağı əkir və məhsulun onda bir hissəsini bəyə vergi verirdilər. 1819-cu il siyahıya alınması zamanı bu kənd məlum deyildi (103, v. 335).

XIX əsrin əvvəlində Şəki mahalında yaşayan əhalinin içərisində Qarabağ və Şirvandan olan ailələr də var idi. Şirvandan və Qarabağdan gələn ailələr mahalda bir sıra düşərgələr-köç yerləri salmışdılar. Bunlar Köçəri oba, Kiçik Haputlu, Böyük Haputlu, Salbanlar, Köçəri Mahmud ağa, Köçəri Aslan bəy, Köçəri Uruk Sərkər, Köçəri Axullu, Şirinbəyli kimi yaşayış yerləri idi.

Qarabağ ailələrinin Şəki xanlığının ərazisinə kütləvi axını XVIII əsrin sonu, XIX əsrin əvvəllərində başlanmışdı. Bu proses bir sıra amillərlə bağlı idi. Belə ki, XVIII əsrin sonunda Ağa Məhəmməd şah Qacarın Qarabağa hücumu zamanı bir çox ailələr xanlığın ərazisini tərk edərək müxtəlif yerlərə qaçmışlar. Bu zaman Şəki xanlığına da çoxlu Qarabağ ailəsi gəlmişdi. Digər tərəfdən Birinci Rusiya-İran müharibəsi zamanı kəndlilər öz yaşayış yerlərini tərk edərək daha təhlükəsiz yerlərə Azərbaycanın digər xanlıqlarının ərazisinə qaçırdılar. Təkcə 1812-ci ildə Şəki xanlığına 1000 Qarabağ ailəsi gəlmişdi (61, s. 579). Nəhayət feodal zülmündən, ağır vergilərdən təngə gələn kəndlilər çıxış yolunu bir xanlığın ərazisindən başqasına qaçmaqda görürdülər. Rusiya hökuməti qaçan kəndlilərin öz əvvəlki yaşayış yerlərinə qaytarılması üçün ciddi tədbirlər görürdü. Xanlara həmin kəndlilərə öz ərazilərində yer verməmək haqqında göstərişlər göndərilirdi. İmperiya bu hərəkətini onunla əsaslandırmağa çalışırdı ki, vergi və mükəlləfiyyətlərdən yayınan kəndlilər digər xanlıqların ərazisində özlərinə yer tapırsa, bu onların cəzasız qalmasına səbəb ola bilər. Ona görə də xanlar bir-birinin ərazisinə qaçan kəndliləri dərhal geriyə qaytarmalı idi (52, s. 132).

Birinci Rusiya-İran müharibəsi başa çatdıqdan sonra Qarabağ xanı Mehdiqulu xan müharibə zamanı Qarabağı tərk edən ailələri geri qaytarmaq üçün öz məmurları Gülməmməd bəyi və Ağa bəy Sadıqovu Şəkiyə göndərmişdi. Bu zaman Cəfərqulu xan tərəfindən 800 ailə öz əmlakı və mal-qaraları ilə birlikdə Qarabağa qaytarılmışdı (52, s. 552).

1817-ci ildə 400-ə yaxın Qarabağ ailəsi erməni generalı V. Q. Madatov tərəfindən zorla Qarabağa aparılmışdı. Azərbaycanlılara nifrət bəsləyən və fürsət düşən kimi dərhal qisas almağa çalışan bu qaniçən erməni rus ordusunun

tərkibində Qafqazın işğal edilməsində yaxından iştirak etmişdi. O rusların əli ilə bütün Qafqazı müsəlmanlardan təmizləmək, ən münbit torpaqlarda erməniləri yerləşdirmək niyyətində idi. Məhz general V. Q. Madatovun yaxından köməyi sayəsində Talış hakimi Mir Həsən xan İranda həbs olunmuş, Şəki xanı İsmayıl xan zəhərlənib öldürülmüş, Gəncə xanı Cavad xanın oğlu Uğurlu ağa vəhşicəsinə qətlə yetirildikdən sonra döyüş meydanından onun meyiti tapılıb yandırılmışdı. Törətdiyi vəhşiliklərin əvəzində Peterburqdan təşəkkürlər alan Madatov rus ordusunun general-leytenantı rütbəsinə qədər yüksəlmişdi. Öz amansızlığı və qəddarlığı ilə diqqəti cəlb edən V. Q. Madatovu Qafqazın ali baş komandanı A. P. Yermolov Dağıstan və Azərbaycanı işğal edən rus qoşununa başçı təyin etmişdi. Madatov eyni zamanda Qarabağda və ətraf ərazilərdə bir çox torpaqları zorla öz mülkiyyətinə keçirirdi. Belə ki, Mehdiqulu xandan Vərəndə mahalında 5 kəndi və Gorusda 3 kəndi alaraq irsi mülkiyyətinə keçirən Madatov bununla kifayətlənməmiş, Qarabağ xanını öz ərazisini tərk edərək İran tərəfə keçməyə məcbur etmişdi (47, s. 837). O Zaqafqaziyanın müxtəlif ərazilərində yaşayan erməniləri qərəzli məqsədlə Qarabağa köçürür, bu ərazidə xüsusi erməni mərkəzi yaratmağa səy göstərirdi. General V. Q. Madatov 1817-ci ildə Şəkidə yaşayan 400 erməni ailəsini də Qarabağa aparan zaman məhz bu fitnəkar məqsədi güdürdü (48, s. 725-726). Əslində bu erməni ailələri Qacarın Qarabağa hücumu zamanı bu ərazidən Şəkiyə qaçan albanlar idi. Məlumdur ki, VII əsrdə Albaniya ərəblər tərəfindən istila edildikdən sonra 704-cü ildə ermənilərin fitvası ilə ərəb xəlifəsi alban xristian kilsəsini erməni kilsəsinin tabeliyinə keçirdi. Alban ədəbiyyatının nümunələri erməni kilsə başçıları tərəfindən məhv edildi. Yazısı və dini müstəqilliyi məhv edilmiş xristian albanlar içərisində erməniləşmə prosesi sürətləndi. XVIII əsrdə xristian albanların xeyli hissəsi Şəki xanlığına köçdü. Lakin müsəlman əhalisi artıq onları erməni adlandırırdı (114, s. 207).

### § 3. Erməniləri Şəkiyə Cəfərqulu xan gətirmişdi

Şəkidə yaşayan Xoy erməniləri isə Cəfərqulu xan tərəfindən bu əraziyə gətirilmişdi. İrandan üz döndərib Rusiya tərəfinə keçən Xoy hakimi Cəfərqulu xan Şəkiyə özü ilə bərabər 1000 ailə gətirmişdi. Bu ailələrin bir hissəsi xan ailəsinin nökərləri olan ermənilər idi. Əslində Cəfərqulu xan Rusiyadan hələ xeyli əvvəl İrandan Azərbaycana ermənilərin köçürülməsinin təşkilatçıcı olmuşdur. Erməni ailələrinin bir hissəsi şəhər kənarlarında məskunlaşdırılmışdı.

Əkinçilikdə məşğul olan bu erməni ailələri yerli əhalini öz evindən çıxararaq onlara məxsus olan əmlakı mənimsəyir, özbaşınalıqlar törədirdilər. Xanlığın mərkəzinə gətirilən ermənilər isə quldurluq edir, talançılıqla məşğul olur, əhalini soyur və incidirdilər.

Rusiya imperiyası Xoy ermənilərini xanlığın ərazisində saxlamaqda maraqlı idi. Ona görə ki, məhz Rusiya işğaldan dərhal sonra İran və Türkiyədən Qafqaza, o

cümlədən Azərbaycana ermənilərin kütləvi köçürülməsinə və yerləşdirilməsinə başlamışdı. Rusiya İsmayıl xana Xoy ailələrini saxlamaq üçün boş olan torpaqlarda onlara yer ayrılmasını və yerli əhalinin qüvvəsi ilə evlərin tikilməsini tapşırır və bu iş üçün lazım olan bütün şəraitin yaradılmasını isə öz üzərinə götürürdü (49, s. 563).

I Rus-İran müharibəsi başa çatdıqdan sonra bağlanmış sülh müqaviləsinə əsasən müharibə zamanı əsir düşən, yaxud bir ölkənin ərazisindən digərinə keçən əhalinin sərbəst şəkildə öz əvvəlki yaşayış yerinə qayıtması mümkün idi.

Məhz əldə edilmiş razılığa əsasən Abbas Mirzə öz məmuru Lütvəli xanı general N. F. Rtişşevin yanına vaxtilə Cəfərqulu xan tərəfindən aparılan Xoy ailələrini geri qaytarmaq üçün göndərir. General N. F. Rtişşev Lütvəli xanı türk dilini mükəmməl bilən podpolkovnik Ladinski ilə birlikdə Nuxaya göndərir. İsmayıl xana bildirilir ki, xoy ailələrini İrana göndərən zaman heç bir zorakılığa yol verməк olmaz. Yalnız öz xoşu ilə getmək istəyənləri İrana yola salmaq lazımdır. Həmişəlik Rusiya imperiyasının sərhədləri daxilində yaşamaq istəyənlərə isə tam azadlıq verilirdi (80, s. 561-62).

İsmayıl xanın vəfatından sonra Xoy ailələrinin vəziyyəti xeyli pisləşdi. Onların quldurluğu, oğurluğu və həyasızlığından cana gəlmiş yerli əhali hər an xoylulara divan tutmağa hazır idi. Hətta İsmayıl xanın vəfatının ilk günlərində dəhşətli qisasdan qorxan xan ailəsi və yaxın adamları qaladan kənara çıxmır, kişilər çadraya bürünüb gəzirdilər. Rusiya imperiyası da şəhərdə yaşayan və xalqı təngə gətirən xoy ailələrinin ərazidə saxlanmasını artıq məqsədəuyğun hesab etmirdi. Ona görə ki özgə hesabına yaşayan xoylulara nifrət o qədər güclü idi ki, bu xanlıqda böyük çaxnaşmaya və sonu bilinməyən hadisələrə gətirib çıxara bilərdi. Ona görə də xanlığın ləğv edilməsindən dərhal sonra Rusiya Xoy ailələrinin ərazidən çıxarılması işi lə məşğul olmağa başladı. Xan ailəsinin Şəkidən çıxarılması haqqında polkovnik Kiçik ağa ilə aparılan danışıqlarda razılaşma əldə edildi. Rusların xəyanəti burada da özünü göstərdi. Ömrü boyu imperiyaya sədaqətlə qulluq etmiş Cəfərqulu xanın ailəsini əvvəlcə Bakıya, oradan isə Həştərxana sürgün etmək nəzərdə tutulurdu. General mayor Axverdovun 1819-cu avqustun 25-də gen. Velyaminova göndərdiyi məlumatda qeyd edilirdi ki, biz xan ailəsinin Şəkidən çıxarılmasına razılaşdıq. Lakin xan ailəsindən olan polkovnik Kiçik ağa bildirdi ki, Bakı onlar üçün tamamilə yad olan ərazidir. Onlar artıq Qarabağ xanı Mehdiqulu xanın yanına adam göndərərək onun ərazisində yerləşmək üçün razılıq əldə etmişlər (63, s. 743).

Xan ailəsi gedərkən şəhərdəki bütün Xoy ailələrini o cümlədən erməni ailələrini aparmaq niyyətində idi. Lakin qeyd etdiyimiz kimi Rusiya erməni ailələrini saxlamaqda maraqlı idi. "xan ailəsini Bakıya, oradan Həştərxana göndərmək lazımdır, lakin əkinçiliklə məşğul olan 50 xoy ailəsini (erməni ailələri - Z. C.) onlara verməyə heç bir ehtiyac yoxdur. Onlar həmişəlik Şəki əyalətində

yaşamaq arzusundadır və əkinçiliklə məşğul olmaq üçün bu ərazini əlverişli yer hesab edir". (81, s. 748).

Gen.-l. Velyaminov polkovnik Kiçik ağaya bildirdi ki, onlara məxsus olan və şəhərdə yaşayan 50 erməni ailəsini xan ailəsinə vermək mümkün deyil, ona görə ki, onlar gen. Yermolova şikayət edərək artıq xan ailəsinin asılılığında qalmaqdan imtina edir. Rusiya qanunlarına görə isə erməni ailələri azad adamlar hesab edilir və onları başqa yerə getməyə heç kim məcbur edə bilməz (50, s. 761).

Xoy ailələrinin hara göndərilməsi məsələsi bir müddət qızğın müzakirə edildi. Rus imperiyasının məqsədi onları Həştərxana sürgün etmək idi. Lakin Rusiya bu addımın digər xanlıqlarda pis fikir yaradacağından ehtiyat edib xan ailəsini və soyğunçuluqla məşğul olan xoyluları Yelizavetpola və İrana göndərməyi qərara aldı. Bu zaman şəhər kənarlarında yaşayan bütün xoy ailələrinin ərazidə saxlanması məqsədəuyğun hesab edildi. 1819-cu il sentyabrın 30-da 137 xoy ailəsi (cəmi 632 nəfər) polkovnik Zolotaryovun 100 kazak dəstəsinin və İran yasovulunun müşayəti ilə Qarabağa, oradan isə İrana göndərildi (82, s. 757). Xanın ailəsi və qohumları isə oktyabrın 5-də Yelizavetpola yola salındı (36, s. 757).

Şəhərdə olan 50 erməni ailəsi xan ailəsinə verilmədi. Cəfərqulu xanın arvadı Şərəfnisə xanım gen. Velyaminova yazırdı ki, əcdadlarımızdan bizə miras qalan erməni ailələri əlimizdən alınaraq Şəkidə saxlandı (51, s. 764). Şəhərdə saxlanılan bu Xoy ermənilərinin sayı 1824-cü ildə 241 nəfərə çatmışdı. "Şəhərin mərkəzində yaşayan 76 erməni ailəsi Xoy erməniləri idi, yerli əhali onların yaşadığı ərazini ermənikənd adlandırır" (104, v. 1 - 15).

1824-cü ildə Şəki əyalətinin aşağıdakı kəndlərində Cəfərqulu xan tərəfindən gətirilən erməni ailələlərinin sayı belə idi.

***Cədvəl 6 (103)***

| **№** | **Kəndlərin adı** | **Ailə sayı** | **Kişi** | **Qadın** |
|---|---|---|---|---|
| 1. | Axpelikənd | 83 | 278 | 222 |
| 2. | Göybulaq | 134 | 358 | 284 |
| 3. | Cəfərabad | 100 | 216 | 159 |
| 4. | Daşbulaq | 156 | 332 | 298 |
| 5. | Aydınbulaq | 31 | 68 | 43 |
| 6. | Xanabad | 12 | 31 | 17 |
| 7. | Qayabaşı | 40 | | |
| **Cəmi** | | **556** | **1283** | **1023** |

1823-cü ildə Cəfərabad kəndində yaşayan ermənilərin bir hissəsi öz xahişlərinə əsasən Qayabaşı, bir hissəsi isə Daşbulaqda olan boş torpaqlara

köçürülmüşdü (105, v. 3). 1828-ci ildə Şəkidə olan qraf. Morenas yazırdı; Cəfərabad Dəhnədən Nuxaya gedən yolun üstündə yerləşir. "Burada 50 erməni və 40 müsəlman evi vardır. Onun 500 nəfər əhalisi 23 il bundan əvvəl Cəfərqulu xan tərəfindən Xoydan köçürülmüşdür. Hər iki kənddə çoxlu tut bağları var. Cəfərabad bağları geniş, Gürcüstanda gördüyüm bütün bağlardan gözəldir. Geniş bağlarda alma, armud və hər cür meyvə ağacları var. Onların bir çoxunu Cəfərqulu xan Xoydan, hətta Təbrizdən gətirmişdi.

Lakin hər iki kəndin sağlam iqlimi yoxdur. Cəfərabad tamamilə hündür yerdə, dağda yerləşir. Artıq bir çox ermənilər 7 il bundan əvvəl dağdan bir qədər aralı Xoyabbas adlı əraziyə köçmüş, digərləri isə boş olan torpaqlara getmişdilər (27, s. 204).

Şəki mahalında yerləşən ən böyük kəndlərdən biri Vartaşın kəndi idi. Bu kənddə yaşayan udinlər haqqında da Aktlarda maraqlı məlumat var. Məlumdur ki, utilər Qafqaz Albaniyasının qədim etnoslarından biri idi. Eramızın əvvəllərində udin etnonimi adını daşıyan tayfa Albaniyanın şimal-şərqində Xəzər dənizi sahilində yaşayırdı. Erkən orta əsrlərdə udinlər xristianlığı qəbul etmiş, VI-VII əsrlərdə Hunların təzyiqi altında Xəzərin şimal-şərq sahilini tərk edərək Qəbələ mahalına enmişdilər. Dağlıq Qarabağda yaşayan qədim albanlar kimi udinlər də erməni əlifbasından istifadə etmişdilər. Xristianlığın pravoslav məzhəbinə sitayiş edən udinlər içərisində bu dinin yayılmasında XIX əsrin əvvəlində ruslar xüsusi fəallıq göstərmişdilər Aktlarda oxuyuruq: "Şəki mahalında 400 evdən ibarət Vartaşın kəndi var. Burada yaşayan 150 ailə yunan-diofizit təriqətinə inanır. Onların dili nə erməni, nə gürcü, nə də türk dilinə oxşamır. Onlar özlərini uti adlandırır. Zaman dəyişdikdən sonra onların bir neçəsi erməni dini qanunlarını qəbul etmiş, bir hissəsi yəhudiliyə, digər hissəsi isə islama üz tutmuşdular! İndi həmin kənddə 150 yunan-diofizit; 100 erməni qriqoryan, 100 yəhudi və 50 islama sitayiş edən ailə var" (52, s. 397).

Rusiya udinlər arasında xristianlığı geniş yayılmasına, burada kilsə tikilməsinə və dini kitabların eyni zamanda Gürcüstandan din təbliğatçılarının göndarilməsinə xüsusi diqqət yetirirdi (53, s. 401).

Şəki əyalətində ikinci mahal Xaçmaz mahalı idi. Bu mahalda 26 kənd, 2614 ev 11810 nəfər əhali yaşayırdı.

| № | Kəndlər | Ev | Əhali | № | Kəndlər | Ev | Əhali |
|---|---|---|---|---|---|---|---|
| **1** | Xaçmaz | 842 | 3844 | **14** | Syüntin | 32 | 102 |
| **2** | Söyüdlü | 42 | 178 | **15** | Mollalı | 33 | 137 |
| **3** | Böyük Söyüdlü | 128 | 502 | **16** | Qıyaslar | 48 | 218 |
| **4** | Çaylı | 14 | 72 | **17** | Mahmud oba | 6 | 31 |
| **5** | Köçəri Şıxlı sərkər-oğlu | 25 | 119 | **18** | Dəymədərə | 41 | 185 |
| **6** | Padar | 292 | 726 | **19** | Koçəri Şıxlı | 5 | 16 |
| **7** | Kəhriz | 29 | 129 | **20** | Ləzki kəndi | 189 | 1001 |
| **8** | Kərimli | 40 | 196 | **21** | Filfilli Şirvanlı | 44 | 187 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **9** | Köçəri Cəyirli | 33 | 162 | **22** | Tayıflı | 36 | 179 |
| **10** | Tərkeş | 55 | 217 | **23** | Ərmənət | 142 | 680 |
| **11** | Sincan | 31 | 141 | **24** | Haşkyaşin | 19 | 88 |
| **12** | Vardan | 182 | 853 | **25** | Qoruxlar | 144 | 655 |
| **13** | Top | 39 | 180 | **26** | Xalxal | 220 | 987 |

Mahalın ən böyük kəndləri Xaçmaz və Padar idi. Bu mahalda Məhəmmədhəsən xanım zamanında Qarabağ və Şirvandan gələn ailələr tərəfindən yaradılan köç yerləri-köçəri Şıxlı Sərkəroğlu, Köçəri Cəyirli, düşərgələri var idi.

Ləzgi kəndi Filfillidə yaşayanlar isə Xaçmaz mahalına XIX əsrin 70-ci illərində Dağıstanın Doqquzpara mahalından gələrək məskunlaşmışdılar (103, v. 741).

***Cədvəl 8.***

**Ağdaş mahalı**

| № | Kəndlər | Ev | Əhali | № | Kəndlər | Ev | Əhali |
|---|---|---|---|---|---|---|---|
| **1** | Qoşaqovax | 18 | 88 | **18** | Cardam | 44 | 211 |
| **2** | Çüvə | 49 | 218 | **19** | Aral | 8 | 28 |
| **3** | Kürarx | 34 | 124 | **20** | Ağcaqovax | 14 | 52 |
| **4** | Pirnəkə | 39 | 285 | **21** | Ramal | 29 | 128 |
| **5** | Ərəbocaq | 43 | 125 | **22** | Şahlıq | 29 | 128 |
| **6** | Ərəbkükəl | 43 | 165 | **23** | Nəhrəxəlil | 24 | 101 |
| **7** | Qoşun | 25 | 129 | **24** | Böyük İncə | 58 | 246 |
| **8** | Ağcayazı | 82 | 333 | **25** | Pıçaxçı | 37 | 151 |
| **9** | Dəhnəxəlil | 34 | 126 | **26** | Seyrbinə | 13 | 49 |
| **10** | Koluçdu | 104 | 433 | **27** | Məlikhəsən | 14 | 64 |
| **11** | Yengiarx | 26 | 120 | **28** | Abad | 63 | 300 |
| **12** | Şıxlı | 10 | 39 | **29** | Kerpükəndi | 86 | 351 |
| **13** | Zeynəddin | 39 | 186 | **30** | Yenkisə | 7 | 20 |
| **14** | Malay | 23 | 109 | **31** | Mudud | 24 | 108 |
| **15** | Nursal | 94 | 404 | **32** | Qaradeyin | 48 | 233 |
| **16** | Əmirarx | 31 | 145 | **33** | Şıxyurd | 20 | 99 |
| **17** | Kotanarx | 10 | 109 | **34** | Eymur | 64 | 447 |

Əyalətdə üçüncü mahal Ağdaş mahalı idi. Bu mahalda 34 kənd, 1299 ev, 5709 nəfər əhali yaşayırdı.

Xalxal, Körpükəndi, Nursal mahalın ən böyük kəndləri idi.

Dördüncü mahal Padar mahalı idi. Bu mahalda 14 kənd, 703 ev, 3107 nəfər əhali yaşayırdı. Ən böyük kəndləri Qaradağlı, Padar, Ləki idi.

Beşinci mahal Bum mahalı idi. Bu mahalda 20 kənd, 1630 ev və 7510 nəfər əhali yaşayırdı.

*Cədvəl 9.*

**Padar mahalı**

| № | Kəndlər | Ev | Əhali |
|---|---|---|---|
| **1.** | Kükəl | 31 | 117 |
| **2.** | Sədiqorağan | 19 | 96 |
| **3.** | Bulaqotağı | 20 | 155 |
| **4.** | Şəkili | 64 | 310 |
| **5.** | Köçəri Şəkili | 4 | 32 |
| **6.** | Üçqovaq | 50 | 211 |
| **7.** | Qaradağlı Padar | 152 | 624 |
| **8.** | Köçəri binə | 6 | 22 |
| **9.** | Cücük | 33 | 148 |
| **10.** | Ağalı | 28 | 135 |
| **11.** | Ləki | 140 | 604 |
| **12.** | Türkmən | 26 | 146 |
| **13.** | Şordəhnə | 39 | 203 |
| **14.** | Qaradağlı | 85 | 348 |

**Bum mahalı**

| № | Kəndlər | Ev | Əhali |
|---|---|---|---|
| **1.** | Bum | 281 | 1470 |
| **2.** | Həmzəli | 163 | 734 |
| **3.** | Tikannı | 105 | 594 |
| **4.** | Məngliqovaq | 107 | 503 |
| **5.** | Mollalı | 32 | 143 |
| **6.** | Uludaş | 38 | 163 |
| **7.** | Ləzgi kəndi Qazmalar | 34 | 163 |
| **8.** | Çuxurqəbələ | 39 | 184 |
| **9.** | Corlu | 128 | 511 |
| **10.** | Məlikli | 28 | 119 |
| **11.** | Bəyli | 19 | 96 |
| **12.** | Şəfili | 9 | 41 |
| **13.** | Müsüslü | 7 | 26 |
| **14.** | Düzarxlı | 19 | 100 |

| | | | |
|---|---|---|---|
| **15.** | Zirik | 19 | 99 |
| **16.** | Quşlar | 29 | 91 |
| **17.** | Tacık | 33 | 133 |
| **18.** | Sarıhacılı | 18 | 78 |
| **19.** | Mirzəbəyli | 44 | 212 |
| **20.** | Nic | 483 | 1997 |

Bum mahalında olan ləzgi kəndi Qazmaların əsasını Cəfərqulu xanın zamanında Dağıstanın Doqquzpara mahalından gələn ləzgilər qoymuşdular (103, s. 158).

Ərəş mahalında 27 kənd, 1127 ev, 4805 nəfər əhali yaşayırdı. Ən böyük kəndləri Xaldan, Ucar, Qarxun, Bucaq idi.

Alpout mahalında isə 24 kənd, 1073 ev,. 4813 nəfər əhali yaşayırdı. Ən böyük kəndləri Nemətəbad, Xosrov, Alpout, Pirəzə və b. idi.

***Cədvəl 10.***

**Ərəş mahalı** **Alpout mahalı**

| № | Kəndlər | Ev | Əhali | № | Kəndlər | Ev | Əhali |
|---|---|---|---|---|---|---|---|
| **1** | Xaldan | 136 | 599 | **1** | Nemətəbad | 242 | 1037 |
| **2** | Nic | 29 | 114 | **2** | Xalac | 9 | 40 |
| **3** | Kürdəhməd | 14 | 45 | **3** | Qumlaqarasu | 16 | 62 |
| **4** | Ləmbəti | 42 | 156 | **4** | Qarağan şıxlar | 7 | 37 |
| **5** | Şilyan | 14 | 62 | **5** | Qəsil | 61 | 294 |
| **6** | Ocaq | 60 | 271 | **6** | Gürcüabad | 20 | 95 |
| **7** | Mingəçevir | 57 | 249 | **7** | Pirəgih | 30 | 141 |
| **8** | Kəndi Havarı 1-ci hissə | 66 | 290 | **8** | Köçəri Murtuz Əli bəy | 6 | 26 |
| **9** | Havarı kəndi 2-ci hissə | 68 | 288 | **9** | Tayıtlı | 7 | 35 |
| **10** | Hacıalı | 18 | 62 | **10** | Quyukənd | 21 | 76 |
| **11** | Köçgəldi | 29 | 112 | **11** | Əmirmahmud | 15 | 66 |
| **12** | Mirzəoğlu | 17 | 81 | **12** | Xosrov | 45 | 190 |
| **13** | Qarxun | 83 | 383 | **13** | Alpout | 111 | 486 |
| **14** | Bəydilli | 13 | 52 | **14** | Şəmsabad | 34 | 173 |
| **15** | Güləyşə | 46 | 202 | **15** | Çiqni | 35 | 166 |
| **16** | Bucaq | 59 | 235 | **16** | Əlikəndi | 32 | 123 |
| **17** | Böyük | 15 | 60 | **17** | Teyfiqi | 81 | 390 |
| **18** | Əsnaf | 4 | 29 | **18** | Məlikbəyli | 18 | 78 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **19** | Ağşen | 21 | 64 | **19** | Qumlaq-qazi | 88 | 428 |
| **20** | Hacalı | 25 | 89 | **20** | Qaroğlan | 31 | 12 |
| **21** | Qaraoğlan | 22 | 80 | **21** | Kotavan | 46 | 179 |
| **22** | Erməni bazar | 155 | 155 | **22** | Ağzıbir | 27 | 128 |
| **23** | Salamuar | 44 | 190 | **23** | Pirəzə | 73 | 286 |
| **24** | Murarx | 10 | 43 | **24** | Qaxay | 21 | 112 |
| **25** | Köçəri atlı turanlı | 27 | 88 | | | | |
| **26** | Köçəri Cəyirli | 83 | 368 | | | | |
| **27** | Xanabad | 56 | 356 | | | | |

Qutqaşın mahalında isə 33 kənd, 2808 ev, 12939 nəfər əhali yaşayırdı (cədvəl 11).

Bu mahalda yerləşən Bayramlkoxalı, Pirəli, Cocuxlu, Köçəribinə yaşayış yerlərinin əsasını Şirvan və Qarabağdan çıxan ailələr qoymuşdur. Haputlu kəndi 1810-cu ildə Şirvan və Qubadan çıxan ləzgilər tərəfindən yaradılmışdır. Ləzgi kəndləri Mıçıx, Mazıllı və Kyüsnütün əhalisi də XIX əsrin əvvəlində Şəkiyə Qubadan gəlmiş və Qutqaşın mahalını torpaqlarında məskunlaşmışdılar. Sonuncu iki kənd Əhməd sultana sonra isə onun oğlu Balabəy və qardaşı Hacı Nəsrullaya məxsus olmuşdur. Ləzgilər silah, xəncər hazırlayır, meşədən odun gətirir, kömür tədarük edir və b. təsərrüfat işlərini yerinə yetirirdilər (103, v. 481).

***Cədvəl 11.***

**Qutqaşın mahalı**

| № | Kəndlər | Ev | Əhal i | № | Kəndlər | Ev | Əhal i |
|---|---|---|---|---|---|---|---|
| 1 | Qutqaşın | 663 | 3126 | 18 | Köçəri Əhməd atlı | 10 | 58 |
| 2 | Vəndam | 445 | 2165 | 19 | Bılıx | 29 | 136 |
| 3 | Vəng | 65 | 313 | 20 | Kiçik Əmili | 15 | 52 |
| 4 | Əmirvan | 48 | 244 | 21 | Zalam | 23 | 76 |
| 5 | Məmmədağalı | 37 | 260 | 22 | Böyük Əmili | 56 | 229 |
| 6 | Haputlu | 218 | 1031 | 23 | Bayramkoxalı | 27 | 110 |
| 7 | Şirvandançıxan ləzgilər | 8 | 44 | 24 | Tövlə | 36 | 167 |
| 8 | Qubadan çıxan ləzgiləri= | 6 | 31 | 25 | Nuxa | 150 | 617 |
| 9 | Köçəri Məlikli | 26 | 147 | 26 | Zarağan | 129 | 586 |
| 10 | Xınalıq ləzgiləri | 8 | 36 | 27 | Aydınqışlaq | 72 | 308 |
| 11 | Bəylər | 109 | 492 | 28 | Piralı | 34 | 161 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 12 | Kirdadur | 79 | 361 | 29 | Пирəли Cocuxlu | 35 | 141 |
| 13 | Sırt Yengicə | 18 | 96 | 30 | Köçəri Binə | 16 | 78 |
| 14 | Mollaçıxalı | 19 | 78 | 31 | Ləzgi kəndi Mıçıx | 25 | 136 |
| 15 | Kürdyengicə | 38 | 161 | 32 | Ləzgi kəndi Mazıllı | 24 | 120 |
| 16 | Topbağı | 10 | 45 | 33 | Ləzgi kəndi Kyusnut | 53 | 254 |
| 17 | Sabur | 14 | 51 | | | | |

XIX yüzilliyin əvvələrində Rusiya işğal edilmiş ərazilərə rus təriqətçilərinin və bidətçilərinin köçürülməsinə xüsusi diqqət yetirirdi. Rus təriqətçilərinin və bidətçilərinin Cənubi Qafqaz vilayətlərinə köçürülməsi haqqında ilk hökumət sərəncamı 1830-cu il oktyabrın 2-də verilmişdi. Şimali Azərbaycanda ilk rus məskənləri 1830-cu illərin əvvəllərində yarandı. XIX əsrin 30-40-cı illərində bu iş xeyli sürətləndi. 1843-cü ildə Şəki qəzasına 78, 1844-cü ildə isə 63 nəfər rus təriqətçisi köçürülmüşdü (7, s. 285).

1855-ci il yanvarın 1-nə qədər Zaqafqaziyaya köçürülən 3324 ailənin 3227-ci 50 kənddə, 297 ailə isə Tiflis, Şamaxı, Lənkəran, Nuxa və İrəvan şəhərlərində məskunlaşırılmışdı. Köçürülənlər içərisində malakanlar daha çoxluq təşkil edirdi (92290 ailə), duxoborlar (772 ailə), subbotniklər (417) ailə, staroobryadçılar (45 ailə) (31, s. 109).

Şimal-qərbi Azərbaycana köçürülən rus təriqətçiləri nisbətən azlıq təşkil edirdi. XIX əsrin I yarısında Qafqazda ipəkçiliyi yayan cəmiyyətin xətti ilə Şəkiyə 100, Car-Balakənə 164 nəfər rus təriqətçisi köçürülmüşdü (18, s. 286, 17, s. 842).

Şəki əyalətinin ictimai tərkibi haqqında məlumat olduqca azdır. 1824-cü il məlumatına görə əyalətdə ailə üzvləri də daxil olmaqla 1551 nəfər bəy, o cümlədən türk: kişi 197, qadın 703, erməni kişi 170, qadın 145, yəhudi kişi 35, qadın 30, 2582 nəfər müsəlman ruhanisi, 315 xristian din xadimi 3384 maaf yaşayırdı (83, səh. 781).

## § 4. Əhalinin sosial strukturu

XIX əsrin əvvəlində şimal-qərbi Azərbaycanda yaşayan əhalinin sosial tərkibi hakim təbəqə, aşağı təbəqə və üçüncü zümrəyə ayrılırdı. Hakim təbəqə - xan, bəy, ağa, sultan, aşağı təbəqə kəndlilərin müxtəlif kateqoriyaları (rəiyyət, rəncbər, elat və b.) ilə təmsil olunurdu. Üçüncü zümrənin tərkibinə isə tacir və sənətkarlar daxil idi.

Xanlıqlar zamanında hakim təbəqə içərisində başlıca yeri xan tuturdu. Xanın hakimiyyəti heç bir şeylə məhdudlaşdırılmırdı. Xan qanun vermək, onu icra etmək eyni zamanda möhkəmə hüququna malik idi.

Xan ölüm hökmü verə bilər və ya ölüm hökmü verilmiş adamı bağışlaya bilərdi.

Şəki əyalətində bəy adı əhalinin ən yüksək təbəqəsini təşkil edən adamlara şamil edilirdi. Bəylər öz dərəcələrinə, hüquq və vəzifələrinə görə, eyni zamanda tutduğu mövqeyə görə müxtəlif qruplara bölünürdü. Bəy adı ilk növbədə xanın övladlarına və yaxın qohumlarına aid edilirdi. Xalq arasında onlar Böyük bəy, Kiçik bəy, Böyük xan və s. kimi adlarla tanınırdı.

İkinci qrup bəylər Şəki xanlarından asılı vəziyyətə düşən Ərəş və Qəbələ sultanları, eyni zamanda onların nəsilləri idi. Xanlıqlar zamanı onlar xalqın içərisində çox böyük hörmət və nüfuz sahibləri hesab olunurdu. Onlar cəza vermək, cərimə etmək hüququna malik idilər və bir qayda olaraq mahallardan gələn gəlir hesabına yaşayırdılar. Öz hərəkətləri haqqında çox nadir hallarda xana hesabat verirdilər. sultanların hüquq və vəzifələri digər bəylərlə, eyni idi. Lakin onlar yığıncaqlar zamanı başqa bəylərdən fərqli olaraq qabaq cərgədə oturur və xan ən mühüm tapşırıqları əsasən onlara verirdi. sultan rütbəsi yəlnız xanın icazəsi və razılığı əsasında irsi olaraq atadan oğula keçə bilərdi. Qəbələ və Ərəş sultanları ata-babalarından onlara miras qalan torpaqları yalnız xan tərəfindən təsdiq edildikdən sonra idarə edirdilər. Xan bəzən bir sıra nüfuzlu bəyləri sultan rütbəsinə qaldırırdı.

Məliklər bəylərin digər qrupuna daxil idi. Ərəş mahalında onların idarəçiliyində bir neçə kənd olmasına baxmayaraq əyalətdə çox böyük üstünlüyə malik deyildi. Onlar həmişə sultan və mahalları idarə edən bəylərdən asılı olub müstəqil göstəriş vermək hüququnda məhrum idi. Məliklərin başlıca vəzifəsi xan tərəfindən müəyyən edilmiş vergi və mükəlləfiyyətlərin vaxtlı-vaxtında yerinə yetirilməsinə nəzarət etmək idi.

Əz mülkiyyətində müəyyən torpaq sahələri olan mülkədar bəylər və tiyuldar bəylər də var idi. Bu qrupa daxil olan bəylər xüsusi xidmət müqabilində xandan bəy adı alır və çox zaman xalq içərisində böyük nüfuz və hörmət qazanırdı. Bəzən xan maafları bəy rütbəsinə qaldırırdı. Nəhayət, elə hallar da olurdu ki, quldurluq və digər qorxulu əməllərlə məşğul olan adamları xan bəy kimi tanımaq məcburiyyətində qalırdı.

Dərəcəsindən asılı olmayaraq bəy adını daşıyanlar talikə adlanan xüsusi fərmana sahib olmalı idi. Bəylər bütün vergi və mügəlləfiyyətlərdən azad olub, xəzinədən aldıqları məvacib, yaxud idarə etdikləri ərazilərdən gələn gəlir hesabına yaşayırdılar. Bəzən xan xüsusi xidməti müqabilində bəylərə bütöv kəndlər bağışlayırdı. Bəylər eyni zamanda xana vergi vermədən ticarət və digər işlərlə məşğul ola bilərdilər. Onların ən mühüm vəzifəsi xana sədaqətlə qulluq etmək idi (84, s. 430, 432).

İlisu sultanlığında da bəy adı birmənalı deyildi. Burada bəylər 3 qrupa bölünürdü. Sultanlıqda bəy adı ilk növbədə sultan ailəsinin üzvülərinə aid edilirdi. Adətən sultanın əsil-nəcabətli arvadından olan oğlu bəy adını daşımaq hüququna malik idi.

İkinci qrup bəylər sultana göstərdiyi xidmət müqabilində bu adı qazanırdı və öz adlarını irsi olaraq nəsildən-nəslə ötürürdü. Hər iki qrupa daxil olan bəylər

sultandan Keşkəl kəndlərində mülk, yaxud keşkəl sahəsi alırdı və mülkiyyətin irsi sahibi hesab olunurdu.

Üçüncü qrup bəylər mənşə etibarilə bəy nəslindən olmayıb, bu adı şəxsi xidməti müqabilində qazanan adamlar idi. Onların bəy adı irsi deyildi. Bəzən sultanlıqda bütün kəndlərə sahiblik edən bəylər olurdu. Belə ki, XIX əsrin I rübündə Fıstıqlıda 40 ev Hacı ağa bəyə, Amanlı və Qeysərli də 31 ev Əlisultanuşağına məxsus idi.

**Bütün Şəki əyaləti üzrə**

| Mahalların adı | Kəndlər | Türk ailələri | Erməni ailələri | Yəhudi ailələri | Türklər | | Erməni | | gürcü | | Yəhudi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | kişi | qadın | Kiş | Qad | Kiş | Qad | Qad | Kiş |
| 1.Şəki | 89 | 5525 | 1567 | 221 | 13349 | 11780 | 3715 | 3199 | 368 | 338 | 539 | 509 |
| 2.Ərəş | 27 | 928 | 199 | - | 2058 | 1861 | 446 | 440 | - | - | - | - |
| 3.Ağdaş | 34 | 1299 | - | - | 2934 | 2775 | - | - | - | - | - | - |
| 4.Adar | 14 | 703 | - | - | 1646 | 1461 | - | - | - | - | - | - |
| 5.Apout | 24 | 1039 | 34 | - | 2430 | 2216 | 89 | 78 | - | - | - | - |
| 6.Qutqaşen | 38 | 2349 | 459 | - | 5840 | 5001 | 1132 | 966 | - | - | - | - |
| 7.Xaçmaz | 26 | 2303 | 311 | - | 5630 | 4903 | 628 | 649 | - | - | - | - |
| 8.Bum | 20 | 1047 | 583 | - | 2694 | 2399 | 1301 | 111 | - | - | - | - |

5-dən 12-dək olan cədvəllər 1824-cü il Şəki əyalətinin siyahıya alınmasına əsasən tərtib edilmişdir (103).

Sultan ayrı-ayrı keşkəldən gələn gəliri öz bəylərinin hətta nökərlərinin müvəqqəti istifadəsinə verirdi.

Bəylərə məxsus olan kəndlərdə yaşayan kəndlilər onlara vergi verir və müəyyən mükəlləfiyyətlər daşıyırdılar. Bəylərə bayram şənlikləri zamanı "bəxşiş" aparılması adəti də var idi. Digər tərəfdən kəndlilər keç zamanı öz atlarını və adamlarını bəylərin ixtiyarına verməli idi.

Xanlıqların ləğvindən sonra şimal-qərbi Azərbaycanda da xan ailəsi üzvlərinin, o, cümlədən bəylərin bir çoxu mülkiyyət hüququndan məhrum edildi. Müstəmləkə əsarətinə qarşı çevrilən azadlıq mübarizəsinin başında dayanan hakim sinfin nümayəndələrinin bir qismi təqiblərdən baş götürüb öz vətənlərini tərk etmək məcburiyyətində qaldı.

Əhalinin sosial-tərkibində maaflar mühüm yer tuturdu. Xanlıqlar zamanında maaflar müəyyən xidmət müqabilində vergi və mükəlləfiyyətdən azad edilmiş adamlar idi. Onlar müharibələr zamanı öz atları və silahları ilə xan qoşununun tərkibində hərbi əməliyyatlarda iştirak etməli, polis funksiyasını daşımalı, yerli

rəislərin göstərişlərinə əməl etməli idi. Maaflıq hüququ xandan xüsusi xidmət müqabilində alınırdı. Bəzən xan bu adı ayrı-ayrı adamlara nüfuzlu bəylərin xahişinə əsasən verirdi. Elə hallara da təsadüf olunurdu ki, bəzi maaflar feodalların qəzəbinə gələrək bütün hüquqlarından məhrum edilərək vergi və mükəlləfiyyətləri ödəyən kəndlilərin sırasına qayıtmalı olurdu. Şəkidə xan üsul-idarəsinin ləğvi ilə əlaqədar onların vəzifələri də dayandırıldı. Kameral siyahıya almalarda çinovniklər adı ilə qeyd olunan bu zümrə yenə də əvvəlki kimi vergi və mükəlləfiyyətlərdən azad edilməsinə baxmayaraq uzun müddət maaflar heç bir xidmətə göndərilməmişdi. Yalnız 1834-cü ildə Varşavaya göndərilmək üçün müsəlman atlı polku təşkil edilən zaman maafların bir hissəsi yerli əhali ilə birlikdə bu polkun tərkibinə daxil edilmişdi. Onlar yaşadıqları mahallar tərəfindən silah, at, geyim və sursatla təchiz olunmalı idi. 1837-ci ildə isə Şəki əyalətindən 200 maaf Quba üsyanını yatırmaq üçün göndərilmiş, 1839-cu ildə 94 maaf Dağıstan sərhəddinə gözətçiliyə təyin edilmişdi (64, s. 197). Azərbaycanın digər ərazilərində olduğu kimi şimal-qərbi Azərbaycanda da XIX yüzilliyin birinci yarıcında kəndlilər 3 kateqoriyaya bölünürdü.

1. Rəiyyətlər;
2. Rəncbərlər;
3. Köçəri kəndlilər (elat).

Rəiyyətlər istifadə etdikləri torpağın müqabilində öz sahiblərinə vergi verir və müəyyən mükəlləfiyyətlər daşıyırdılar.

Xanlıqlar dövründə şəxsi təsərrüfata malik olmayan rəncbərlər dövlətə vergi verməkdən azad idi. Şəki əyalətində rəncbərlər adətən başqa xanlıqların ərazisindən qaçan kəndlilər idi. Bu kəndlilər bəylərin, ruhanilərin, yüzbaşıların himayəsinə sığınırdı. Onlar da rəncbərlər üçün ev tikir, onları evləndirir, təsərrüfat fəaliyyəti üçün lazım olan hər şeyi edirdilər. Rəncbərlər yerləşdikləri torpağın sahibinə hər cür xidmət göstərməyə borclu idi. Lakin rəncbərlər yerləşdikləri torpaqdan tamamilə asılı vəziyyətə düşmürdü. Onlar öz ağalarından narazı qaldıqda başqa əraziyə qaça bilərdi. Ağanın qaçan kəndlini ez yanına qaytarmaq hüququ yox idi.

Bəzən xanlar öz yaxın adamlarına xəzinə torpaqlarında yerləşmək üçün bir neçə ailəyə torpaqla yanaşı rəncbərlərin özlərini də hədiyyə edirdilər. Şəki əyalətində elə hallara da təsadüf olunurdu ki, kasıbçılığa düşmüş rəiyyətlərdən bir neçəsi öz xüsusi əmlakını güclü bəylərdən kiməsə satır və özləri də onların rəncbərinə çevrilirdi.

Şəki əyalətində yalnız bəylərin deyil, ruhanilərin, yüzbaşıların, həmçinin Nuxa vətəndaşlarının da kəndliləri olurdu. Bəylərin öz kəndlilərini satmaq, girov qoymaq və başqasına bağışlamaq hüququ yox idi (120, s. 109).

Şəki əyalətində rəiyyət və rəncbərlərdən başqa ayrı-ayrı bəylərə məxsus köçəri kəndlilər də var idi.

Car-Balakən camaatlığında kəndlinin torpaqdan asılılığının, xüsusi forması mövcud idi. Bu forma mənbələrdə keşkəl hüququ adlanırdı. Əslində keşkəlin 3 sahibi var idi. Onun hüquqi sahibi bütün torpağın əsil sahibi olan avar icması hesab olunurdu. Keşkəlin digər sahibi varlı toxumun nümayəndəsi, üçüncü sahibi onu becərən kəndli idi. Keşkəl sahibləri hüquqi cəhətdən azad adamlar hesab olunurdu. Adətən keşkəl sahibindən kəndli yox, onun keşkəli asılı idi. Keşkəl satıla və ya birindən digərinə verilə bilərdi. Bu halda keşkəlin yeni sahibi keşkəl mükəlləfiyyətlərini bütünlüklə öz üzərinə götürürdü. Keşkəl kəndliləri pulla öz keşkəlinin sahibi ilə razılaşma əsasında ala bilərdi. Lakin keşkəl kəndliləri çox nadir hallarda bu hüquqdan istifadə edə bilərdi.

1869-cu ildə çar hökuməti tərəfindən yaradılan Zaqatala silki-torpaq islahatı komissiyası keşkəl hüququnun xarakterini və mahiyyətini aydınlaşdırmağa cəhd göstərmişdi. Komissiyanın rəyinə əsasən keşkəl torpaqları kəndlilər üçün əlverişli və dəqiq müəyyən edilmiş şərtlərlə onların daimi icarəsinə verilirdi. Doğrudur keşkəl sahibləri hüquqi cəhətdən təhkimli deyildi, lakin azad adamlar da hesab edilmirdi.

Əhalinin sosial strukturunda "üçüncü zümrə" nümayəndələri hesab olunan tacirlər və sənətkarların da xüsusi yeri var idi. Şəki əyalətində tacirlər öz kapitalına görə üç qrupa bölünürdü. Birinci qrupa daxil olan tacirlər əsasən iri tacirlər idi. Onlar Rusiya və İranla ticarət edir, xəzinəyə pul və mustamira adlanan taxıl vergisi ödəyirdilər. Bu tacirlər əsasən taxıl və ipək ticarəti ilə məşğul olurdular.

İkinci qrup tacirlər xəzinəyə pul vergisi verir və mustamira adlanan taxıl vergisi ödəyirdilər. Digər əyalətlərlə ticarət aparan bu tacirlərin sayı o qədər də çoxluq təşkil etmirdi.

Üçüncü qrup tacirlər əyalətin özündə ticarətlə məşğul olan adamlar idi. Onlar Nuxa tacirlərindən müxtəlif mallar alır və satırdılar.

Nəhayət, xırda ticarətlə məşğul olan alverçilər və sənətkarlar da var idi. 1824-cü il məlumatına görə şəhərdə 503 nəfər birinci, 389 nəfər ikinci, 138 nəfər üçüncü dərəcəli tacir, 4141 nəfər xırda alverçi və sənətkar var idi (117, 48).

Şəki əyalətindən fərqli olaraq Car-Balakən hərbi dairəsində ticarət o qədər də mənfəət gətirən sahə hesab olunmurdu. Əsas ticarət mərkəzi Zaqatala dairəsi və yaxud Tiflis hesab olunurdu. Alıcılar əsasən ermənilər idi. Onlar malı aşağı qiymətə alır, sonra isə digər ərazidən olan tacirlərə baha qiymətə satırdılar. Car-Balakən və İlisudan ixrac edilən məhsullar içərisində ipək və mum üstünlük təşkil edirdi. Yerli əhali daha çox at ləvazimatı, tikili paltar, yun və pambıq parça, silah, çüvək (başmaq), mis qab-qacaq, papaq və s. alırdılar.

XIX əsrin I yarısında Şəkidə sənətkarlığın demək olar bütün sahələri geniş ingişaf etmişdi. Şəki sənətkarlarının hazırladığı məhsullar nəinki əyalətdə satılır, eyni zamanda Bakı, Quba, Qarabağ və digər ərazilərə aparılırdı. Çox inkişaf etmiş sənətkarlıq sahələri boyaqçılıq, misgərlik, zərgərlik, dabbaqlıq, qalayçılıq və b. idi.

1846-cı ilin birinci yarısında Şəkidə sənətkar birliklərində çalışanların sayı aşağıdakı kimi idi:

| | **Ustaların sayı** | **Fəhlələrin sayı** |
|---|---|---|
| Başmaqçılar | 200 | 257 |
| Papaqçılar | 35 | 90 |
| Dərzilər | 140 | 280 |
| Yəhərqayıranlar | 22 | 10 |
| Zərgərlər | 10 | - |
| Silahqayıranlar | 1 | - |
| Çilingərlər | 4 | 4 |
| Dəmirçilər | 30 | 30 |
| Misgərlik | 2 | 4 |
| Xarratlar | 45 | 30 |
| Qayayçılar | 5 | 50 |

(119, s. 329).

Car-Balakən və İlisu ərazisində sənətkarlığın inkişaf edən sahələri əsasən çəkməçilik, sərraclıq, dəmirçilik, misgərlik idi.

| **İllər** | **1858** | **1859** | **1860** | **862** |
|---|---|---|---|---|
| Sənətlər | | | | |
| Çörəkçilər | 22 | 28 | 31 | 30 |
| Qəssablar | 13 | 12 | 11 | 10 |
| Dərzilər | 94 | 75 | 8 | 85 |
| Çəkməçilər | 66 | 69 | - | - |
| Papaqçılar | 35 | 32 | 26 | 35 |
| Başmaqçılar | - | - | - | 58 |
| Sərraclar | 25 | 22 | - | 17 |
| Yerbelləyənlər | 25 | - | 6 | 6 |
| Dəmirçilər | 22 | - | - | 14 |
| Misgərlər | 28 | 18 | - | 14 |

(129, s. 39).

Şəki əyalətindən fərqli olarq Car-Balakən və İlisu ərazisində sənətkarlıq məhsullarının böyük hissəsi kustar üsulla evlərdə hazırlanırdı. Kətandan hazırlanan kisələr, sıx mahuddan hazırlanan paltarların az bir hissəsi satılırdı. Qalan hissəsi dağıstanlıların gətirdiyi qoyuna, yuna, yapıncıya, barıt və tüfəngə dəyişdirilirdi. Gürcüstanda isə bu malları adətən duz və dəmirə dəyişirdilər.

Şimal-qərbi Azərbaycanda yaşayan əhalinin başlıca məşğuliyyəti əkinçilik, ipəkçilik və heyvandarlıq idi. Bununla yanaşı üzümçülük də geniş yayılmışdı.

Şəkidə xanlıqlar zamanı alınan bir çox vergilər komendant üsul idarəsi zamanında da saxlanırdı. Vergilərin geniş yayılmış növü malcəhət idi. Məhsulun onda bir hissəsi şəklində alınan bu vergi ilə yanaşı darğalıq, bayramlıq, qapan pulu, bağbaşı və s. adda vergilər də var idi.

Car-Balakən və İlisuda əsas vergi keşkəl vergisi hesab olunurdu. Bu vergi əsasən natura ilə alınırdı. Keşkəl vergisi müəyyənləşdirilərkən torpağın münbitliyi daha çox nəzərə alınırdı. Bu vergi bir qayda olaraq taxıl, buğda, arpa, bəzi hallarda isə darı və çəltiklə ödənirdi. XVIII əsrin sonuna qədər keşkəl vergisi o qədər də böyük deyildi və uzun müddət onun həcmi dəyişməz qalmışdı. Rusiya tərəfindən ərazinin işğal edilməsindən sonra bu vergi xeyli artırılmışdı. Məsələn ən böyük kəndlərdən biri olan Əliabadda hər keşkəl sahəsindən alınan vergi 20 çanaxdan 5 tağara, Çobankolda 10 çanaxdan 3 tağara, Qarabaldırda 2 çanaxdan, Lələlidə 3 çanaxdan 8 tağara qədər artırılmışdı. XIX əsrin I yarısında Car-Balakən hərbi dairəsində yığılan keşkəl vergisinin həcmi ayrı-ayrı kəndlərdə müxtəlif idi. Əksər hallarda keşkəl vergisi yığılan məhsulun 30%-ni, bəzi hallarda isə 40%-ni təşkil edirdi.

Car-Balakən dairəsində əhalidən alınan verginin bir hissəsi də evdə toxunmuş kətandan alınan vergi idi. Əvvəl-lər bu vergi hər keşkəl sahəsindən alınan verginin bir payına bərabər idi, lakin sonralar onun da həcmi artmağa başladı. XIX əsrin əvvəllərində bu verginin alınmasına çox da təsadüf edilmirdi. Bu əmtəə dövriyyəsi ilə əlaqədar idi. Belə ki, digər ərazilərdən gətirilən pambıq parçalar yerli kustar istehsalını sıxışdırıb aradan çıxarırdı. Lakin kətan istehsalına görə alınan verginin sıradan çıxması keşkəl vergisinin artırılması ilə müşayət olunurdu.

İlisu sultanlığında ipəyin boyanmasından və sarınmasından və Alazan keçidlərindən alınan vergilər də var idi.

Car-Balakən və İlisu sultanlığında keşkəl sahibləri kədliləri öz təsərrüfatlarında biyara işlətməsələr də bəzən onlara bir sıra ağır işlər gördürürdülər ki, bu işlər də öz mahiyyəti etibarilə ilə biyarı xatırladırdı. Kəndlilər öz ağaları üçün dağdan odun gətirir, tikinti işləri üçün müxtəlif meşə materialları daşıyır, avarların yay və qış otlaqlarına köçü zamanı onların əşyalarını daşıyırdı.

Mükəlləfiyyətlər içərisində keşkəl sahiblərinin bayram şənlikləri zamanı bəxşiş verməsi xüsusi yer tuturdu. İli suda kəndlilər sultana bayram günündə və ailə şənliklərin "könüllü bəxşiş"-tut arağı, fındıq, sirkə verməli idilər. XIX əsrdə bu "bəxşişin" ölçüsü xeyli artırılırdı. Rusiya işğalı dövründə bu pay, at, mal-qara, hərdən 30 manat və daha artıq pulla alınırdı. Məhsul yığımı zamanı kəndli keşkəl sahibinə kömək etməli idi. Başlanğıcda bu kömək xarakteri daşısa da əslində ən ağır mükəlləfiyyət idi.

# III FƏSİL

XIX yüzilliyin əvvəllərində Azərbaycanın şimal-qərb ərazisi çarizmin müstəmləkə əsarətinə qarşı çevrilmiş azadlıq mübarizəsinin ən güclü mərkəzlərindən biri idi. Hələ birinci rus-İran müharibəsinin qızğın çağında, işğalın başa çatmadığı bir vaxtda xalqın yadelli əsarətinə qarşı apardığı qəhrəmanlıq mübarizəsi tariximizin şanlı sahifələrindən birini təşkil edir. İşğalın ilk günündən bu ərazidə yadelli ağalığına qarşı güclü müqavimət göstərilmişdi. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında toplanan mühüm sənədlər bunu bir daha təsdiq edir.

1803-cü ildə rus qoşunları Car-Balakənə soxulduğu ilk gündən güclü müqavimətlə qarşılaşdı. Məhz xalqın qəhrəmanlıq mübarizəsi, igidliyi, düşmənə göstərdiyi güclü müqavimət ərazinin bütünlüklə işğal edilməsinə mane oldu. 1830-cu ilədək Car-Balakən daxili idarəçilik qaydalarını qoruyub saxladı. Rus ordusu özünün ən yaxşı generallarını məhz Car döyüşlərində itirdi, Car-Balakən əhalisinin dağlı tayfaları ilə birlikdə apardığı qəhrəmanlıq mübarizəsi Qafqaz xalqlarının ümumi düşmənə qarşı azadlıq mübarizəsinin həmrəyliyinə çevrildi. Güclü düşmən qarşısında geri çəkilməyən Azərbaycan oğulları işğalçıları dəfələrlə ağır məğlubiyyətə uğratdı. Məhz bu güclü müqavimət öz nəticəsini verdi. İşağalçı rus qoşunları Azərbaycanın içərilərinə bu ərazidən soxula bilmədi. Digər tərəfdən rus imperiyasının dağlı tayfalarının azadlıq mübarizəsinə arxadan zərbə vurmaq planları boşa çıxdı.

1805-ci ildə Şəki xanlığının Rusiya imperiyacına birləşdirildiyi ilk gündən düşmən qüvvələrinə qarşı qeyri-bərabər döyüş başladı. Amansız düşmənlə apardığı mübarizədə minlərlə həmvətənimiz şəhid oldu. Mülkiyyəti əlindən alınan, qüruru, şərəf və ləyaqəti təhqir olunan el oğullarının son damla qanınadək apardığı mübarizə inadlı və mətin idi. Düşmən fitnəsi, hiyləsi qarşısında sarsılmayan el oğulları ölümü hər şeydən üstün tutur, sürgünlər və həbsxanalar onları müqəddəs əməllərindən ayırmırdı. İmperiya əsarəti ilə barışmaq istəməyən qəhrəman oğullar öz vətənlərini tərk etmək məcburiyyətində qalırdı, lakin bununla belə öz mübarizələrini bir an da olsun dayandırmırdılar.

Hələ 1806-cı ildə xəyanətlə barışmaq istəməyən Səlim xan rus qoşunları üzərinə hərəkət edərək onlardan bir neçəsini öldürmüş, Tiflis alayının 2 rotasını şəhərdən qovmuşdu. Güclü düşmənə qarşı təkbətək mübarizəyə qalxan Səlim xanın şücaəti işğalçılara bir daha göstərdi ki, bu el oğulları namus, el qeyrətini hər şeydən üstün tutur. Heç bir firavan həyat, xan titulu onları müqəddəs əməllərdən - işğalçılara qarşı mübarizədən uzaqlaşdıra bilməz.

Xoylu Cəfərqulu xanın Şəkiyə hakim təyin edilməsi yerli əhalinin narazılığını daha da artırdı. Cəfərqulu xan Rusiyanın müstəmləkəçilik siyasətini can-başla həyata keçirir, bu məqsədlə xalqı çapıb talamaqla kifayətlənmir, eyni zamanda onu təhqir edir və alçaldırdı. Cəfərqulu xanın Şəkiyə xan təyin edilməsi

yerli əhalinin kəskin müqaviməti ilə qarşılandı.1807-ci il yanvarın 5-də Şəki əhalisi bu təyinata etiraz əlaməti olaraq bir neçə Rusiya əsgərini öldürdü. Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Qudoviç general-mayor Nebolsinə əhalini tərksilah etməyi, ən cüzi narazılıqları ciddi cəzalandırmağı tapşırdı. Şəhər əhalisinin silahlı çıxışından ehtiyat edən rus komandanlığı Cəfərqulu xanı ciddi mühafizə altında Şəkiyə gətirdi, onun təhlükəsizliyi üçün bütün tədbirlər görüldü. Xanın hakimiyyətini tanımaq istəməyənlər isə dərhal həbs edildi (37, s. 275).

Yerli əhalini daim qorxu içərisində saxlamaq üçün Cəfərqulu xan öz adamlarından 500 nəfərlik qoşun saxlayırdı. Görülən bütün tədbirlərə baxmayaraq azadlıq mübarizəsini bir an da olsun dayandırmaq mümkün deyildi. Rusiya işğalına qarşı ən böyük və birinci üsyan Göynükdə başladı.

## § 1. 1807-ci il Göynük üsyanı

XIX yüzilliyin əvvəllərində xalq azadlıq mübarizəsinin ən şanlı səhifələrindən biri Şəkinin Baş Göynük kəndində yazılmışdı. Baş Göynük Şəki xanlığının ən böyük mahallarından biri idi. 1824-cü il siyahıya alınmasına görə burada 3433 nəfər əhali yaşayırdı. Şimali Qafqaza gedən dağ cığırları bu kəndin ərazisindən keçirdi. Ona görə də başlanan üsyan işğalçıları vahiməyə salmış, onları dərhal ciddi tədbirlər görməyə məcbur etmişdi. Şəkidə yerləşdirilmiş Kabardin - muşketyor polkunun mayoru Qrekovun Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Qudoviçə göndərdiyi 48 №-li raportda bu üsyan haqqında maraqlı məlumat var (65, s. 279).

Üsyan 1807-ci il aprelin 28-də başladı. Baş Göynük və Aşağı Göynük kəndlərini əhatə edən üsyan qısa müddətdə yaxınlıqdakı Burs kəndinə yayıldı. Üsyana Baş Göynük kənd sakini sultan Murad başçılıq edirdi. Göynük əhalisi bütünlüklə yaşayış yerini tərk edərək Burs kəndi yaxınlığındakı dərədə düşərgə yaratdı. Üsyançılar Şəki xanı Cəfərqulu xanın göstərişlərinə tabe olmaqdan boyun qaçırdı. Bu əslində Rusiya hakimiyyətini tanımaqdan imtina etmək idi.

Üsyanın getdikcə genişlənməsi və digər ərazilərə yayılması təhlükəsi gündən-günə artırdı. Üsyançılar Şirvan xanı Mustafa xanla da əlaqə yaratdılar. Şirvan xanı üsyançılara möhkəm dayanmağı və Cəfərqulu xana tabe olmamağa çağırdı.

Əvəzində isə o yaxın vaxtlarda üsyançılara hərbi qüvvə ilə yardım edəcəyini vəd etdi.

Üsyanın getdikcə genişlənməsi qorxusu işğalçıları öz qüvvələrini səfərbərliyə almağa vadar etdi. Mayor Qrekov özü ilə 100 nəfər əsgər və hərbi sursat götürərək üsyançıların üzərinə yeridi. Cəfərqulu xanla İlisu sultanının 1000 nəfərlik birləşmiş hərbi qüvvələri onlara qoşuldu. Üsyançılarla birləşmiş qüvvələr arasında qanlı döyüş başladı. Qeyri-bərabər döyüşdə güclü müqavimətlə üzləşən rus işğalçıları toplardan istifadə edərək üsyançılar arasında çaxnaşma yaratdılar.

Top atəşi üsyançıların sıralarını dağıtdı. Pərakəndə düşən əhali dağlara çəkildi. Üsyançılar möhkəm dayanaraq Mustafa xandan vəd olunan köməyi gözləyirdi. Lakin gözlənilən köməyi almaq mümkün olmadı. 3 gün davam edən şiddətli döyüşdən sonra qüvvələri tükənən üsyançılar təslim oldu. Üsyan başçısı sultan Murad öz ailəsi ilə birlikdə dağlara qaçdı və yalnız bir neçə gündən sonra çətinliklə ələ keçirildi. Üsyan yatırıldıqdan sonra kənd əhalisi öz yaşayış yerinə qaytarıldı və rus qoşunlarının təzyiqi altında Cəfərqulu xana, Rusiya taxt-tacına sadiq qalacaqlarına and içdi. Sultan Murad isə Şəkiyə gətirilərək qalaya salındı. Sonralar sultan Murad öz igidliyi sayəsində qaladan qaçmış, Cara gedərək bu ərazidə müstəmləkə əsarətinə qarşı mübarizəni davam etdirmişdi (22, s. 543-544).

1807-ci il Göynük üsyanının yatırılmasına baxmayaraq onun böyük tarixi əhəmiyyəti var idi. Bu üsyandan sonra azadlıq mübarizəsi yeni qüvvə ilə genişləndi. Üsyan xalqın işğalçılara qarşı apardığı qəhrəmanlıq mübarizəsinin şanlı simvoluna çevrildi.

1808-ci ilin əvvəlində Şəki xanlığında azadlıq mübarizəsi yeni vüsət aldı. Bu mübarizənin başında öz vətənini tərk edib İrana qaçmaq məcburiyyətində qalan Səlim xan dayanırdı.

1808-ci ilin iyununda Səlim xan Şəkinin bir sıra nüfuzlu bəylərinə məktub göndərdi. O məktubunda bildirirdi ki, tezliklə böyük qoşunla Şəkiyə gələcək, işğalçıları qılıncdan keçirəcək, Cəfərqulu xanı isə Şəkidən qovacaqdır. Səlim xan əhalini qanlı və amansız işğal rejiminə qarşı çıxışlara təhrik edir, hücum ərəfəsində bütün qüvvələrin səfərbərliyə alınmasını zəruri hesab edirdi.

Səlim xanın məktubundan xəbər tutan Cəfərqulu xan öz qoşunu ilə dərhal müxtəlif ərazilərə getdi. O Səlim xanla əməkdaşlıq edən bəyləri, onların yaxın qohumlarını girov götürərək Şəki qalasına saldı (66, s. 287).

1808-ci ilin iyununda Səlim xan böyük qoşunla Kürə yaxınlaşdı. Kür sahilindəki kəndlərin əhalisi Səlim xana qoşuldu. Bütün qüvvələri səfərbərliyə alan Səlim xan Şəkiyə hücuma hazırlaşdı. Bu xəbəri eşidən Cəfərqulu xan dərhal öz qoşunu ilə Kür sahilinə gəldi. General-mayor Nebolsinin və polkovnik Lisaneviçin başçılığı altında olan 600 piyada və bir top Cəfərqulu xana köməyə göndərildi. Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Qudoviç Cəfərqulu xana göndərdiyi təlimatda Səlim xanı diri tutmağı və bu işdə əlindən gələni əsirgəməməyi tapşırırdı.

Cəfərqulu xanın getməsindən istifadə edən şəhər əhalisi qiyam qaldıraraq Səlim xanın tərəfdarlarına qoşuldu. Bu zaman Səlim xanın məmuru Məmməd bəy 500 nəfərlik qoşunla Nuxa qalasının 50 verstliyinə gəlib çatdı. Kür sahilində böyük hərbi qüvvə ilə qarşılaşmaqdan vaz keçən Səlim xan İrana qayıtdı. Bu isə Cəfərqulu xana Şəkidə başlamış qiyamı asanlıqla yatırmağa imkan verdi. Cəfərqulu xan 900 nəfərlik rus qoşunu ilə üsyançıların üzərinə yeridi. Məmməd bəyin qüvvələri geri oturduldu. Üsyan məğlub oldu.

Cəfərqulu xan üsyançılara qanlı divan tutdu. 40 nəfər üsyançı həbs edilərək qalaya salındı. Cəfərqulu xan belə hesab edirdi ki, üsyançılara ağır cəza vermək və bu işi əhalinin gözü qarşısında həyata keçirmək lazımdır ki, xalqı daim qorxu içərisində saxlamaq mümkün olsun. Üsyançıların xeyli hissəsi kötəklə döyülmə cəzasına məruz qaldı. Üsyana qoşulan bəylər isə cəzalandırılmaq üçün ciddi nəzarət altında Tiflisə göndərildi. Onlar burada Rusiya qanunları ilə mühakimə edilərək Sibirə sürgün edildi (85, s. 288).

## § 2. 1814-cü il Şəki üsyanı

1807-ci il Göynük üsyanı yatırıldıqdan sonra da Şəkidə mövcud üsul idarəyə qarşı xalqın ümumi narazılığına son qoymaq mümkün olmadı. 1814-cü il noyabrın 8-də Qafqazdakı rus qoşunlarının baş komandanı general N. F. Rtişşevin imperatora göndərdiyi raportdan aydın olur ki, Cəfərqulu xanın ölümündən sonra Şəkiyə yeni xanın-İsmayıl xanın təyin edilməsi yerli əhalinin kəskin müqaviməti ilə qarşılandı (6, s. 556). Cəfərqulu xanın sağlığında Rusiyaya sədaqəti ilə diqqəti cəlb edən və buna görə də xanın varisi kimi tanınan İsmayıl xanın Şəki xanı elan edilməsi Şəkidə üsyanın başlanılmasına səbəb oldu. Yerli əhali yaxşı başa düşürdü ki, İsmayıl xan da öz atası Cəfərqulu xan kimi Rusiyanın müstəmləkə siyasətini can-başla yerinə yetirəcək.

Yeni xanın hakimiyyətini rəsmi şəkildə elan etmək üçün general-mayor Axverdov Şəkiyə gəldi. Bu xəbəri eşidən xalq qalanın ətrafına yığılaraq öz narazılığını bildirdi. Xalq Rusiyadan asılı olmaq istəmir və İsmayıl xanın hakimiyyətini tanımayacaqlarını bildirirdilər. Başlanan üsyana əhəmiyyətsiz yanaşan Axverdov mahalları idarə edən bəylərin və məliklərin yığıncağında İsmayıl xanı Şəki xanı elan edərək bu ərazidən Şirvan xanlığına getdi. Məqsəd, vaxtilə Cəfərqulu xanla-Şirvan xanlığı arasında yaranmış ümumi narazılığa son qoymaq və yeni xanla-İsmayıl xanla Mustafa xan arasında rus imperiyasının mənafeyi naminə xoş münasibət yaratmaq idi. General-mayor Axverdovun getməsindən sonra xalqın ümumi narazılığı daha da artdı. Üsyan genişlənərək yaxın kəndlərə və xanın bütün iqamətgahına yayıldı. Üsyançılar Rusiyapərəst İsmayıl xanın divanının bağlanmasını tələb edir və yeni xanın hakimiyyətini tanımayacaqlarını bildirirdilər.

Üsyanın getdikcə genişlənməsi təhlükəsi Nuxada yerləşdirilmiş Sevastopol piyada polkunun kapitanı Denibekovu cəld bir sıra tədbirlər həyata keçirməyə məcbur etdi. O, İsmayıl xanın və Şəkinin bir sıra nüfuzlu bəylərinin məsləhəti ilə üsyan başçıları ilə danışığa girdi. Lakin kapitan Denibekov xəyanət edərək danışığa gələn 4 nəfər üsyan başçısının həbs olunması haqqında əmr verdi. Öz tərcüməçisini 2 nəfər kazakla üsyançıların yanına göndərən Denibekov onlara evlərinə dağılışmağı məsləhət gördü, əks halda silahlı divan tutulacağı ilə hədələdi.

Üsyançılar şəhər ətrafına çəkildi və möhkəmlənməyə başladı. Kapitan Denibekov üsyançıların güclənməsinə yol verməmək üçün vaxt itirmədən özü ilə 70 əsgər və bir top götürərək qaladan çıxıb üsyançıların üzərinə yeridi. Silahsız xalq müqavimət göstərməyin çətin olduğunu görərək əz yaşayış yerinə qayıtdı: Şəkidə Üsyan əhval-ruhiyəsini isə uzun müddət yatırmaq mümkün olmadı.

Məhz bu qorxu Şəki qalasında yerləşdirilmiş qarnizonun yeni hərbi qüvvələr hesabına möhkəmləndirilməsinə səbəb oldu. Vəziyyətin ağırlığını görən general-mayor Axverdov yenidən Şirvan xanlığından Şəkiyə qayıtmağa məcbur oldu. O general N. F. Rtişşevə göndərdiyi məlumatda artıq sakitliyin yaranması haqqında xəbər verirdi.

Şəkidə yaranmış sakitlik isə yalnız zahiri xarakter daşıyırdı. Mübarizəni axıra qədər davam etdirmək istəyən 250 nəfər Car ərazisindən keçərək Kaxetiya vasitəsilə Tiflisə, general N. F. Rtişşevin yanına getdi. Bundan xəbər tutan general üsyançıları şəhərə buraxmamaq haqqında əmr verdi. N. F. Rtişşev tərəfindən üsyançıların yanına göndərilən Gürcüstan qubernotoru gen.-m. Simonoviç və Tiflisin hərbi komendantı 16 nəfərlə Tiflisə qayıtdı. Onlar əsasən üsyan başçıları və Şəki xanlığında əhalinin daha çox inandığı, hörmət etdiyi din xadimləri idi. General-mayor N. F. Rtişşev nəinki üsyan başçılarının şikayətinə qulaq asdı, hətta hiylə ilə onları bu işdən çəkindirməyə çalışdı. Üsyançıların möhkəm dayandığını və geri çəkilmədiyini görən N. F. Rtişşev onları hərbi məhkəməyə verdi. Üsyançıların bir hissəsi Sibirə və Orenburqa sürgün edildi, bir hissəsinə kötəklə döyülmə cəzası verildi, qalanları isə cəzalandırmaq üçün İsmayıl xanın ixtiyarına göndərildi.

Tiflisə gedən üsyançılar İsmayıl xanın məmuru Maqsud ağanın başçılığı altında bir rotanın müşayəti ilə Şəkiyə qaytarıldı. Onlar yeni xana və Rusiya imperiyasına sadiq qalacaqlarına and içdi.

Sonralar Şəki əhalisinin Qafqazda rus qoşunlarının yeni baş komandanı A. P. Yermolova yazdığı məktubdan aydın olur ki, Sibirə sürkün olunanlardan 8 nəfəri orada ölmüşdü. Əhali sağ qalanların, o cümlədən Mahmud ağa Hacıxanovun, Molla Hacının, Hacı Əli oğlunun, Məmmədyusif Səfərovun və b. geri qaytarılmasını xahiş edirdi (54, s. 730).

1814-cü il üsyanı yatırıldı. Təpədən-dırnağadək silahlanmış rus ordusuna qarşı müqavimət göstərmək olduqca çətin idi. Buna baxmayaraq xalq yadelli əsarətinə-ağalığına qarşı öz qəzəb və nifrətini bildirməkdən çəkinmirdi. Şəki xanlığına yeni hərbi qüvvələr gətirilir, üsyan baş verməməsi üçün bütün tədbirlər görülürdü.

Görülən tədbirlərə baxmayaraq Azərbaycanın şimal-qərb ərazisi müstəmləkə əsarətinə qarşı çevrilmiş ən qüvvətli mübarizə mərkəzi olaraq qalırdı.

İkinci Rusiya-İran müharibəsi zamanı azadlıq uğrunda mübarizə daha da gücləndi. Müharibənin əvvəlində İran qoşunlarının müvəffəqiyyətli hərbi əməliyyatları çarizmin milli müstəmləkə siyasətinə qarşı çıxışların artmasına səbəb

oldu. Bu çıxışlar işğalçılarla yanaşı çarizmə qulluq edən yerli feodalların özbaşınalığı və zorakılığı əleyhinə də çevrilmişdi.

1826-cı ildə Şəki əhalisi yenidən üsyan qaldırdı. Qorxuya düşən Rusiya öz qoşunlarını şəhərdən çıxarmaq məcburiyyətində qaldı. Səlim xanın oğlu Hüseyn xan yaranmış vəziyyətdən istifadə edərək xanlığı ələ keçirdi. Lakin 1826-cı ilin sonunda rus qoşunlarının qələbəsindən sonra hakimiyyəti əldə saxlaya bilməyən Hüseyn xan İrana getdi. Şəkidəki rus hərbi qüvvələri artırıldı. 1827-ci ildə bəylərin böyük bir hissəsi İrana getmək məcburiyyətində qaldı. Onlara məxsus olan əmlak isə Rusiyanın dövlət xəzinəsinin ixtiyarına keçdi (106, v. 13-14).

## § 3. 1830-cu il Car-Balakən üsyanı

Şimal-qərbi Azərbaycanda çarizmin müstəmləkə əsarətinə qarşı çevrilmiş ən böyük üsyanlardan biri də 1830-cu ildə baş verən Car-Balakən üsyanı idi.

1803-cü ildə rus qoşunları Car-Balakənə daxil olduqları ilk gündən burada əhalinin güclü müqaviməti ilə qarşılaşmışdı. Azadlıq uğrunda mübarizə aparan qəhrəman xalqı diz çökdürə bilməyən işğalçılar Car-Balakənin daxili idarəçiliyini 1830-cu ilə qədər saxlamağa məcbur olmuşdu. 1830-cu ildə isə Car-Balakən qəti şəkildə işğal edildi. Car-Balakənin Rusiya tərəfindən işğal edilməsinə etiraz əlaməti olaraq xalqın böyük üsyanı başladı. Üsyan ərəfəsində Car-Balakəndə müridizm ideyalarının geniş şəkildə yayılması azadlıq uğrunda gedən mübarizənin ideologiyasına çevrilmişdi. Müridizmin məğzində sihadla şəhidlik fəlsəfəsi bir-birini tamamlayırdı. Burada torpaq təəssübkeşliyi ilə yanaşı din müqəddəsliyi də mühüm yer tuturdu.

Üsyan ərəfəsində Car-Balkəndə, xüsusilə Car, Balakən və Katex icmalarında müridizmin çoxlu tərəfdarları var idi. Müridizmin tərədarları içərisində müxtəlif qruplar-tacirlər, sənətkarlar, kəndlilər birləşmişdi. İşğala qarşı mübarizə onları birləşdirən başlıca və əsas məqsəd idi.

1830-cu ilin mayında Şimalı Qafqaz mürüdlərinin rəhbəri şeyx Şaban carlılara müraciət edərək onları xainlərə qarşı mübarizəyə çağırdı. Bu müraciət bütün icmalarda böyük əks-səda doğurdu. Şeyx Şaban öz müraciətində xalqı təkcə rus-işğalçılarına qarşı deyil, eyni zamanda onların tərəfinə keçən iri torpaq sahiblərinə qarşı fəal mübarizəyə çağırırdı. Təsadüfi deyil ki, şeyx Şabanın müraciətini Car icmasının yığıncağında oxuyan qazı onun ayaqları altına salıb tapdaladı.

İyunun əvvəlində Car-Balakən icmasında başlanan həyəcan rusları qorxuya saldı və öz qüvvələrini səfərbərliyə almağa məcbur etdi. Əhali hər yerdə açıq-aşkar rusların tələblərini yerinə yetirməkdən boyun qaçırır, öz üzərlərinə götürdükləri mükəlləfiyyətləri ödəməkdən imtina edirdilər. Belə bir vaxtda şeyx Şabanın ilk dəstələri Balkənin 15 kilometrliyinə gəlib çıxdı. Şeyx Şaban camaatlara göndərdiyi məktublarda onları mübarizəyə başlamağa və onun tərəfinə keçməyə çağırdı.

Rusiya əvvəlcə varlı toxum başçıları və din xadimlərinin vasitəçiliyi ilə şeyx Şabanla danışığa girməyə cəhd göstərdi. Onlar Şabandan bu yürüşdən əl çəkərək geri qayıtmağı tələb etdilər. Lakin göstərilən bütün cəhdlər nəticəsiz qaldı.

İyunun 21-də döyüş başladı. Şeyx Şabanın dəstələri sürətlə hərəkət edərək Qəbizdərəni keçdi və Balakənə yaxınlaşdı. Yolda onlara Balakən, Katex, Car və Zaqataladan olan atlı dəstələri də qoşuldu. Rus qoşunları ilə gedən şiddətli vuruşma bir neçə gün davam etdi. Döyüş toplarından istifadə edən rus qoşunları qələbə qazandı. Şeyx Şaban dağlara çəkildi. Şeyxin Balakənə hücumu zamanı ona qoşulanların böyük əksəriyyəti həbs olundu. İlk müvəffəqiyyətdən razı qalan ruslar sərt cəza tədbirlərinə əl atdılar. Əhali üzərinə qoyulan vergilər artırıldı və onun yığılması başlandı. İşğalçılar əhalini bir sıra ağır mükəlləfiyyətləri yerinə yetirməyə məcbur edirdilər. Onların bir hissəsi tikilməkdə olan Zaqatala qalasına tikinti materialı daşıyıb gətirməli, onun inşasını sürətləndirmək üçün bir sıra işləri görməli idi.

Lakin iyun üsyanından sonra Carda mövcud olan vəziyyət nəinki yoluna düşdü, əksinə daha da gərginləşdi. Əgər iyun üsyanı ərəfəsində şeyx Şaban Car-Balakənlilərin ona qoşulacağına tam əmin deyildisə, indi carlılar işğalçılara qarşı mübarizədə təşəbbüsü öz əllərinə almışdılar. Onlar passiv şəkildə dağlıların gəlib çıxmasını gözləmir, əksinə özləri yeni üsyana hazırlaşırdılar. Vəziyyətin kəskin olduğunu görən Zaqatala qalasındakı rus qoşunlarının komandanı Sergeyev hətta qraf Paskeviçdən iyun üsyanı zamanı həbs olunanların cəzalandırılmasını bir qədər ləngitməyi xahiş edirdi. Onun fikrincə bu hadisə vəziyyəti bir qədər də mürəkkəbləşdirə bilərdi. Paskeviç isə nəinki günahkarların qısa müddətdə cəzalandırılmasını istəyir, eyni zamanda Car-Balakən camaatlarının Tiflisdə olan girovlarının həbs olunmasını tələb edirdi. Nəhayət, Sergeyevin ciddi xahişlərindən sonra o iyun üsyanı zamanı həbs olunanların cəzalandırılmasını 1831-ci ilin yanvarınadək təxirə saldı.

Car-Balakən camaatlığında mövcud vəziyyəti qiymətləndirən dağlıların silahlı qüvvələri 1830-cu ilin sentyabrında yenidən toplaşmağa başladı.

Car-Balakən üsyançıları ilə əlaqə yaradıldı. Bu dəfə hərəkatın başında Həmzət bəy dururdu. 2 minə qədər silahlı dağlı qoşunlarının düzənlikdə görünməsi üsyanın başlamasına işarə oldu.

Üsyan ərəfəsində rus qoşunları içərisində yayılan epidemiya ciddi qarışıqlıq yaratmışdı. Yeni Zaqatala qalasının tikintisi dayandırıldı. Üsyan genişlənərək İlisu sultanlığının da ərazisinə yayıldı.

Oktyabrın 10-da ruslar yeni hərbi qüvvələr gətirdi. Rusiya başlanmış üsyan zamanı qüvvələri parçalamaq məqsədi ilə yenə də ingiloyları öz tərəfinə çəkməyə cəhd göstərdi. Rusiya ingiloylara müraciət edərək onları üsyançılara qoşulmamağa çağırdı, əvvəzində isə onları bütün vergi və mükəlləfiyyətlərdən azad edəcəyini bildirdi. Həmzət bəy hücuma keçərək tikilməkdə olan Zaqatala qalasındakı rus qoşunlarının bir hissəsini mühasirəyə aldı. Oktyabrın 13-qalanın xarici aləmlə

əlaqəsi bütünlüklə kəsildi. Ətraf meşəliklərdə əlverişli döyüş mövqeyi tutan üsyançılar qaladakı rus əsgərlərinə ərzaq və odun aparan hərbiçilərə hücum edirdi. Bu müddət ərzində üsyan demək olar ki, bütün Car-Balakən əyalətini bürümüşdü.

Yaranmış vəziyyətdən çıxış yolunu ruslar hücuma keçməkdə görürdülər. Oktyabrın 15-də rus qoşunları üsyançılar üzərinə əks hücuma keçdilər. Köməyə gələn 1500 rus əsgərinin komandanı Strekalov Katex yolunun solundan hərəkət edərək qalanın 2 kilometrliyində olan yüksəkliyi ələ keçirdi. O, qoşunun bir hissəsinə meşədə döyüş mövqeyi tutmağı əmr etdi, özü isə qala üzərinə hücuma keçdi. Lakin şiddətli döyüş nəticəsində mühasirəyə düşən rus qoşunları iki hissəyə parçalandı və darmadağın edildi. Rus qoşunları ağır məğlubiyyətə uğradı və böyük itki verdi. 6 rus zabiti, 243 əsgər öldürüldü, yüzdən çoxu isə yaralandı. Bütövlükdə 400-dən çox rus əsgəri sıradan çıxarıldı, onların bütün döyüş sursatı üsyançıların əlinə keçdi.

Rus qoşunlarının ağır məğlubiyyəti əslində rus silahının acizliyi, xalqın qəhrəmanlıq mübarizəsinin qanunauyğun nəticəsi idi. Bu məğlubiyyət bütün Zaqafqaziyada Rusiyanın siyasi və hərbi nüfuzuna ciddi təsir göstərdi.

15 oktyabr qələbəsi üsyançılar arasında geniş əks-səda doğurdu. Əvvəllər tərəddüd edənlər də üsyançıların tərəfinə keçdi. Oktyabrın sonunda üsyançıların sayı 10 min nəfərə çatırdı.

Lakin üsyançılar əldə etdiyi nailiyyəti axıra qədər qoruyub saxlaya bilmədilər. Noyabrın əvvəlində üsyançılarn vəziyyəti pisləşdi. Rus qoşunlarına yeni qüvvələr köməyə gəldi. Bu qoşunlar Əlibaddan üsyançılara gələn taxılın qarşısını kəsdi. Üsyançılar içərisində aclıq başladı. soyuqların düşməsi, yoluxucu xəstəliklərin yayılması da vəziyyəti ağırlaşdırdı.

Yaranmış vəziyyətdən istifadə edən ruslar noyabrın 8-də Tala icmasını tutdular. Lakin üsyançılara ağır zərbə onların düşərgəsində vuruldu. Üsyançılar üzərində qazandığı ilg qələbəni ruslar diplomatik yolla möhkəmləndirməyə çalışırdılar. Rusiya Şeyx Şaban və Həmzət bəylə danışığa girərək onları hərəkatdan ayırmağa cəhd göstərirdi. Bu isə üsyançıların qüvvələrini parçaladı və mübarizəni zəiflətdi. Yaranmış vəziyyətdən istifadə edən rus qoşunları noyabrın 14-də üç istiqamətdə Cara hücuma keçdi. Carlı və dağlı tayfaları kəskin müqavimətə baxmayaraq öz mövqelərini saxlaya bilmədilər. Qaladan çıxarılan üsyançılar dərəyə endi. Köhnə Zaqatala və Carı ələ keçirən rus qoşunlarının üsyançılarla əsl müharibəsi başladı. İkiqat hərbi üstünlüyə malik olan ruslar üsyançıları güclü atəşə tutdu. 3 nəfər öldürüldü, onlarla üsyançı yaralandı.

Rus qoşunları üsyançıları məğlub etməklə öz işlərini bitmiş hesab etmirdilər. Onlar Carı bütünlüklə yer üzündən silməyə çalışırdılar. Xilas olan üsyançıların bir hissəsi dağlara qaçmaqla canını qurtardı.

Üsyan yatırıldı. Üsyan iştirakçılarına amansız divan tutuldu. Müqavimətin dayandırılmasına baxmayaraq işğalçılar evləri dağıdır, bağları, əkin yerlərini yandırırdı.

Üsyan başçılarından 32 nəfəri həbs edilərək Tiflisə göndərildi. Həbs olunanlar içərisində Çapar-Əli, Nuxlu və Çimçili toxumlarının üzvləri, Katex, icmasının starşinası Kutur Süleyman oğlu, Katex sakini İbrahim Zəkər oğlu və Carda mürüdizmin fəal təbliğatçısı səfər Hacı oğlu da var idi. Köhnə Zaqatala və Car demək olar ki, tamamilə dağıdıldı. Carın əhalisi düzənliyə, o cümlədən Cardan 25 km aralı olan Danaçıya, bir hissəsi isə Gürcüstana köçürüldü. Carlılar bütün mülkiyyətlərini itirdilər. Onlar silah gözdirmək hüququndan məhrum edildi.

Üsyanın məğlub olmasına və üsyançılara amansız divan tutulmasına baxmayaraq 1830-cu ilin dekabrında Balakəndə mübarizə yenidən qızışdı. Noyabrda üsyanın məğlub olmasından sonra dağlara qaçan üsyançılar yenidən dağlı tayfaları ilə birləşməyə başladı. Bu dəfə üsyan mərkəzi Balakən idi. Əvvəlki hadisələrdən qorxuya düşən rus komandanlığı Balakənə 2 kazak batalyonu göndərdi. Ansuxlular da üsyana qoşuldu və üsyançıların sayı iki minə çatdı. Bu hərbi qüvvənin başında Əliçulla Məhəmməd dururdu.

Dekabrın 15-də hücuma keçən üsyançılar 3 gündən sonra Balakən icmasının Sabluani kəndini ələ keçirdilər. Əliçulla Balakən camaatına və kəndxuda Murtuz Əli oğluna müraciət edərək dərhal onunla birləşməyə çağırdı. Camaatın əksəriyyəti bu çağırışa qoşuldu. Üsyan genişləndi.

Qraf İ. F. Paskeviç cəld bir sıra tədbirlər həyata keçirdi. General baron Rozen Yeni Zaqatala qalasına ezam edildi.

Dekabrın 22-də rus qoşunları 2 istiqamətdə Balakən üzərinə hücuma keçdi. Şiddətli döyüş axşama qədər davam etdi. Gecənin qaranlığından istifadə edən üsyançılar müqaviməti dayandırıb dağlara çəkildi. Balakənlilərin bir hissəsi isə öz ailələri ilə birlikdə meşəliklərdə gizləndi.

Məğlubiyyətlə başa çatmasına baxmayaraq 1830-cu il iyun-dekabr üsyanın çox böyük tarixi əhəmiyyəti var idi.

## § 4. 1838-ci il Şəki üsyanı

1819-cu ildə Şəki xanlığı ləğv edildi. Şəkidə komendant üsul-idarəsi tətbiq edildi. Şəki əyalətinin idarəçiliyi hərbi dairə rəisinə tabe olan komendanta tapşırıldı. Komendantların özbaşnalığı, zorakılığın geniş yayılması əhalinin vəziyyətini tamamilə ağırlaşdırdı. Xanlıq zamanı mövcud olan vergi və mükəlləfiyyətlərlə yanaşı yeni vergilər tətbiq edildi.

Çıxılmaz vəziyyətə düşən xalq çıxış yolunu yenə də silaha əl atmaqda görürdü.

1838-ci il Şəki üsyanı XIX əsrin I yarısında şimal-qərbi Azərbaycanda baş verən ən böyük üsyanlardan biri idi. Bu üsyanın xarakterik xüsusiyyəti ondan ibarət idi ki, müstəmləkə əsarətinə qarşı çevrilmiş azadlıq mübarizəsində Şəki əhalisi ilə yanaşı dağlı tayfaları da iştirak edirdi.

Mənbələrin verdiyi məlumata görə üsyana İranda vəfat edən Şəki xanı Hüseyn xanın oğlu Məmməd bəy başçılıq edirdi. 1837-ci ildə öz vətəninə qayıdan Məmməd bəy tərəfdarları ilə birlikdə müstəmləkə əsarətinə qarşı mübarizəyə başladı. Lakin tezliklə həbs olunaraq hərbi məhkəməyə verildi. 1838-ci ilin avqustun 8-də o, həbsxanadan qaçaraq Quba mahalının yuxarı hissəsində gizləndi (86, s. 283).

1838-ci ilin avqustunda Quba mahalının yuxarı hissəsində 5 minədək atlı və piyada qoşun toplayan Məmməd bəy Rutuldan olan Ağa bəylə birlikdə Şəki üzərində hücuma hazırlaşmağa başladı.

Avqustun 30-da çoxsaylı dağlı qoşunu Xaçmaz mahalı yaxınlığında dağı aşaraq Şəki əyalətinə girdi. 400 evdən ibarət Xaçmaz kəndinin sakinləri dağılara qoşuldu. Mahal naibinin kənd əhalisindən yaxınlaşan dağlı qoşununa qarşı müqavimət göstərmək üçün dəstə toplamaq cəhdi baş tutmadı (87, s. 320-321).

Məmməd bəy Şəki əhalisinə göndərdiyi müraciətdə bildirirdi ki, o şəkililəri öz dindaşları və dostları hesab edir. Onlara qarşı heç bir pis niyyəti yoxdur. Yürüşdə əsas məqsəd onları xristianların zülmündən azad etmək, bütün işğalçıları məhv etməkdir (15, s. 283).

Məmməd bəyin bu müraciəti Şəkidə üsyanın başlaması üçün bir işarə oldu.

